RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

100

№ 16 (9183) 25 YANVAR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Heydər Əliyev mənim həyatımda

## 1936-cı ildə Əliyevlər ailəsinə pənah gətirdim



### Heydər Əliyevin yeniyetməlik, gənclik illərini onun uşaqlıq dostu - ikiqat tələbə yoldaşı xatırlayır

*1936-cı ilin avqust ayının ortalarında mən, atam və Zeynalabdin əmi Naxçıvan şəhərinə yola düşdük. Əlirza əminin evində bizi böyük mehribanlıqla qarşıladılar. Çay-çörəkdən sonra Zeynalabdin əmi mətləb üstünə gəldi. Sonra atam danışdı.*

*Onları diqqətlə dinləyən Əlirza əmi mənə nəzər salıb, "Ay bala, heç narahat olma, bizim uşaqla birlikdə sənəd verərsən, sonra da imtahana gedərsən, görürəm, hər ikiniz də fərasətlisiniz, imtahan çətin olmaz, elə texnikumda da iki qardaş biri-birinizə kömək olarsınız" dedi.*

*Bu vaxt içəri bir yeniyetmə daxil olaraq, bizə xoşgəldin etdi. Əlirza əmi oğluna xitabən, "Tanış ol, bir yerdə imtahan verəcəksiniz" söylədi. Əlimi irəli uzadıb "Salam, mənim adım Dövlətdir" dedim.*

*Qarşımdakı yeniyetmə isə üzümə gülümsəyərək sanki sınayıcı tərzdə gücümü yoxlamaq məqsədilə əlimi çox möhkəm sıxdı və özünü təqdim etdi:*

*"Heydər"...*

4-5

# İlham Əliyevin sülh gündəliyi



### Beynəlxalq birlik onu dəstəkləməyə məhkumdur

Qalib Ali Baş Komandan kimi İlham Əliyev həm Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında misli görünməmiş yenidənqurma layihələrini həyata keçirir, həm də regionun Avrasiyanın mühüm nəqliyyat-tranzit habına çevrilməsi üçün yeni əməkdaşlıq platformalarının yaradılması təşəbbüsləri ilə çıxış edir. Azərbaycan Prezidenti bəyan edir ki, Ermənistanla sülh sazişinin bağlanması bölgədə sülhün təminatını şərtləndirəcək və Zəngəzur dəhlizinin açılması ilə yaranacaq yeni imkanlar ilk növbədə bölgə ölkələrinin iqtisadiyyatına dividendlər qazandıracaq.

Bütün bunlar göstərir ki, İlham Əliyev sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir. Baş verən bütün proseslər təbii ki, beynəlxalq birlik tərəfindən də izlənilir və əsl reallıq təqdir edilir. Çünki beynəlxalq təşkilatların, böyük dövlətlərin əksəriyyəti Cənubi Qafqazda ilk növbədə təhlükəsizliyin təminatının vacibliyini vurğulayırlar.

Yanvarın 23-də ABŞ dövlət katibi Antoni Blinkenin İlham Əliyevə zəng edərək ABŞ-nin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına sadiqliyini ifadə etməsi və sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini bildirməsi də bunu bir daha təsdiqləyir.

6

## AVROPA PULRAMENTİ

### Mayası rüşvətlə yoğrulan Avropa Parlamentinin erməni sevgisi

İndi gəlirik Avropa Parlamentinin erməni sevgisinə.

Onun erməni aşiqliyi nədən qaynaqlanır və niyə cidd-cəhdlə Ermənistanı dayanmadan müdafiə edir!

*Bəlkə* Ermənistan həqiqəti söyləyən dövlətdir?

*Amma* erməni yalanı bütün dünyada məşhurdur, bu millət tarixindən tutmuş mədəniyyətinə, dininə-kilsəsinə, çarlığına, "böyük Ermənistan" mifinə qədər hər şeyini uydurub, saxtalaşdırıb!

*Bəlkə* Ermənistanın ərazisi işğala məruz qalmışdı?

*Amma* 30 il ərzində Ermənistanın Azərbaycan ərazilərini vəhşicəsinə dağıtdığını, tarixi və dini abidələrimizi yerlə bir etdiyini, hətta qəbiristanlıqlarda törətdiyi vandallıqları bütün dünya gördü və bildi!

*Bəlkə* erməni fağır, məzlum, yazıq millət olduğundan ona canları yanır?

*Amma* fağır, məzlum, yazıq millət Xocalıdakı soyqırımı törətməzdi, uşaqları, qocaları, qadınları öldürməzdi, girov götürərək başlarına olmazın müsibətləri açmazdı, Qarabağ ərazisində milyonlarla ölüm tələsi olan mina "əkməzdi".

*Bəlkə* Ermənistanın mövqeyi və əməlləri beynəlxalq hüquqa, konvensiyalara uyğundur?

*Amma* Azərbaycan ərazilərinin işğalından dərhal sonra BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi (və yerinə yetirmədiyi) 4 məlum qətnamə (Ermənistan qoşunlarının qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxması barədə) həqiqətin və beynəlxalq hüququn Azərbaycan tərəfində olduğunu sübuta yetirir!

4

## İlham Əliyev Azərbaycanla Rusiya arasında terrorçuluqla mübarizədə əməkdaşlıq haqqında sazişi təsdiqlədi



Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında fiziki şəxslər tərəfindən nağd pul vəsaitinin və (və ya) pul alətlərinin transsərhəd hərəkəti zamanı cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində informasiya əməkdaşlığı haqqında Saziş təsdiq edilib.

3

## İlham Əliyevin strateji təşəbbüslərinə qlobal dəstək

Yeni başlayan "Heydər Əliyev İli" dövlət başçımızın dəvət edildiyi mötəbər və nüfuzlu beynəlxalq tədbirlərdə yüksək fəallığı ilə müşahidə olundu.

Prezident İlham Əliyev yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında dünyanın 150 ölkəsindən 30 minədək nümayəndənin iştirak etdiyi "Əbu-Dabi Dayanıqlılıq Həftəsi"nin rəsmi açılış mərasimində çıxış etdi.

Qlobal əməkdaşlıq və liderlik, iqtisadiyyat və innovasiya sahəsində dayanıqlı inkişafı hədəfləyən beynəlxalq platformadan Azərbaycanın strateji hədəflərini bəyan etdi. Daha sonra Prezident Davosda eyni gündə başlayan Dünya İqtisadi Forumunda iştirak etdi. Dövlətimizin başçısı burada çoxsaylı görüşlər keçirməklə yanaşı, "Avrasiya Orta dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında çıxış etdi.

8




## "Fransa polisi hökumətə qarşı keçirilən aksiyalar zamanı daha çox zorakılıq törədir"

Fransa polisi aksiyalar məsələsinə ikili standartlarla yanaşır. Ü.Dönməz söyləyib ki, bu ölkənin asayiş keşikçiləri PKK terror qruplaşması tərəfdarlarının yanvarın 19-da Parisdə keçirdiyi etiraz aksiyası zamanı təxribatların qarşısını almayıb və prosesi kənardan izləyib. "Mən jurnalistlik fəaliyyətim dövründə çoxlu sayda etiraz aksiyasını izləmişəm. Müşahidələrimə əsaslanıb deyə bilərəm ki, Fransa polisi etirazçılara qarşı çox zaman səbr nümayiş etdirmir. Eyni zamanda nümayişlərə fərqli yanaşmanı da çox görmüşəm. Məsələn, PKK tərəfdarlarının aksiyasında etirazçılar çoxlu sayda təxribatlar törədirdilər. Buna baxmayaraq, polis zorakılıq hallarına yol verənlərə qarşı tədbir görmürdü, sadəcə, kənardan izləyirdi", - jurnalist vurğulayıb.

9

## Aksiya başlayandan Laçın yolundan 980-dən çox nəqliyyat vasitəsi keçib



9

## Ermənistan ordusunda xaos böyüyür

Ermənistan İstintaq Komitəsi 15 hərbçinin ölümü ilə əlaqədar sənədləri Müdafiə Nazirliyindən götürüb. Hadisənin baş verməsindən 5 gün keçməsinə baxmayaraq, heç kimə qarşı ittiham irəli sürülməyib. Bildirilib ki, hadisə ilə əlaqədar 20 nəfər dindirilib. Göründüyü kimi, orduda cinayətlərin sayının artması vəziyyətin daha da acınacaqlı hala gəldiyini göstərir. Orduda özünü qabarıq göstərən neqativ hallardan biri də oğurluq, silah və sursatların detallarının sökülərək satılmasıdır. Elə bu yaxınlarda qeyd edilənlərlə bağlı Ermənistan silahlı qüvvələrinin hərbi hissələrindən birində daha bir insident baş verib. "4rd.am" saytı yazır ki, "İqla" daşınan zenit-raket kompleksinin qida blokunu oğurlayıb satmaq istəyən əslən yezidi kürdü olan Valodya Sloyan adlı hərbi qulluqçu saxlanılıb. Ələ keçdiyini görən Sloyan kompleksin qida blokunu yararsız hala salmağa nail olub.

9

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 14-cü və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346; 2022, № 6, maddə 580, № 8, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 315.2-ci maddə və 316-cı maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"315.2. Şəxsin ölmüş elan edilməsinə dair məhkəmə qətnaməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ölümün qeydə alınması üçün əsasdır.";

"Bu qətnamə müvafiq olaraq əmlakın idarə edilməsinin və şəxsin ölümü haqqında vətəndaşlıq vəziyyəti akt qeydinin ləğvi üçün əsasdır.";

1.2. 350-ci maddə üzrə:

1.2.1. 350.1-ci maddənin ikinci cümləsində "qətnamədə" sözü "qətnamənin nəticə hissəsində" sözləri ilə əvəz edilsin;

1.2.2. 350.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"350.4. Uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

1.3. 445.0.5-ci maddədə "aktlarının" sözü "akt" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800; № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308, № 6 (I kitab), maddə 541, № 7, maddə 711, № 8, maddə 894; 2022, № 1, maddə 11; № 6, maddə 580, № 8, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 125.1-ci maddənin üçüncü cümləsində "qeydiyyat kitabında" sözləri "akt qeydində" sözləri ilə əvəz edilsin;

2.2. 127.1-ci maddədə "doğumun qeydi kitablarına" sözləri "doğum haqqında akt qeydlərinə" sözləri ilə əvəz edilsin;

2.3. 130.2-ci maddədə "aktlarının qeydiyyat kitablarından" sözləri "akt qeydlərindən" sözləri ilə əvəz edilsin, həmin maddəyə "çıxarışlar" sözündən sonra ", şəhadətnamələr və ya arayışlar" sözləri əlavə edilsin;

2.4. 159.2-ci maddədə "qeydləri" sözü "akt qeydlərini" sözləri ilə əvəz edilsin;

2.5. 160.1-ci maddədə "aktlarının qeydində" sözləri "akt qeydlərində" sözləri ilə əvəz edilsin;

2.6. 161.1-ci maddədən birinci halda "edilməsi" sözü çıxarılsın və həmin maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

2.7. 163-cü maddənin adında "aktları" sözü "akt" sözü ilə əvəz edilsin;

2.8. 164.3-1-ci maddədə "aktlarının akt qeydi" sözləri "akt qeydləri" sözləri ilə əvəz edilsin;

2.9. aşağıdakı məzmunda 164.5-ci maddə əlavə edilsin:

"164.5. Vətəndaşlıq vəziyyəti akt qeydi "Elektron məhkəmə" informasiya sistemindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülmüş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda, akt qeydi üzrə şəhadətnamə və ya arayış barəsində akt qeydi tərtib edilmiş şəxs müraciət etdikdə verilir.";

2.10. 165-ci maddənin birinci cümləsində "görə qeydiyyat üçün" sözləri "(qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsinə) görə" sözləri ilə əvəz edilsin;

2.11. 176.2-ci maddə ləğv edilsin;

2.12. 177-ci maddə üzrə:

2.12.1. adında "doğulması" sözü "doğumu" sözü ilə, "yazılarına" sözü "qeydlərində" sözü ilə əvəz edilsin;

2.12.2. mətnində "doğulması" sözü "doğumu" sözü ilə, "yazısına" sözü "qeydində" sözü ilə əvəz edilsin;

2.13. 178-ci maddə üzrə:

2.13.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 178. Övladlığa götürmə haqqında akt qeydinin ləğvi";**

2.13.2. 178.1-ci maddənin birinci cümləsində "qeydi" sözü "akt qeydini" sözləri ilə, "yazılarda" sözü "akt qeydində" sözləri ilə əvəz edilsin;

2.13.3. 178.1-ci maddənin ikinci cümləsində "doğulması haqqında qeydlərdə" sözləri "doğumu haqqında akt qeydində" sözləri ilə əvəz edilsin;

2.13.4. 178.2-ci maddəyə "qeydini" sözündən əvvəl "haqqında akt" sözləri əlavə edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 687; 2004, № 7, maddə 505; 2006, № 3, maddə 223; 2010, № 11, maddə 936; 2013, № 5, maddə 464; 2014, № 11, maddə 1334; 2015, № 10, maddə 1083; 2018, № 6, maddə 1189; 2019, № 3, maddə 386, № 5, maddə 794, № 8, maddə 1360, № 11, maddə 1681; 2022, № 1, maddə 12) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nin 41-ci maddəsinin ikinci hissəsində "itirilmiş qeydlərin bərpası, habelə vətəndaşın adının, soyadının və atasının adının dəyişdirilməsi haqqında vəsatət qaldırır" sözləri "itmiş vətəndaşlıq vəziyyəti akt qeydlərini bərpa edir, vətəndaşlıq vəziyyəti akt qeydlərini ləğv edir, akt kitablarını saxlayır və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələr və ya arayışlar verir" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829, Azərbaycan Respublikasının 2022-ci il 11 oktyabr tarixli 609-VIQD nömrəli Qanunu) 12.4-cü və 16.3.6-cı maddələrində "aktlarının qeydlərində dəyişikliklərin, düzəlişlərin və əlavələrin" sözləri "akt qeydlərində dəyişiklik" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 1998-ci il 13 mart tarixli 684 nömrəli, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 24 fevral tarixli 373 nömrəli, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 2 avqust tarixli 438 nömrəli, "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında" 2007-ci il 12 mart tarixli 543 nömrəli, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" 2012-ci il 13 fevral tarixli 593 nömrəli və "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 684 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 168; 2002, № 8, maddə 478; 2006, № 12, maddə 1034; 2008, № 8, maddə 713; 2009, № 7, maddə 532, № 8, maddə 913; 2015, № 3, maddə 262; 2021, № 6 (I kitab), maddə 569) 2.4-cü bəndinə "Naxçıvan Muxtar Respublikası" sözlərindən əvvəl "Naxçıvan Muxtar Respublikasının ərazisində" sözləri, "kəndlərdə" sözündən sonra "nikahın bağlanmasının qeydiyyatı üzrə" sözləri əlavə edilsin və həmin bənddən "rayon (şəhər)" və "habelə" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 790; 2006, № 9, maddə 741; 2007, № 2, maddə 91; 2008, № 8, maddə 722; 2010, № 9, maddə 770, № 10, maddə 858, № 12, maddə 1061; 2013, № 5, maddə 520; 2014, № 9, maddə 1051; 2019, № 6, maddə 1029) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"nin 8.2-ci bəndində "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Azərbaycan Respublikasının xaricdəki konsulluq idarələri" sözləri "Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə nikahın bağlanmasının, doğumun və ölümün qeydiyyatı üzrə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri" sözləri ilə əvəz edilsin.

3. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-c? il 24 fevral tarixli 373 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 90, № 12, maddə 1034; 2007, № 1, maddə 7, № 10, maddə 942; 2008, № 5, maddələr 373, 374, № 8, maddə 727; 2011, № 7, maddə 633, № 12, maddə 1143; 2016, № 9, maddə 1466; 2019, № 7, maddə 1220; 2020, № 12 (I kitab), maddə 1498; 2021, № 8, maddə 918) 2.2-ci bəndində "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Azərbaycan Respublikasının" sözləri "Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin" sözləri ilə, "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 438 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 664, № 12, maddə 1034; 2008, № 10, maddə 895; 2009, № 12, maddə 993; 2014, № 9, maddə 1047) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.5-ci bənddə "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Azərbaycan Respublikasının xaricdəki konsulluq idarələri" sözləri "Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə nikahın bağlanmasının, doğumun və ölümün qeydiyyatı üzrə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri" sözləri ilə əvəz edilsin;

4.2. 3.7-ci bənddə "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, habelə Azərbaycan Respublikasının xaricdəki konsulluq idarələri" sözləri "Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə nikahın bağlanmasının, doğumun və ölümün qeydiyyatı üzrə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 mart tarixli 543 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 222; 2008, № 8, maddələr 720, 722, № 11, maddə 980; 2009, № 1, maddə 11, № 11, maddə 882; 2010, № 10, maddə 858; 2013, № 9, maddə 1043; 2014, № 9, maddə 1030; 2018, № 9, maddə 1840; 2019, № 6, maddə 1029; 2022, № 5, maddə 469) ilə təsdiq edilmiş "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin aparılması qaydası haqqında Əsasnamə"nin 22-ci və 24-cü hissələrindən "rayon (şəhər)" sözləri çıxarılsın.

6. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871) 5.7-ci bəndindən "rayon (şəhər)" sözləri çıxarılsın.

7. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 noyabr tarixli 1887 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 5.1.8-ci yarımbəndə "verilməsi" sözündən əvvəl "və ya arayışların" sözləri əlavə edilsin;

7.2. 5.1.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.1.9. vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik edilməsi, onların bərpası və ləğvi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2023-cü il*

## "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 666-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 22 yanvar tarixli 265 nömrəli, "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 6 mart tarixli 297 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 666-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 315.2-ci və 350.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 315.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricd?ki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 350.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

1.4. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 161.1-ci və 164.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Məcəllənin 161.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 164.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44; 2002, № 8, maddə 478; 2006, № 8, maddə 677, № 12, maddə 1034; 2007, № 3, maddə 226; 2009, № 6, maddə 414; 2011, № 11, maddə 1009; 2016, № 3, maddə 471, № 6, maddə 1045; 2017, № 3, maddə 352, № 4, maddə 551, № 8, maddə 1517, 2018, № 11, maddə 2261; 2019, № 6, maddə 1030, № 12, maddə 1931; 2020, № 11, maddə 1358; 2021, № 7, maddə 737; 2022, № 5, maddə 476) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "150.2-ci" sözlərindən sonra ", 315.2-ci, 350.4-cü" sözləri əlavə edilsin;

2.2. 2.4-cü bənddən ", 315.2-ci" sözləri çıxarılsın və həmin bənddə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi" sözləri "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə nikahın bağlanmasının, doğumun və ölümün qeydiyyatı üzrə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri" sözləri ilə əvəz edilsin;

2.3. 2.6-cı bənddən ", 350.4-cü" sözləri çıxarılsın;

2.4. 2.12-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.13-cü və 2.14-cü bəndlər əlavə edilsin:

"2.13. həmin Məcəllənin 315.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri nəzərdə tutulur;

2.14. həmin Məcəllənin 350.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.".

3. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164; 2002, № 7, maddə 412, № 8, maddə 478, № 12, maddə 716; 2003, № 6, maddə 290; 2004, № 7, maddə 526; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 226, № 11, maddə 1105; 2010, № 5, maddə 393, № 7, maddə 613, № 8, maddə 722; 2019, № 5, maddə 818, № 12, maddə 1930; 2021, № 6 (I kitab), maddə 565; 2022, № 1, maddə 30) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "161.2" rəqəmlərindən əvvəl "161.1," rəqəmləri, "164.3-1," rəqəmlərindən sonra "164.5," rəqəmləri əlavə edilsin;

3.2. 2.3-1-ci bəndə "163.3," rəqəmlərindən sonra "164.5," rəqəmləri əlavə edilsin;

3.3. 2.4-cü bənddən "161.1," və "176.2," rəqəmləri çıxarılsın;

3.4. 2.4-1-ci bənddə "161.2, 163.1, 163.2 və 195.2-ci (ikinci halda) maddələrində" sözləri "195.2-ci (ikinci halda) maddəsində" sözləri ilə əvəz edilsin;

3.5. 2.4-2-ci bəndə "Məcəllənin" sözündən sonra "161.1, 161.2," rəqəmləri əlavə edilsin, "162.2-ci" sözləri "162.2, 163.1, 163.2" rəqəmləri ilə əvəz olunsun və həmin bənddən "rayon (şəhər)" sözləri çıxarılsın;

3.6. 2.7-ci bənddə "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhərdə rayon icra hakimiyyətlərinin nümayəndəlikləri, habelə Azərbaycan Respublikasının xaricdəki konsulluq idarələri öz səlahiyyətləri daxilində" sözləri "Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə nikahın bağlanmasının, doğumun və ölümün qeydiyyatı üzrə rayon, şəhər, şəhərdə rayon icra hakimiyyətlərinin nümayəndəlikləri fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 666-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2023-cü il*

Azərbaycan Respublikası Prezidentinin "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci il 18 may tarixli 1340 nömrəli və "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, habelə onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" 2021-ci il 23 dekabr tarixli 1513 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərsığorta" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 may tarixli 1340 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 447, № 12, maddə 1406; 2022, № 6, maddə 602, № 8, maddə 893) 2.7-ci bəndində "Şirkət" sözü "Azərsığorta" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, habelə onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1513 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1378) 3-cü hissəsində "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin" sözləri "Azərsığorta" Açıq Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2023-cü il*

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədindən buraxılış məntəqələrinin və onlara nəqliyyat giriş yollarının əlaqələndirilmiş inkişafı məqsədilə əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il noyabrın 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədindən buraxılış məntəqələrinin və onlara nəqliyyat giriş yollarının əlaqələndirilmiş inkişafı məqsədilə əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2023-cü il*

# COVID-19-la mübarizədə iştirak edən tibb işçilərinin əməkhaqlarına əlavənin müddəti uzadılıb

Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti uzadılıb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı Qərar imzalayıb. Qərara əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti martın 1-dək uzadılıb.

Qeyd edək ki, əvvəlcə bu müddət yanvarın 1-dək nəzərdə tutulmuşdu.

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında fiziki şəxslər tərəfindən nağd pul vəsaitinin və (və ya) pul alətlərinin transsərhəd hərəkəti zamanı cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində informasiya əməkdaşlığı haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il noyabrın 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında fiziki şəxslər tərəfindən nağd pul vəsaitinin və (və ya) pul alətlərinin transsərhəd hərəkəti zamanı cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində informasiya əməkdaşlığı haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2023-cü il*

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında taunun sərhədyanı təbii ocaqları olan ərazilərdə epidemioloji salamatlığın təmin olunması haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il noyabrın 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında taunun sərhədyanı təbii ocaqları olan ərazilərdə epidemioloji salamatlığın təmin olunması haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2023-cü il*

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında Beynəlxalq tibbi sanitariya qaydalarının (2005-ci il) tətbiqi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il noyabrın 17-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında Beynəlxalq tibbi sanitariya qaydalarının (2005-ci il) tətbiqi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2023-cü il*

# Özbəkistan Prezidenti Azərbaycanın İƏT-ə sədrliyi çərçivəsində planları barədə məlumatlandırılıb



Yanvarın 24-də Özbəkistana işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən qəbul edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı iki ölkə arasında qardaşlıq, dostluq və strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri müzakirə olunub. Ölkələrimiz arasında əməkdaşlıq imkanlarının yüksək potensialı vurğulanıb.

Nazir Ceyhun Bayramov görüş zamanı İqtisadi Əməkdaşlıq Təşkilatında ölkəmizin 2023-cü il sədrliyi çərçivəsində prioritetlər və planlar barədə Prezident Mirziyoyevə məlumat verib, Nazirlər Şurasının iclasının yüksək səviyyədə təşkilinə görə Özbəkistan dövlət başçısına minnətdarlığını bildirib.

Görüş zamanı həmçinin gündəlikdə duran ikitərəfli məsələlər və regional vəziyyət müzakirə edilib. Daha sonra xarici işlər naziri Ceyhun Bayramov Özbəkistan Respublikasının xarici işlər naziri vəzifələrini icra edən Baxtiyor Saidov ilə görüşüb. Tərəflər arasında ikitərəfli əlaqələrin aktual məsələləri müzakirə olunub.

# Böyük Britaniya səfiri ilə gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Ouldun tanışlıq görüşü olub.

Səfiri yeni təyinatı münasibətilə təbrik edən nazir ona fəaliyyətində uğurlar arzulayıb. Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirib.

S.Babayev ölkəmizdə aparılan ardıcıl sosial islahatlar, DOST konsepsiyası, dövlət sosial xidmətlərinin elektronlaşdırılması proqramının nailiyyətləri barədə məlumat verib.

Aparılan sosial islahatların beynəlxalq səviyyədə də yüksək dəyərləndirildiyi, ötən il nazirliyin qurumlarının 13 beynəlxalq mükafatla təltif edildiyi, həmçinin 12 beynəlxalq İSO sertifikatı aldığı qeyd edilib. O cümlədən nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun Böyük Britaniyada keçirilən müsabiqənin "2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" ali mükafatına layiq görüldüyü bildirilib.

Həssas əhali qruplarının, habelə məişət zorakılığından zərər çəkənlərin reabilitasiyayönümlü sosial xidmətlərlə əhatə olunması sahəsində görülən işlər qeyd olunub. Əlilliyi olan şəxslərin məşğulluq imkanlarının artırılması üçün "British Council" ilə birgə layihənin müsbət nəticələri vurğulanıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə bp Eksploreyşn (Kaspian Si) Limited şirkəti arasında 2019-cu ildə imzalanan anlaşma memorandumunun əhali sakinliyinin inkişafı və demoqrafiya sahəsində müfəssəl tədqiqatların aparılmasında önəmi diqqətə çatdırılıb.

Görüşdə iki ölkənin müvafiq qurumları arasında əmək, məşğulluq, sosial müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi üçün də böyük potensialın olduğu vurğulanıb, bu sahədə gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# Azərbaycanın İƏT-ə sədrliyi çərçivəsində prioritetləri





Yanvarın 24-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Özbəkistana işgüzar səfəri çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən 26-cı iclasında iştirak edib.

AZƏRTAC xəbər verir ki, iclas zamanı nazir Ceyhun Bayramov bəyanatla çıxış edərək, Azərbaycanın İƏT-in 2023-cü il üzrə sədrliyi çərçivəsində prioritet və planlarını açıqlayıb.

Çıxış zamanı "Yaşıl keçid və qarşılıqlı bağlantılar" mövzusuna həsr olunan Azərbaycan sədrliyinin təşkilatın strategiya və proqramlarının, habelə "İƏT-2025" baxışlarının irəlilədilməsi üçün əhəmiyyət daşıyacağı vurğulanıb.

Ölkəmizin 2023-cü ildə sədrliyi dövründə iqtisadiyyat, enerji, nəqliyyat, gömrük, sərhəd-keçid məntəqələri, ədliyyə, turizm və səhiyyə sahələrində bir sıra yüksəksəviyyəli görüşlərin keçiriləcəyi diqqətə çatdırılıb.

Mərkəzi Asiya və Cənubi Qafqazdan keçməklə nəqliyyat marşrutlarının əhəmiyyət daşıdığı, bu xüsusda Azərbaycanın regional nəqliyyat və tranzit dəhlizlərinin inkişaf etdirilməsi üçün görülən




əhəmiyyətli işlər barədə tədbir iştirakçıları məlumatlandırılıb. Bununla yanaşı, sözügedən istiqamətlərdə əməkdaşlığın irəlilədilməsi məqsədilə Türkiyə, Qazaxıstan və Özbəkistan ilə birgə üçtərəfli platformaların təsis edildiyi bildirilib. Azərbaycan, Türkiyə və Qazaxıstan arasında ötən ilin iyun ayında Bakıda keçirilmiş görüş zamanı qəbul olunmuş Bakı Bəyannaməsi və bununla əlaqədar Trans-Xəzər Şərq-Qərb Orta Dəhlizin inkişafı üzrə qərarlar qeyd edilib.

Nazir çıxışı zamanı Azərbaycanın Şərqi Zəngəzur İqtisadi Rayonundan Naxçıvan Muxtar Respublikasına nəqliyyat dəhlizinin yaradılması istiqamətində görülən tədbirlərin vacibliyini vurğulayıb. Zəngəzur dəhlizinin bütün bölgə ölkələri arasında əməkdaşlığın inkişafı üçün xüsusi əhəmiyyət daşıyacağını diqqətə çatdırıb.

Qeyd edilənlərlə yanaşı, ölkəmizin enerji təhlükəsizliyin təmin edilməsi sahəsində apardığı işlər barədə ətraflı məlumat verilib, ötən ilin iyul ayında ölkəmizlə Avropa İttifaqı arasında imzalanmış Anlaşma Memorandumunun "yaşıl" enerji resurslarının inkişafı, eləcə də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dənizin altından keçməklə elektrik enerjisi kabelinin çəkilməsi layihəsinin bölgədə əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyi bildirilib.

Sədrlik çərçivəsində Bakıda yaradılması nəzərdə tutulan İƏT-BMT Sənaye İnkişafı Təşkilatı (UNIDO) Təmiz Enerji Mərkəzinin, İƏT İqtisadi Tədqiqatlar Mərkəzinin fəaliyyətə başlaması istiqamətində tədbirlər görüləcəyi, Şuşanın 2026-cı ildə İƏT turizm paytaxtına namizədliyinin irəli sürüləcəyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov çıxışı zamanı postmünaqişə dövründə Azərbaycan tərəfindən işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərindən bəhs edib, sözügedən ərazilərdə "Yaşıl Enerji" zonası, Azad İqtisadi Zonalar yaradılması istiqamətində görülən tədbirlər barədə ətraflı məlumat verib.

Daha sonra təşkilatın Baş katibi və digər üzv dövlətlərin xarici işlər nazirləri bəyanatlarla çıxış ediblər.

Nazirlər Şurasının iclası zamanı təşkilatın fəaliyyətinə dair bir sıra sənədlər qəbul edilib. Nazirlər Şurasının iclasının yekun sənədi kimi qəbul edilmiş Daşkənd Kommünikesində Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatlara uyğun olaraq Azərbaycanın Şərqi Zəngəzur İqtisadi Rayonundan Naxçıvan Muxtar Respublikasına nəqliyyat və kommunikasiya əlaqəsinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər, habelə ölkəmizin Türkiyə, Özbəkistan və Qazaxıstan ilə birgə həyata keçirdiyi üçtərəfli platformalar üzrə görülən işlər alqışlanıb.

Kommünike çərçivəsində həmçinin Azərbaycanla Ermənistan arasında dövlətlərarası münasibətlərin ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması və hörmət əsasında tənzimlənməsinə dəstək ifadə olunub. Bunun bölgədə mehriban qonşuluq əlaqələri yaradılmasına, davamlı sülh və iqtisadi tərəqqiyə töhfə verəcəyinə inam ifadə olunub.

Nazir Ceyhun Bayramovun səfər çərçivəsində bir sıra ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

# AVROPA PULRAMENTİ

## Mayası rüşvətlə yoğrulan Avropa Parlamentinin erməni sevgisi

Allah Üzeyir bəyə rəhmət eləsin!

Məşədi İbad adlı ("O olmasın, bu olsun") elə bir komediya yazıb ki, bütün dövrlər üçün aktualdır.

Əsərdə bəyin üzəçıxma mərasimindəki yeyib-içmək məclisinin isə tayı-bərabəri yoxdur!

Hərə özü bildiyi kimi Məşədi İbadı tərifləyir, vəsf edir, sağlığına badə qaldırır.

Tostların birində Rüstəm bəyin gözünün ağı-qarası bircə qızının Məşədi İbad kimi qoca baqqala niyə ərə verməsinin "səbəbi" də açıqlanır!

Sən demə, Rüstəm bəy Məşədi ilə onun puluna, malına, dövlətinə görə yox, "həqiqi müsəlman"lığına görə qohum olmaq istəyir.

Çünki Məşədi İbad məclisdəkilər kimi araq yox, çay içir.

❖ ❖ ❖

İndi gəlirik Avropa Parlamentinin erməni sevgisinə.

Onun erməni aşiqliyi nədən qaynaqlanır və niyə cidd-cəhdlə Ermənistanı dayanmadan müdafiə edir!

*Bəlkə* Ermənistan həqiqəti söyləyən dövlətdir?

*Amma* erməni yalanı bütün dünyada məşhurdur, bu millət tarixindən tutmuş mədəniyyətinə, dininə-kilsəsinə, çarlığına, "böyük Ermənistan" mifinə qədər hər şeyini uydurub, saxtalaşdırıb!

*Bəlkə* Ermənistanın ərazisi işğala məruz qalmışdı?

*Amma* 30 il ərzində Ermənistanın Azərbaycan ərazilərini vəhşicəsinə dağıtdığını, tarixi və dini abidələrimizi yerlə bir etdiyini, hətta qəbiristanlıqlarda törətdiyi vandallıqları bütün dünya gördü və bildi!

*Bəlkə* erməni fağır, məzlum, yazıq millət olduğundan ona canları yanır?

*Amma* fağır, məzlum, yazıq millət Xocalıdakı soyqırımı törətməzdi, uşaqları, qocaları, qadınları öldürməzdi, girov götürərək başlarına olmazın müsibətləri açmazdı, Qarabağ ərazisində milyonlarla ölüm tələsi olan mina "əkməzdi".

*Bəlkə* Ermənistanın mövqeyi və əməlləri beynəlxalq hüquqa, konvensiyalara uyğundur?

*Amma* Azərbaycan ərazilərinin işğalından dərhal sonra BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi (və yerinə yetirmədiyi) 4 məlum qətnamə (Ermənistan qoşunlarının qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxması barədə) həqiqətin və beynəlxalq hüququn Azərbaycan tərəfində olduğunu sübuta yetirir!




*Bəlkə* Ermənistan Laçın yolundan yalnız humanitar məqsədlərlə istifadə edir?

*Amma* aşkara çıxarılan və sübuta yetirilən faktlar göstərir ki, 44 günlük müharibə qurtararaq üçtərəfli Bəyanat imzalandıqdan sonra Ermənistan Laçın yolu ilə 2021-ci il istehsalı olan minalar gətirərək Azərbaycan ərazilərində basdırıb, Qarabağa ağır texnika, silah-sursat, terrorçu daşıyıb, Azərbaycanın təbii sərvətlərinin talanını davam etdirərək bu yolla aparıb.

*Bəlkə* həqiqətən Azərbaycan Xankəndi-Laçın yolunu bağlayıb?

*Amma* hər gün Xankəndi-Laçın yolundan çəkilərək Azərbaycanın və dünyanın bir çox ölkəsindəki televiziya kanallarında nümayiş etdirilən süjetlərdən açıq-aydın görünür ki, Xankəndi-Laçın yolu humanitar yüklər, mülki vətəndaşlar, sülhməramlı qüvvələrin və Qızıl Xaç Cəmiyyətinin maşınları üçün daim açıqdır və qeyri-hərbi yüklər daim sərbəst şəkildə keçib gedir!

Bəs onda əsl səbəb nədir?

❖ ❖ ❖

Avropa Parlamentində rüşvətlə iş görməyə vərdiş etmiş o qədər deputat var ki, qurumun başı bu tipli qalmaqallardan ayılmır ki, həqiqəti görə və qiymətləndirə bilsin!

Hətta son illərdə baş verən qalmaqallı faktları yan-yana düzəndə əmin olursan ki, burada pulsuz iş keçmir!

Məsələ çox sadədir: pul erməni diasporunda, rüşvətxor deputat isə Avropa Parlamentində!

Vəssalam-şüttəmam!

Nəticədə 18 yanvar tipli qətnamələr meydana çıxır…

Rüşvətlə çıxarılan qətnamələrin isə heç bir gücü və dəyəri olmaz!

Həm də Azərbaycan çoxdan Avropa Parlamentinin qərəzli və qeyri-obyektiv, saxta qətnamələrini boş kağız hesab edir.

❖ ❖ ❖

Avropa Parlamentinin erməni məhəbbəti təkcə onun korrupsiya yuvasına çevrilməsindən, ötən ay Yunanıstandan olan vitse-prezidenti Eva Kailinin simasında adının milyonlarla dollarlıq rüşvət qalmaqalında hallanmasından qaynaqlanmır, üstəlik, irqçi, islamafob, Azərbaycanafob, türkofob mahiyyətindən, fəaliyyətinin əsasında ikili standartların dayanmasından irəli gəlir.

"Konyak diplomatiyası"ndan yetərincə bəhrələnən bu qurum cari ilin 18 yanvarında qəbul etdiyi reallıqdan tam uzaq, böhtan və yalan informasiyaya söykənən qətnaməsində hətta Azərbaycanın guya Ermənistana "hərbi təcavüz etdiyini" belə utanmadan söyləyir.

Çoxdan tarixin zibilliyinə atılmış "Madrid prinsipləri"nə istinadlar edir.

Avropa Parlamenti reallıq və obyektivlik hissini itirdiyindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın bəndlərinin yerinə yetirilmədiyini, Ermənistanın sülh müqaviləsini imzalamaqdan boyun qaçırdığını, Azərbaycan ərazilərindən Ermənistan qoşunlarının tam çıxarılmadığını, Azərbaycanın qərb rayonları ilə Naxçıvanı birləşdirəcək yolun hələ də açılmadığını, hələ də işğal altında qalan 8 Azərbaycan kəndinin qaytarılmadığını, Vətən müharibəsindən sonra mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşının öldüyünü və ya ömürlük əlilə çevrildiyini qəsdən unudaraq əməldə erməni dəyirmanına su tökür.

❖ ❖ ❖

Ermənistanın özünün belə unutduğu "Madrid prinsipləri"ni Avropa Parlamentinin xortlatmaq istəyinin mənası nədir?

Otuz illik işğal dövründə yüz minlərlə azərbaycanlının etnik təmizləməyə məruz qaldığı, yaşayış məntəqələrinin yerləyeksan edildiyi, təbii sərvətlərin talan edildiyi dövrdə susan, yalnız "növbətçi ifadələr" işlədilən bir neçə qətnamə qəbulu ilə kifayətlənən Avropa Parlamenti bu gün tərəflər arasında sülhə deyil, erməni revanşizminin çiçəkləndirilməsinə xidmət edən təhrikçi qətnamələr "istehsalı" ilə məşğuldur!

Erməni məhəbbəti Avropa parlamentarilərinin gözlərini o qədər tutub ki, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan əməkdaşlıq müqavilələrini, Azərbaycanın Avropanın təbii qazla təchizatındakı səmərəli, daha doğrusu, xilaskar fəaliyyətini belə görmür, yaxud görmək istəmir!

Yel qayadan nə aparar?

Belə qətnamələrin mənasızlığını və əhəmiyyətsizliyini qüdrətli Azərbaycan və onun möhtəşəm ordusu dəfələrlə sübut edib!

Bu da olsun növbəti yalan, qərəzli, gerçəyə əsaslanmayan adi kağızlardan biri!

Azərbaycan onsuz da öz istəyinə nail olacaq, öz ərazisində yurisdiksiyasını bərpa edəcək, vətəndaşlarının Qarabağ və Şərqi Zəngəzurda, hətta Qərbi Azərbaycanda belə xoşbəxt yaşayışına nail olacaqdır!

**Bəxtiyar SADIQOV**

# Azərbaycan hökuməti əsas iddia sənədini Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edib

Yanvarın 23-də Azərbaycan hökuməti əsas iddia sənədini Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, bu, İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiyaya uyğun olaraq ölkəmizin Ermənistana qarşı qaldırdığı beynəlxalq məhkəmə proseslərində mühüm inkişafdır. Məhkəməyə təqdim edilmiş əsas iddia sənədi otuzillik ədalətsizliyi qeydə alan minlərlə səhifəlik dəlillərə əsaslanır. Sənəd Ermənistan tərəfindən ən dəhşətli aktlardan biri olan etnik və milli mənsubiyyətə görə təmizləmə nəticəsində qətlə yetirilmiş, didərgin salınmış və zərər çəkmiş azərbaycanlılar haqqında ətraflı məlumatları ehtiva edir.

Ermənistanın qəsbkarlığı və Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin qeyri-qanuni işğalı düşünülmüş və məqsədyönlü etnik təmizləmə siyasəti ilə müşayiət olunub. 2020-ci ilə qədər davam edən bu fəaliyyətin məqsədi Azərbaycan rayonlarının dağıdılması, talan edilməsi və istismarı yolu ilə ölkəmizin ərazisində erməni yaşayış məskəni yaratmaq məqsədi daşıyıb.

Azərbaycan 2020-ci ildə torpaqlarını azad etdikdən sonra sözügedən ərazilərdə dəlillərin genişmiqyaslı toplanması işini həyata keçirib. Ermənistanın yüz minlərlə insanın həyatını, saysız-hesabsız ailələri və icmaları, əvəzolunmaz mədəni irsi və ətraf mühiti məhv etməsinin miqyası həqiqətən də dəhşətlidir.

Ermənistanın etnik ayrı-seçkilik siyasəti və əməlləri, o cümlədən otuz ilə yaxın müddətdə ərazilərimizin qeyri-qanuni işğalı həmvətənlərimizin Azərbaycanın Qarabağ bölgəsindəki evlərinə qayıtmasına mane olub. Bu günədək yüz minlərlə azərbaycanlı məcburi köçkün hələ də öz keçmiş evlərinə qayıda bilmir. İşğal dövründə və 2020-ci ildə müharibədən sonra ərazilərdən geri çəkilərkən "yandırılmış torpaq" siyasətinin tərkib hissəsi kimi Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı, Zəngilan və Kəlbəcər kimi şəhərlər Ermənistan tərəfindən tamamilə dağıdılıb. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 1991-ci ildə işğalından sonra Azərbaycanın Qarabağ bölgəsində yerləşən tikililərin 95 faizi yerləyeksan edilib.

Bu ayrı-seçkilik siyasətinə Ermənistanın mülki evləri və yaşayış məntəqələrini partlayıcı vasitələr və minalarla hədəfə alması da daxildir. 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra mina partlayışlarında 282 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. Minalar Ermənistanın azərbaycanlı məcburi köçkünlərin geri qayıtmasına mane olmaq kampaniyasının mühüm elementi və ağır mirasıdır.

Azərbaycan tərəfi təqdim edilmiş müfəssəl sübutlar əsasında azərbaycanlıların hüquqlarının geniş şəkildə pozulmasına görə Ermənistanın məsuliyyət daşıdığına dair vəsatətin təmin olunmasını məhkəmədən tələb edib. Xüsusilə etnik təmizləmə, o cümlədən qəsdən həyatdan və mülkiyyət hüququndan məhrumetmə, işgəncə, mədəni irsin məhvi, erməni əhalisi arasında azərbaycanlılara qarşı nifrətin təbliği və Ermənistanda nifrət zəminində yaradılmış silahlı qruplara dövlət yardımı ilə bağlı Ermənistan hökumətinin məsuliyyət daşıdığının bəyan edilməsi üçün müraciət ünvanlanıb.

Azərbaycan tərəfinin müraciətində həmçinin Ermənistanın itkin düşmüş azərbaycanlılara dair bütün məlumatları açıqlamaqla bağlı öhdəliklərini yerinə yetirməsinin, qanunsuz ələ keçirilmiş bütün əmlak və torpaqları azərbaycanlılara geri qaytarmasının, nifrət zəminində təbliğatı dayandırmasının və insan hüquqlarının otuz il ərzində pozulmasına görə məsuliyyətə cəlb olunmasının vacib olduğu vurğulanıb.

Azərbaycan tərəfi sözügedən cinayətləri törədənlərin beynəlxalq hüquqi məsuliyyətə cəlb olunması istiqamətində bütün zəruri tədbirləri davam etdirəcək.

# XİN: "Aİ missiyasının fəaliyyəti qarşılıqlı inam və etimadı sarsıtmamalıdır"

"Azərbaycan Avropa İttifaqı (Aİ) Şurasının Ermənistanda Avropa İttifaqının mülki missiyasının yaradılması ilə bağlı qəbul etdiyi qərarı qeydə alır. Belə bir fəaliyyətin, sırf ikitərəfli əsasda həyata keçirilməli olan sərhədlərin delimitasiyası prosesi də daxil olmaqla Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinə xələl gətirmək məqsədilə sui-istifadə edilməməli olduğuna dair öz qəti mövqeyimizdə qalırıq".

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Avropa İttifaqı Şurasının Ermənistanda monitorinq missiyasının yaradılması ilə bağlı qərarına dair şərhində qeyd olunub.

Bildirilib ki, Avropa İttifaqı missiyasının Ermənistanda yerləşməsinin müvafiq qaydada Azərbaycanın legitim maraqlarını nəzərə alması, habelə Aİ tərəfindən bu missiyanın fəaliyyətinin qarşılıqlı inam və etimadı sarsıtmayacaq şəkildə həyata keçirilməsi təmin edilməlidir.

Azərbaycan tərəfi Aİ missiyasının fəaliyyətə başlaması ilə bağlı müzakirələr prosesində keçmiş təcrübədən irəli gələn lazımi dərslərin çıxarılmasına maksimum diqqət yetiriləcəyini gözləyir.

Aİ-nin Ermənistan ərazisində monitorinq fəaliyyəti 2022-ci il oktyabrın 6-da Azərbaycan, Ermənistan, Fransa liderləri və Aİ Şurasının sədri arasında keçirilmiş Praqa görüşündə əldə olunmuş razılaşmadan irəli gələrək mülki monitorinq missiyasının yerləşməsi ilə başlayıb. Azərbaycan normallaşma prosesinə kömək göstərəcəyinə inanaraq, bu fəaliyyətin həyata keçirilməsinə razılıq verib.

İki aylıq missiyanın dəqiq müəyyən edilmiş parametrlərinin və məqsədlərinin yüksək səviyyədə razılaşdırılmasına baxmayaraq, bəzi Aİ üzv dövlətlərinin qərəzli yanaşma sərgiləməsindən sonra monitorinq missiyasının fəaliyyəti Praqada əldə edilmiş razılaşmalarla ciddi ziddiyyət təşkil etdiyi müşayiət olunub. Bu da öz növbəsində, Aİ çərçivəsində qərar qəbuletmə prosesinin etibarlılığı və şəffaflığı ilə bağlı ümumi etimada təsir etdi.

Əslində isə, Aİ-nin Ermənistanda monitorinq missiyasının mövcudluğu Ermənistan tərəfindən hər üç istiqamətdə normallaşma prosesini pozmaq cəhdlərinin artması, o cümlədən Azərbaycan, Ermənistan və Aİ Şurası liderlərinin üçtərəfli görüşünə əsassız ittihamlarla zərbə vurulması ilə üst-üstə düşdü. Beləliklə, Aİ missiyasının normallaşma gündəliyinin irəli aparılmasına töhfə verəcəyi ilə bağlı ilkin gözləntilər sarsıldı.

Azərbaycan Aİ-nin Ermənistanda iki aylıq mülki missiyasının başa çatmasından sonra burada fəaliyyətini davam etdirmək marağında olmasını nəzərə alaraq, Aİ ilə məsləhətləşmələr zamanı xoş niyyətlə çıxış edib, habelə öz mövqeyini, gözləntilərini, narahatlıqlarını aydın və şəffaf şəkildə qarşı tərəfə çatdırıb.

Azərbaycan tərəfindən Aİ nümayəndələri ilə müxtəlif səviyyələrdə keçirilmiş bir sıra məsləhətləşmələrdə Aİ-nin Ermənistanda missiyasının mövcudluğunun Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırması üçün bəhanəyə çevrilməməsinin zəruriliyi bildirilib.

Aİ missiyasının mövcudluğunun hazırkı dialoq mexanizmlərinə qarşı sui-istifadəsi təhlükəlidir və bundan çəkinilməlidir.

## Heydər Əliyev mənim həyatımda

# 1936-cı ildə Əliyevlər ailəsinə pənah gətirdim

### Heydər Əliyevin yeniyetməlik, gənclik illərini onun uşaqlıq dostu - ikiqat tələbə yoldaşı xatırlayır

*"... Culfanın Saltaq kəndindəki orta məktəbi bitirdikdən sonra təhsilimi Naxçıvan Pedaqoji Texnikumunda davam etdirmək niyyətindəydim. Ancaq sözün düzü, nə yol göstərənim, nə də o məktəbə sənəd vermək üçün məsləhət verənim vardı. Bir sözlə, tamam köməksiz qalmışdım.*

*Bir gün atamın Göydərə kəndində yaşayan dostu Zeynalabdin əmi bizə gəlmişdi. Atam ona mənim narahatlığımdan danışdı. Zeynalabdin əmi başıma sığal çəkərək "Dövlət, narahat olma, mənim şəhərdə qardaşım yaşayır, Əlirzanı deyirəm, onun ortancıl oğlu da bu il həmin məktəbə hazırlaşır, səni onlara özüm apararam, bir yerdə sənəd və imtahan verərsiniz, hər şey yaxşı olacaq" dedi. Sevincimdən uçmağa qanadım yox idi.*

*1936-cı ilin avqust ayının ortalarında mən, atam və Zeynalabdin əmi Naxçıvan şəhərinə yola düşdük. Əlirza əminin evində bizi böyük mehribanlıqla qarşıladılar. Çay-çörəkdən sonra Zeynalabdin əmi mətləb üstünə gəldi. Sonra atam danışdı.*

*Onları diqqətlə dinləyən Əlirza əmi mənə nəzər salıb "Ay bala, heç narahat olma, bizim uşaqla birlikdə sənəd verərsən, sonra da imtahana gedərsən, görürəm, hər ikiniz də fərasətlisiniz, imtahan çətin olmaz, elə texnikumda da iki qardaş bir-birinizə kömək olarsınız" dedi.*

*Bu vaxt içəri bir yeniyetmə daxil olaraq, bizə xoşgəldin etdi. Əlirza əmi oğluna xitabən "Tanış ol, bir yerdə imtahan verəcəksiniz" söylədi. Əlimi irəli uzadıb "Salam, mənim adım Dövlətdir" dedim.*

*Qarşımdakı yeniyetmə isə üzümə gülümsəyərək sanki sınayıcı tərzdə gücümü yoxlamaq məqsədilə əlimi çox möhkəm sıxdı və özünü təqdim etdi:*

*"Heydər"...*

❖ ❖ ❖

Xoşbəxtliyin, yəqin, elə dünyada mövcud olan insanların sayı qədər də meyarı var. Hər kəs bir uğurunda, tale qismətində görür xoşbəxtliyini. Bugünkü həmsöhbətimiz Dövlət Məmmədov da özünü xoşbəxt insanlardan sayır.

Həyatını mənalı, maraqlı, zəhmətlə keçirib, əməyi ilə ucalıb, yaxşı ailə başçısı olub, övladları, nəvələri üzünü ağ edib, ömrünün kamillik çağını isə respublikanın Əməkdar müəllimi və Prezidentin fərdi təqaüdçüsü fəxri statusu ilə yaşayır. Bütün bunları xoşbəxtliyinin əsas amili sayır, ancaq sıralamada ən mühüm meyar kimi 1936-cı ildə tanış olduğu insanla olan mehriban münasibətini göstərir.

Deyir ki, hər kəsə mənim xoşbəxtliyim qismət olmur: "Çünki biz o insanla yalnız adi tələbə dostu olmamışıq, ürək dostu olmuşuq, eyni zamanda yeganə adamam ki, onunla iki dəfə tələbəlik dostluğu etmişəm, həm 1936-1939, həm də 1951-1957-cı illərdə. Bu, xoşbəxtlik deyil, bəs nədir?"

Dövlət müəllim, həqiqətən də, haqlıdır, taleyin ona nəsib etdiyi bu qismət, doğrudan da, xoşbəxtlik sayılmalıdır. Çünki bu münasibətlər heç də adi adamla deyil, "azərbaycanlı" adını bütün dünyada ucaldan, millətinə, dövlətinə şərəf gətirən bir şəxsiyyətlə - Heydər Əliyevlə bağlıdır...

❖ ❖ ❖

"... Heydər kənddən gətirdiyim sənədlərə baxdıqdan sonra dedi ki, hər şey düzdür, onları texnikumun qəbul şöbəsinə təqdim etmək olar. Qeyd edim ki, o vaxt Heydərin 13, mənim isə 17 yaşım var idi. Yaş fərqimizin səbəbi o idi ki, mən ibtidai məktəbə gec getmişdim. Texnikumun girəcəyində Lətif Hüseynzadə ilə görüşdük.

Lətif müəllim sənədlərimə baxıb Heydərlə məni texnikumun dərs hissə müdiri Murad Tutayukun yanına apardı. Sənədlərimi qəbul etdilər. O vaxt imtahanlar indiki kimi nə test, nə də bilet çəkməklə idi. Müəllimlər keçilmiş proqram dairəsində suallar verməklə imtahan götürürdülər. İmtahan verib beş aldım, gəldik onlara. Heydərin anası İzzət ana məni təbrik etdi. Onu deyim ki, mən anamı kiçik yaşlarımda itirmişəm. Ana qayğısını elə o vaxtdan İzzət anadan görmüşəm. Qayğı və nəvazişini İzzət ana məndən 4 il əsirgəmədi.

Tələbəlik dövründə günümüz demək olar ki, bir yerdə keçirdi. Bizi birləşdirən cəhətlərdən biri də rəssamlığa olan bağlılığımız idi. Tez-tez Möminə Xatun türbəsinin yanına gedib oradan dəmiryol vağzalı istiqamətində olan mənzərələri çəkirdik. 1937-ci ildə rus şairi



A.S.Puşkinin 100 illiyi keçirilirdi. Biz də onun əsərlərinə illüstrasiyalar çəkmişdik. O vaxt təşkil olunmuş sərgidə Heydər birinci yeri, qardaşı Hüseyn Əliyevlə mən isə ikinci və üçüncü yerləri tutduq. Onu da deyim ki, o zaman Bakıdakı rəssamlıq texnikumunda oxuyan Hüseyn Əliyev bizə daim qayğı göstərirdi.

Texnikumda bizə çox savadlı müəllimlər dərs deyirdilər. Hərbi rəhbərimiz Akim Abbasov idi. Lətif Hüseynzadə, Cəlil İsgəndərli ədəbiyyat, Tofiq Bəktaşi riyaziyyat, Həsənbəy Qazıyev rus dili, Əsəd Cəfərli anatomiya, Əsgər Əhmədov isə kimyanı tədris edirdi. Bütün müəllimlərimiz Heydərin xətrini çox istəyir və onu daim bizə nümunə göstərirdilər.

Bəzən məndən soruşurlar ki, Heydər Əliyev hansı fənləri daha yaxşı oxuyurdu? Mən də deyirəm: bütün fənləri. Elə bir dərs yox idi ki, Heydər onu yaxşı bilməsin. O, istisnasız olaraq bütün fənləri əla oxuyurdu. Hərbçilik qabiliyyətinə isə söz ola bilməzdi. Bir də onu deyim ki, rus dilini gözəl bilirdi. Yadımdadır ki, Lev Tolstoyun "Hərb və sülh" romanını o vaxt rus dilində oxuyur, məzmununu bizə danışırdı. İctimai işlərdə də birinci idi. Bundan əlavə, həvəskar teatrda da çalışırdı, tamaşalarda adətən baş rolları oynayır, özü də şah, hökmdar, xalq qəhrəmanı obrazlarını canlandırırdı. İdmanla xüsusi məşğul olurdu.

Hər həftənin sonu mən kəndimizə gedirdim. Çox vaxt Göydərə kəndindəki əmisigilə gedən Heydər də mənə yol yoldaşı olurdu. Deyirlər ki, qardaşın necə adamdır, cavab o olur ki, bilmirəm, yol yoldaşı olmamışam. Bu baxımdan mən Heydərin yol yoldaşlığını xüsusi qeyd etmək istərdim. Uzun yolda, bəzən susuz, bəzən ac olduğumuz vədələrdə Heydər çox təmkinli və diqqətli olurdu. Yolumuz "Əshabi-Kəhf"in qarşısından keçirdi. Bu müqəddəs ocağa Heydər çox inanırdı. Buradakı sudan içməmiş getməzdi.

Qrupda şəriksiz lider idi Heydər. Onu hamımız, hətta yaşca ondan böyüklər də sayırdı, hörmət edirdi. Bu hörməti Heydər özü qazanmışdı, səmimiyyəti, böyüklüyü, yaşına bəlkə də yaraşmayan müdrikliyi ilə. Sizi inandırım ki, qrupdakı bütün oğlanlar, içi mən qarışıq, həmişə Heydəri təqlid etməyə çalışırdıq. Onun kimi yeriməyə, davranmağa, danışmağa, hətta gülməyə də cəhd edirdik.

Texnikumda nə mübahisə olsaydı, ədalətli həlli yalnız Heydərdən gəlirdi. Bəli, o, obyektiv hakim idi. Məntiqi çox güclü idi, hamını özünə, sözünə inandırmağı bacarırdı, onun fikirlərinə biz heç vaxt şübhə etməmişdik. Heydər qrupdakı qızların da hamisi idi. Onlara başqa qrupdan kimsə söz atsaydı, həmin şəxs elə həmin dəqiqə Heydərdən cəza alacaqdı. Onu da deyim ki, Heydər nə qədər təmkinli, sülhsevər olsa da, yeri gələndə çox qətiyyətli və döyüşkən olurdu.

Mehriban, səmimi ailəsi vardı. Çox vaxt onlarda gecələyirdim. Xudmani həyətləri, iki otaqdan ibarət evləri vardı. Həyətdə daim xırda da olsa, təsərrüfatları olurdu. Əlirza əmi zəhmətkeş kişi idi, elə övladlarını da bu ruhda, sadə insanlar kimi böyüdürdü.

İzzət anadan isə danışmaqla qurtarmaz. O qədər qayğıkeş insan idi ki... Bütün övladlarını çox istəyirdi, ancaq Heydərə xüsusi yanaşırdı, əslində, ailənin bütün üzvləri Heydəri yaşından böyük adam kimi qəbul edirdilər. İzzət ana Heydərin geyiminə, səliqəsinə həmişə fikir verirdi.

Həsənlə Hüseyn artıq Bakıda olduqlarından Heydər də demək olar ki, evdə böyük oğul kimi qalmışdı. Suğra ilə birlikdə, kiçik bacı və qardaşlarına - Cəlala, Aqilə, Rəfiqəyə, Şəfiqəyə arxa-dayaq idi, onların təhsili, tərbiyəsi ilə məşğul olurdu.

Belə gözəl ailənin belə layiqli oğlu idi Heydər..."

***Ardı 5-ci səh.***



# Heydər Əliyev İli 2023

# 1936-cı ildə Əliyevlər ailəsinə pənah gətirdim

## Heydər Əliyevin yeniyetməlik, gənclik illərini onun uşaqlıq dostu - ikiqat tələbə yoldaşı xatırlayır




"Azərbaycan" qəzetinin 2013-cü ildə nəşr etdiyi "HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA" ikicildlik kitabından səhifələr



Əvvəli 4-cü səh.

❖ ❖ ❖

1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirən Heydər Əliyev Şahbuz rayonuna, Dövlət Məmmədov isə öz doğma elinə - Culfanın Saltaq kəndinə təyinat alır. Lakin onların yolları ayrılmır. Dövlət müəllim deyir ki, tez-tez görüşərmişlər. Bir gün o, İzzət ananı ziyarət etmək üçün Naxçıvan şəhərinə gələndə Heydər Əliyevi də evdə görür.

Heydər Əliyev deyir ki, o, artıq Azərbaycan Sənaye İnstitutunun Memarlıq fakültəsinin tələbəsidir. 1941-ci ildə Dövlət Məmədov cəbhəyə gedir, təhsilini yarımçıq qoymağa məcbur olan Heydər Əliyevin isə fitri istedadı və bacarığı, həmçinin xüsusi qabiliyyəti, rus dilini yaxşı bilməsi kimi keyfiyyətləri nəzərə alınaraq, Nazirlər Sovetinə işə dəvət edilir.

Beləliklə, Heydər Əliyevin həyatında, demək həm də Azərbaycanın taleyində yeni mərhələ başlayırdı…

❖ ❖ ❖

"…1943-cü ildə cəbhədən qayıtdım. Heydərlə tez-tez görüşürdük, 20 yaşı olmasına baxmayaraq, artıq Naxçıvanda nüfuz sahibi idi. Elə həmin vaxt Əlirza əmi rəhmətə getdi. Ailənin bütün çətinlikləri, qayğıları tam olaraq Heydərin çiyinlərində idi.

1944-cü ildə Bənənyar kəndində müəllim kimi fəaliyyətimi davam etdirdim. İşə təzə başlayanda Heydər məni təbrik etməyə gəldi. Ailəsindən danışdı, dedi ki, kiçik qardaşı Cəlal artıq ikiillik Naxçıvan Pedaqoji İnstitutunu bitirib və elə bu məktəbdə işləmək niyyətindədir. Çox sevindim, çünki Cəlal məndən 9 yaş kiçik olsa da, yaxın dost idik və bilirdim ki, bu gənc böyük qardaşı Heydər kimi cəsarətli və çox savadlıdır.

Beləliklə, 16 yaşlı Cəlalla Bənənyar kəndində müəllimliyə başladıq. Bir evdə qalırdıq. Müharibənin amansızlığı güzəranımıza təsir edirdi. Çox vaxt ac qalırdıq, adi otlardan çay dəmləyirdik, ancaq 16 yaşlı Cəlal bir dəfə də olsun şikayətlənmir, atasına, qardaşına layiq əsl kişi kimi dəyanət göstərirdi. Arada Heydər bizi yoluxmağa gəlirdi. Cəlaldan "qardaş, nə çətinliyin var" - deyə soruşsa da, o, həmişə "Heydər, narahat olma, birtəhər dolanırıq" - söyləyirdi. Ancaq Heydər vəziyyətin heç də yaxşı olmadığını bilirdi, neyləməli, bütün ittifaqda, Azərbaycanda, Naxçıvanda vəziyyət ağır idi, aclıq baş alıb gedirdi.

Mən Əliyevlər ailəsinin mətinliyini, dəyanətini, qorxmazlığını ilk dəfə həmin günlərdə gördüm. 40-cı illərin problemləri qarşısında əyilməyən, yüksələn bu ailə 50 il sonra da onlara yaradılan maneələrə, repressiyalara boyun əyməyərək, əsl kişi kimi mübarizə apardılar, nəticədə özlərini və Azərbaycanı yenə də yüksəltdilər.

1945-ci ildə Cəlal Azərbaycan Dövlət Universitetinə qəbul olundu. Lakin mənim Əliyevlər ailəsi ilə münasibətlərim kəsilmədi. Heydərlə mütəmadi görüşürdük. 1947-ci ildə məni evlərinə dəvət etdilər. Məlum oldu ki, Heydər ailəsi ilə birlikdə Bakıya köçür. "Məni işdən göndərirlər, belə lazımdır, bizim dostluğumuz isə bitməyəcək, mən səninlə vəzifə dostu deyiləm axı, biz uşaqlıq dostuyuq" - dedi Heydər…

Bakıya köçsə də, Heydər işi ilə bağlı tez-tez Naxçıvana gəlirdi. Hər gəlişində də məni və digər dostlarını, qrup yoldaşlarını yada salır, yoluxurdu. Çox etibarlı dost idi Heydər…

Ancaq Heydər Əliyevlə yenə də birlikdə olmaq tale qismətim imiş. Belə ki, 1951-ci ildə Allah-təala bizim yollarımızı yenə də birləşdirdi, hər ikimiz Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olunduq. Qəbul imtahanında maraqlı bir əhvalat baş verdi. Rus dilindən şifahi imtahan götürülürdü. Heydər çox sərrast və əhatəli cavab verdi. Müəllim isə nədənsə ona "dörd" yazdı.

Heydər Əliyev də Heydər Əliyevdir də… O, etirazını bildirdikdə, müəllimə "get kimə istəyirsən şikayət et, mən sənə "beş" yazmayacağam" - dedi. Heydər birbaşa universitetin rektorunun qəbuluna getdi. Sağ olsun universitetin ovaxtkı rektoru Cəfər Xəndanı. Heydərin qətiyyətini, prinsipiallığını gördükdən sonra komissiya yaradılmasına razılıq verdi. Beləliklə, Heydər 7 nəfərdən ibarət komissiyaının qarşısında 15-dən artıq suala cavab verdi. Sonda müəllimlərin hamısı "sən "beş"ə layiqsən, halal olsun" - dedilər.

Qəbul komissiyasının sədri hamımızın yanında Heydərdən üzr istədi. Heydər elə imtahandaca bütün qrupun rəğbətini, hörmətini qazandı. Qiyabi təhsil alırdıq. Heydər burada da, qrupun liderinə, gənc ağsaqqalına çevrilmişdi. Bütün universitetdə nüfuz sahibi idi.

Mütəmadi olaraq Bakıdakı evlərində olurdum. O qədər əhvalatlar başımıza gəlib ki…

Bir gün dərsdən çıxanda Heydərə dedim ki, bəs kənddən bir qohumum göz xəstəxanasında yatır, onun yanına getməliyəm. Bir anlığa duruxub, "Dövlət, qoy mən də gedim, sənin qohumunu yoluxum" - söylədi. Sözün düzü, təəccüb etdim: "Ay Heydər, sənin işin-gücün var, mənlə vaxt itirmə". Ancaq Heydər razılaşmadı ki, razılaşmadı.

Beləliklə, gəldik göz xəstəxanasına. Palatanı xəbər alıb qalxmaq istəyəndə Heydər "Dövlət, mənim bir tanışım burada işləyir, bir dəqiqə gözlə, onunla da görüşək, sonra bilər, yaxşı düşməz" - söylədi. "Mənim tələsən yerim yoxdur, özün bil" - dedim. Bir kabinetə girən Heydər oradan gözəl bir xanımla çıxdı.

Mənə xitabən, "Dövlət, tanış ol, Zərifə xanımdır, ailəvi münasibətlərimiz var" - deyən Heydər qarşımızdakı qıza da, "Bu, Dövlətdir, uzun illərin dostuyuq" - söylədi. Bir neçə dəqiqəlik söhbətdən sonra Zərifə xanımdan ayrıldıq. Heç vaxt hisslərini büruzə verməyən Heydərin üzündə çox qəribə ifadə vardı və mən özümü saxlaya bilməyib, "Ay Heydər, deyəsən, sən bura gəlişinin əsas məqsədinə çatdın, daha mənim qohumumla görüşməyə ehtiyac yoxdur" - dedim. Heydər bir anlığa üzünə çox kəskin ciddilik gətirərək mənə zəndlə baxdı...

Və bununla da bu mövzuda söhbətimiz bitdi. Bu hadisədən bir il sonra, 1954-cü ildə Heydər Əliyev Zərifə xanımla ailə həyatı qurdu…"

❖ ❖ ❖

1957-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini əla qiymətlərlə bitirən Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində yeni vəzifəyə yüksəlir, Dövlət Məmmədov isə Naxçıvanda pedaqoji fəaliyyətini davam etdirir.

Həmin il Heydər Əliyevin anası İzzət xanım da rəhmətə gedir. Dövlət müəllim xatırlayır ki, bu hadisə Heydər Əliyevə olduqca pis təsir edir və o, bu itkinin iztirablarını çox ağır keçirir. Sonrakı illərdə də ikiqat tələbə dostlarının görüşləri olurdu. "O, heç vaxt məni, digər dostlarını unutmurdu, hətta qayğımıza da qalırdı" - deyir Dövlət Məmmədov və xatırlayır ki, Naxçıvana daim Heydər Əliyev barədə xoş xəbərlər gəlirdi...

❖ ❖ ❖

"…Heydər Əliyev Naxçıvanda çox məşhur idi, 1967-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinə sədr müavini təyin edildikdən sonra isə onun nüfuzu birəon qat artdı. Elə həmin il respublika Ali Sovetinə seçkilər keçirilirdi. Ovaxtkı Əbrəqunus rayonundan elimizin böyük oğlunun Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədliyi irəli sürülmüşdü.

Heydər Əliyevin seçicilərlə görüşü keçirilirdi. Bir məqamı deyim ki, sovet dövrünün seçkiləri, adətən, quru keçirilirdi və əhali də deputatlığa namizədlərlə görüşə zorən gətirilirdi. Ancaq Heydər Əliyevin hansısa kənddə görüş keçirəcəyi məlum olduqda, nəinki təkcə həmin kəndin, hətta qonşu kəndlərin camaatı da bu görüşə tələsirdi. Hamı üçün Heydər Əliyevi - Naxçıvanın adını bütün Azərbaycanda tanıtmış bir şəxsiyyəti görmək maraqlı idi.

Belə görüşlərin biri də Bənənyar kəndində keçirilirdi. Kəndin girəcəyində qarşılanma mərasimində məni dərhal gördü, yanına çağırdı, işimlə, ailə vəziyyətimlə, dolanışığımla maraqlandı, xeyli səmimi söhbət etdik. Çox mehriban görüş keçirilirdi, inanın ki, nə rəsmiyyətçilik, nə də quru sözçülük vardı bu görüşdə. Hətta camaat Heydər Əliyevin DTK sədrinin müavini olduğunu da unutmuşdu.

Əslində, elə ilk tanışlıqda Heydər Əliyev hamıya göstərdi ki, o, çekist olmamışdan öncə, azərbaycanlıdır, xalqını sevən rəhbər şəxsdir və ondan çəkinməyə ehtiyac yoxdur, əksinə, ona inanmaq, güvənmək lazımdır. Görüşdən sonra Heydər Əliyevlə yenidən söhbətləşdik, ötən günləri yada saldıq. Qrup yoldaşlarımızı bir-bir xəbər aldı, onlara salam deməyimi tapşırdı.

1969-cu ilin iyul ayının 15-i səhər bir də gördüm qonşum az qalır qapını qıra. İçəri girərək, sevinclə "Heydər Əliyevi Azərbaycana rəhbər qoydular" - deyə qışqırdı. Az sonra bütün kənd, nəinki kənd, bütün Naxçıvan sevincdən ayağa qalxmışdı. Təbrik teleqramı göndərdim və fəaliyyətində uğurlar arzuladım. Elə fəaliyyətinin ilk aylarında ölkədə hiss olundu ki, yeni rəhbər əvvəlkilər kimi deyil, o, işləməyə, xalqı və dövləti inkişaf etdirməyə gəlib. Heydər Əliyev hər yerdə ona inananların, Azərbaycanın adını ucaldırdı.

1974-cü ildə Naxçıvan MSSR-in yaradılmasının 50 illiyi qeyd olunurdu. Bu münasibətlə təşkil olunmuş bayram tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn Heydər Əliyev Culfanı da ziyarət etdi. Burada da tədbirdə məni uzaqdan görüb yanına çağırdı, hal-əhval tutdu. Qrup yoldaşlarımızı xəbər aldı, dostları, ötən günləri bir daha xatırladıq. Çox söhbət etdik.

Sonrakı illərdə də hər dəfə Naxçıvana gələndə görüşürdük, bizi axtarırdı, heç vaxt unutmurdu.

Sonra da 1982-ci il... Heydər Əliyev Azərbaycanın adını Kreml zirvəsinə qədər yüksəltdi. Sevincimizdən, şadlığımızdan bilmirdik nə edək?.. Hər dəfə rəsmi qəzetlərdə adını, mərkəzi televiziyada özünü görəndə qəlbim iftixar hissi ilə dolurdu. Düşünürdüm ki, indi Əlirza əminin, İzzət ananın ruhu çox şaddır, çünki onlar Heydəri layiqli oğul kimi böyütmüşdülər, onun üstündə əziyyət çəkmişdilər, ona böyük ümidlər bəsləmişlər, demək o da valideynlərinin çörəyini itirmədi...

Sonra da 1987-ci il gəldi... Heydər Əliyev bütün vəzifələrindən istefa verdi. O, indi vəzifəsiz idi, sadəcə "İttifaq əhəmiyyətli təqaüdçü" statusunu saxlayırdı. Ancaq yenə də xalqın əsas güvənc yeri, inam mənbəyi idi. 1988-ci ildən başlayan erməni təcavüzünə və Moskvanın anti-Azərbaycan hikkəsinə qarşı ölkə rəhbərliyinin müqavimət göstərə bilməməsi xalqı bir daha əmin etdi ki, Heydər Əliyev alternativsiz siyasi liderdir, yalnız onun şəxsi qüdrəti yaranmış problemləri həll edə bilər və ümumiyyətlə, Tanrı bu insanı Azərbaycana xilaskar kimi göndərib. Artıq Heydər Əliyevin əleyhinə mərkəzi və yerli mətbuatda şər, böhtan dolu yazılar gedirdi. Hamımız bilirdik ki, bu məkrli kampaniyanın başında M.Qorbaçov və Ə.Vəzirov dayanır. İftiralar elə hədsiz hala çatmışdı ki...

Axırda dözməyib qatara bilet alıb birbaş Bakıya, "Kommunist" qəzetinə gəldim. Redaktorun qəbulunda oldum. Dedim ki, Heydər Əliyevin bioqrafiyasını səhv yazmasını, Naxçıvanda texnukumda oxumadığını, ADU-ya saxta yollarla qəbul edildiyini yazırsınız. İndi mən də Heydər Əliyevi 1936-cı ildən tanıyan, onunla duz-çörək kəsən bir insan kimi gəlmişəm həqiqəti danışam. Bu kişi mənlə bərabər Pedoqoji Texnukumda oxuyub, bu da bizim şəkillərimiz. Bu kişi ADU-ya girəndə ona qarşı saxtakarlıq etmək istəyiblər, ancaq biliyi ilə ədalətli "əla" qazanıb, inanmırsınız, gedin universitetin arxivini yoxlayın. Bioqrafiyasına gəlincə isə, onun evində duz-çörək kəsmişəm, bütün qohumlarını tanıyıram, Heydər Əliyevin bütün həyat yoluna bələdəm, nəyi səhv yazıbsa, deyin, mən də öz yaddaşıma güc salım, görək, həqiqət kimin tərəfindədir. Məni dinlədikdən sonra başa saldılar ki, "İş bizlik deyil. Sən də ağlını başına yığ, artıq Heydər Əliyev yoxdur, onun adını çəkənin bütün nəslini yer üzündən kəsirlər".

Suyu süzülmüş halda gəldim Cəlal Əliyevin yanına. Gördüm ki, Cəlal müəllim məndən beşqat artıq əsəbidir. Məni dinlədikdən sonra dedi ki, "Ay Dövlət müəllim, sən bir qəzetlə bacarmırsan, mən isə qalmışam bütün bu rəhbərlərin əlində, onlara həqiqəti qəbul etdirə bilmirəm, hələ gör Heydər nələr çəkir. Donos yazanların hamısı vaxtilə Heydərin çörəyini yeyənlər, onun vəzifəyə çəkdiyi adamlardır. Hamısı xain çıxdı. Heç olmasa həqiqəti desinlər, dərd yarı olar, yazdıqlarının hamısı yalandır, böhtandır".

Xeyli dərdləşdikdən sonra Cəlal müəllim mənə ürək-dirək verdi, qatara bilet alaraq, Naxçıvana yola saldı. Mən isə sakitləşə bilmədim..."

❖ ❖ ❖

Dövlət Məmmədov həqiqətən də sakitləşə bilmir. İndi onun səsi-sorağı Moskvaya, Kremlə, Qorbaçova, Vəzirova... vurulan yüzdən artıq etiraz teleqramı ilə gəlirdi.

Bir sözlə, Heydər Əliyev Naxçıvana gələnə qədər Dövlət Məmmədov özünəməxsus mübarizə aparırdı. O dövrdəki etiraz kampaniyasını isə Dövlət müəllim "Bu da mənim mübarizəm idi, Heydər Əliyev uğrunda, haqq-ədalət uğrunda!" - deyə səciyyələndirir. Dövlət Məmmədovun həmin illərdəki fəaliyyəti, fədakarlığı ilə bağlı akademik Cəlal Əliyev "Elm həqiqətdir" kitabında ətraflı yazıb, bu insanın sədaqətini çox yüksək dəyərləndirib...

❖ ❖ ❖

"...Tez-tez Cəlal Əliyevə zəng edib Heydər Əliyevi soruşurdum. Deyirdi ki, təzyiqlər çoxalıb, İlhamı, Sevili işdən çıxarıblar, ancaq Əliyevləri sındırmaq mümkün deyil. Mənim salamlarımı çatdırdığını deyir və söyləyirdi ki, Heydər Əliyev də mənə, bütün dostlarına salam deyir, sədaqətə görə minnətdarlığını bildirir. 1990-cı ilin 22 iyulu idi. Eşitdim ki, Heydər Əliyev artıq bir neçə saatdır Naxçıvana gəlib. Təcili görüşə hazırlaşdım, bizim evdən məsləhət gördülər ki, Heydər Əliyev uzaq səfərdən gəlib, bu gün narahat etməyə dəyməz. Ancaq düşündüm ki, indi Heydər Əliyev üçün ən vacibi dincəlmək deyil, dostlarının əhatəsində olmaqdır.

Bacısı Suğra xanımın evində məskunlaşan Heydər Əliyev məni görcək çox sevindi, səmimi görüşdük. O, çox arıqlamışdı, hiss olunurdu ki, son illərdə böyük çətinliklərlə qarşılaşıb. Evdə Afiyəddin Cəlilov da vardı. Birdən onu qapıya çağırdılar. Geri dönəndə Heydər Əliyevə bildirdi ki, on minlərlə naxçıvanlı onunla görüşmək istəyir. Heydər Əliyev mümkünsə, mərkəzi meydana gələrək sakinlərin salamını qəbul etsin.

Mən də onlara qoşulub meydana getdim. Meydana qədər yolu çətinliklə irəliləyirdik. İynə atsaydın yerə düşməzdi, bütün Naxçıvan öz böyük oğlunu qarşılamağa çıxmışdı. Heydər Əliyev burada 80 min nəfərin qarşısında qısa çıxış etdi, dedi ki, o, Naxçıvana yalnız sakit yaşamaq üçün gəlib, xalqı ilə birlikdə olmaq niyyətindədir. Alqışların, "Heydər!" sədalarının ardı-arası kəsilmirdi.

Evə xalqın, sadə naxçıvanlıların əhatəsində yenə birlikdə qayıtdıq. Artıq Heydər Əliyevin simasında üzgünlük, yorğunluq qalmamışdı. Gülümsəyərək, "Dövlət, xalqımdan razıyam, məni unutmayıblar, demək yaşamağa dəyərmiş" - dedi.

Səhərisi gün Ordubad camaatı ilə görüşə getdik. Burada da əhali Heydər Əliyevi qəhrəman kimi qarşıladı. Bir neçə gün ərzində Heydər Əliyev bütün Naxçıvanı gəzdi, özü də şahid oldu ki, Naxçıvan sakinləri bir nəfər kimi onun sözünü, əmrini gözləyir.

Sonrakı hadisələrdən də xəbərdarsınız... Artıq Naxçıvan və naxçıvanlılar öz talelərini Heydər Əliyevə həvalə etmişdilər. Onunla tez-tez görüşürdük, ya evində, ya kabinetində, ya da ki Naxçıvanın müxtəlif guşələrində. Naxçıvanın üzləşdiyi problemləri həll etmək üçün Heydər Əliyev böyük əziyyətlər çəkirdi. Ermənistanın blokadası az imiş kimi, Bakı rəhbərliyi də hər dəfə bir təxribat hazırlayırdı. Heydər Əliyevin sayəsində yalnız Türkiyənin, İranın yardımına ümid edirdik.

Heç yadımdan çıxmaz, 1991-ci ilin soyuq qış günlərindən biri idi. Evdə ehtiyat saxladığım bir neçə salxım üzümü götürüb, Heydər Əliyevin görüşünə getdim. İnanın, Naxçıvan rəhbərinin evi də bumbuz idi. Mənzildə palto, papaqla oturduq. Üzümü görən Heydər Əliyev bir qədər pis oldu. "Dövlət, biz üzüm yeyə bilərik, ancaq naxçıvanlıların çoxu quru çörəyə möhtacdır, soyuq xalqı qırır. Eybi yox, biz kişiyik, birtəhər tab gətirərik, bəs uşaqlar, qadınlar, yaşlılar nə etsin? Bu camaatın ümidi yalnız mənədir, mən məsuliyyətimi anlayıram. Ancaq nə qədər mane olan var..."

Heydər Əliyev çox üzgün idi, ancaq bədbin deyildi, bax elə onun bu mübarizliyi Naxçıvanı məhvdən qurtardı...

1993-cü ilin may ayının 8-də Heydər Əliyevin 70 illik yubileyini təbrik etmək üçün onun qəbuluna gəldim. Öz əl işimi - rəsmi ona təqdim etdim. Kabinetdə olan başqa adamlar çıxandan sonra təklikdə söhbət etdik. Dedi ki, "Dövlət, Bakıda vəziyyət pisləşir, bunun bəlası bütün Azərbaycana dəyəcək, Allah ölkəmizi daha böyük bəlalardan qorusun". Bu sözlərdən sonra mən çox narahat oldum, əgər Heydər Əliyev kimi bir şəxsiyyət böyük bəlalardan danışırsa, demək vəziyyət çox gərgindir. Doğrudan da, bir ay sonra ölkədə vəziyyət o qədər mürəkkəb hal aldı ki, bütün xalq Heydər Əliyevi təkidlə Bakıya, hakimiyyətə dəvət etdi.

Və Heydər Əliyev Azərbaycana növbəti dəfə qurtuluş bəxş etdi...

1998-ci ildə Heydər Əliyev bütün tələbə yoldaşları ilə görüş keçirdi. Çox maraqlı, təsirli görüş oldu. Təsəvvürünüzə gətirin ki, uzun illər idi ki, bir-birindən ayrılan tələbə yoldaşlarımızın hərəsi bir rayondan, bir kənddən gəlmişdi. Onda olan səmimiyyətə, mehribanlığa bir daha heyran qaldıq. Hamımızla bir-bir görüşdü, iş yerimizi, ailə vəziyyətimizi soruşdu, problemlərimizlə maraqlandı. Tələbəlik dövrünün xatirələrini bir daha yaşadıq. Hamımız da onun güclü hafizəsinə heyran qalmışdıq ki, üstündən neçə illər keçməsinə baxmayaraq tələbəlik illərində baş verən hadisələri belə dəqiqliklə xatırlayır.

Ümumiyyətlə, hər ilin 9 mayında - Qələbə günündə Həzi Aslanovun abidəsi önündə bütün veteranlarla görüşən Heydər Əliyev mənimlə haləhval tutur, "Dövlət, biz hələ çox yaşayacağıq" - deyirdi.

2002-ci ilin 11 iyununda eşitdiyim xəbərlə sanki dünyaya yenidən gəldim. Heydər Əliyev fərmanı ilə məni Prezidentin fərdi təqaüdçüləri sırasına daxil etmişdi. Sevincimin həddhüdudu yox idi..."

❖ ❖ ❖

Bu hadisədən bir həftə sonra Heydər Əliyev Naxçıvana gəlir. Bu səfərdə Dövlət Məmmədovla bağlı çox isti bir haşiyə də var. Televiziya vasitəsi ilə dəfələrlə nümayiş olunan hadisəni xatırlamağa ehtiyac duyuruq.

Şəhər gəzintisinə çıxarkən kənardan Dövlət müəllimi görən Prezident onu yanına dəvət edir. Səmimi görüşdən sonra "Dövlət müəllim, keyfin necədir, necə dolanırsan" sualına belə cavab alır: "Çox sağ olun, cənab Prezident, təltifinizə görə də minnətdaram, heç bir təmənnam yoxdur, təki Sizin canınız sağ olsun".

Özünəməxsus tərzdə gülümsəyən Heydər Əliyev "Mən səni yaxşı tanıyıram, gözütox adamsan, bir stəkan südlə də dolana bilərsən, ancaq sənin kimi insanlara dövlətin qayğısı vacibdir, həm də burada unutmasınlar ki, sən mənim dostumsan" - deyir.

Bu, dostların sonuncu görüşü idi...

❖ ❖ ❖

"...2003-cü ilin aprel ayından narahat idim. Hər gün gözümü televiziyaya dikib Heydər Əliyevin səhhəti ilə bağlı məlumatları izləyirdim... 13 dekabr günü səhər tezdən gördüm evdə hamı ağlayır, ancaq mənə heç nə demirlər. Ürəyimə damdı, keçirdiyim iztirabları sözlə deyə bilmirəm...

Naxçıvan nümayəndələri ilə birlikdə Bakıya dəfn mərasiminə gəldim. Respublika sarayından fəxri xiyabanadək olan 7 km-lik yolu hamı kimi ayaqla getdim. Ancaq bu yolda mənim təəssüratlarım tamam başqa idi. İndi rəhbərimin cənazəsi arxasında keçdiyim bu yolu vaxtilə dostum Heydərlə o qədər dolaşmışdıq, zarafat edə-edə, böyük arzulardan danışa-danışa...

Heydər Əliyevə son borcumu vermək üçün onun adını daşıyan fonda müsabiqə üçün öz əsərimi təqdim etmişəm. Bu da mənim - Heydər Əliyevin uşaqlıq dostunun, ikiqat tələbə yoldaşının, onun ailəsinin qayğısını görmüş sadə bir azərbaycanlının töhfəsidir. İndi də hər dəfə Bakıya gələndə aeroportdan birbaşa Fəxri xiyabana gedirəm, Heydər Əliyevin məzarı başında dayanıram, söhbətləşirəm, xatirələri danışıram, dostlarımızdan bəhs edirəm, bilirəm ki, onun ruhu məni dinləyir...

*Heydər Əliyevin şəkildəki gülümsəyən çöhrəsini görəndə xatirələrə dalıram...*

*Sanki yenə də 1936-cı ildir...*

*Yenə də qapı açılacaq, Əlirza əmi onu bizə təqdim edəcək...*

*Heydər də sınayıcı tərzdə əlimi möhkəm sıxacaq...*

*Beləliklə, 67 il davam edəcək dostluğumuz başlayacaq..."*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

*Bakı-Naxçıvan-Bakı*

***Məqalə 12 dekabr 2004-cü ildə "Azərbaycan" qəzetində dərc olunub. Dövlət Məmmədov bir neçə il öncə Naxçıvanda vəfat edib.***



# İlham Əliyevin sülh gündəliyi

## Beynəlxalq birlik onu dəstəkləməyə məhkumdur

İkinci Qarabağ savaşının başa çatmasının üçüncü ilində sülh sazişinin imzalanma prosesi reallaşa bilər. Əgər Ermənistan yenə də havadarlarına arxalanıb prosesdən yayınmağa çalışmasa, sülh müqaviləsinin imzalanması real görünür. Əlbəttə ki, bu, baş verərsə, sənəd Azərbaycanın irəli sürdüyü 5 baza prinsipi əsasında imzalanacaq və region ölkələri üçün yeni imkanlar açılacaq.

### İlham Əliyevin təklifləri Cənubi Qafqazda təhlükəsizliyin qarantıdır

Reallıq budur ki, müharibənin başa çatmasından ötən müddət ərzində Azərbaycan sülhün, həmçinin qarşılıqlı olaraq Ermənistanla bir-birlərinin ərazi bütövlüyünü tanımaqla regionda sabitliyin bərqərar olması üçün konkret addımlar atır.

Qalib Ali Baş Komandan kimi İlham Əliyev həm Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında misli görünməmiş yenidənqurma layihələrini həyata keçirir, həm də regionun Avrasiyanın mühüm nəqliyyat-tranzit habına çevrilməsi üçün yeni əməkdaşlıq platformalarının yaradılması təşəbbüsləri ilə çıxış edir. Azərbaycan Prezidenti bəyan edir ki, Ermənistanla sülh sazişinin bağlanması bölgədə sülhün təminatını şərtləndirəcək və Zəngəzur dəhlizinin açılması ilə yaranacaq yeni imkanlar ilk növbədə bölgə ölkələrinin iqtisadiyyatına dividendlər qazandıracaq.

Bütün bunlar göstərir ki, İlham Əliyev sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir. Baş verən bütün proseslər təbii ki, beynəlxalq birlik tərəfindən də izlənilir və əsl reallıq təqdir edilir. Çünki beynəlxalq təşkilatların, böyük dövlətlərin əksəriyyəti Cənubi Qafqazda ilk növbədə təhlükəsizliyin təminatının vacibliyini vurğulayırlar.

Yanvarın 23-də ABŞ dövlət katibi Antoni Blinkenin İlham Əliyevə zəng edərək ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına sadiqliyini ifadə etməsi və sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini bildirməsi də bunu bir daha təsdiqləyir.

Telefon söhbəti zamanı ABŞ dövlət katibinin Azərbaycan ərazisində Laçın dəhlizində yaranmış vəziyyətlə bağlı narahatlığını bildirməsinə isə İlham Əliyev əsl həqiqətlər fonunda reallığı və Laçın-Xankəndi yolunda hər hansı blokadanın olmadığını dövlət katibinin diqqətinə çatdırdı. Yayılan "məlumatlar" sadəcə olaraq Ermənistan və antiazərbaycançı qüvvələrin məkrli oyunlarının tərkib hissəsidir.

### Azərbaycan Laçın-Xankəndi yolunu bağlamayıb

İlham Əliyev ABŞ dövlət katibinin diqqətinə çatdırdı ki, 2022-ci il dekabrın 12-dən etibarən 980-nə yaxın nəqliyyat vasitəsinin bu yoldan keçidi təmin olunub. Onların 850-dən çoxu Rusiya sülhməramlılarına, 120-dən çoxu isə Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus olub. Eyni zamanda Azərbaycan Prezidenti Qarabağda yaşayan 90-a yaxın xəstə və tibbi yardıma ehtiyacı olan şəxsin Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəsilə Ermənistana aparılmasının təmin edildiyini vurğulayıb. Prezident İlham Əliyev bildirib ki, bütün bunlar Laçın-Xankəndi yolunun Azərbaycan tərəfindən bağlanmadığını göstərir.

Dövlət başçısı digər bir məsələyə də toxunaraq bir daha qətiyyətli mövqeyini nümayiş etdirib. İlham Əliyev deyib ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərimizdə Azərbaycanın faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə ölkəmizin daimi monitorinq və təftiş aparmaq imkanı təmin edilməlidir. Prezident həmçinin Ermənistan tərəfindən 2021-ci ilin istehsalı olan minaların qanunsuz olaraq Laçın yolundan istifadə edilərək daşındığını bildirib.

Ölkəmizin sülh prosesinə və Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşdırılmasına sadiq olduğunu qeyd edən İlham Əliyev vurğulayıb ki, tərəflər arasında imzalanacaq sülh müqaviləsi beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın təqdim etdiyi beş prinsip əsasında yalnız ikitərəfli münasibətlərin normallaşdırılmasını özündə ehtiva etməlidir.

Prezident İlham Əliyev Qarabağda yaşayan mülki erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin Azərbaycan Konstitusiyası və qanunları əsasında təmin olunacağını qeyd edib.

### Azərbaycan Prezidentinin qətiyyətli mövqeyi

Əlavə edək ki, Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclərin və ekoloqların Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası artıq 45 gündür ki, davam edir.

Havanın soyuq olmasına baxmayaraq hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. Onlar ekoloji terrorun dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində şüarlar səsləndirirlər. Aksiya iştirakçılarının toplaşdığı ərazidən keçən yolda nəqliyyatın sərbəst hərəkətinə heç bir maneə yoxdur. Yol humanitar məqsədlər üçün tam açıqdır.

Amma görünən odur ki, azərbaycanlı fəalların Laçın-Xankəndi yolunda keçirdikləri aksiyanın əsl məqsədi Ermənistan, dünya erməniliyi və ermənipərəst qüvvələr tərəfindən dünyaya yanlış təqdim edilir. Bununla da Azərbaycanın guya Laçın yolunu bağlamaqla, Qarabağda məskunlaşan azsaylı erməniləri blokadada saxladığı, onların yaşam hüququnu məhdudlaşdırdığı təəssüratı yaransın. Ən başlıca məqsəd isə ölkəmiz tərəfindən Qarabağ ermənilərinin hüquq və azadlıqlarının təminatı ilə bağlı səslənmiş məsələlərin şübhə altına alınması, bu yolla bölgədəki separatçılığın davam etdirilməsidir.

Hər zaman erməni yalanını, antiazərbaycançı dairələrin məkrli planlarını alt-üst edib onlara yerini göstərən İlham Əliyevin həm Davos Forumunda, həm də ABŞ dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı əsl həqiqətləri səsləndirməsi bir daha kimin çirkin məqsədlərə xidmət etdiyini aşkara çıxardı.

Azərbaycan Prezidenti Davosda ölkəmizin dünya üçün əhəmiyyətini son dərəcə dəqiq şəkildə, dolğun məzmunda izah etdi. Dövlət başçısının Cənubi Qafqaz siyasi akvatoriyasında Azərbaycan amilini bölgənin hərəkətverici qüvvəsi kimi göstərməsi, mövcud xüsusda ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolunu qabartması müstəsna dərəcədə əhəmiyyətli idi.

Prezident İlham Əliyev ABŞ dövlət katibi Antoni Blinkenin diqqətinə çatdırdı ki, Azərbaycanın qətiyyətli mövqeyi dəyişməzdir. Bu yolda barış yalnız sülh müqaviləsini imzalamaqdan keçir. Buna razı olmayan tərəf isə Ermənistandır. Dünyanın böyük dövlətləri, beynəlxalq təşkilatlarının əksəriyyəti Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin olunmasının tərəfdarıdırlar. Yəni mütləq əksəriyyət İlham Əliyevin yaratdığı yeni reallığa öz dəstəyini nümayiş etdirir. Ermənistan isə sülh müqaviləsini imzalamaqdan boyun qaçırmaqla öz problemlərini böyüdür. Bu da, əlbəttə ki, qarşıdakı dövrdə rəsmi İrəvanı daha ağır günlər gözlədiyini deməyə əsas verir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# "Ermənistanın mövqeyi onu müdafiə edən Qərb dövlətlərinin mövqeyi ilə ziddiyyət təşkil edir"



"Münaqişə ilə bağlı cinsi zorakılığın qarşısının alınması üçün gender bərabərsizliyinin və güc tarazlığının aradan qaldırılması, habelə normativ dəyişikliklər zəruridir.

Azərbaycan uzun müddət işğala məruz qalan ölkə kimi silahlı münaqişənin bütün mənfi tərəflərini yaşayıb. Qarabağ müharibəsi zamanı minlərlə azərbaycanlı qadın müxtəlif zorakılıqlara məruz qalaraq, ağır travma yaşayıblar".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Könül Nurullayeva qurumun qış sessiyasında "Münaqişə ilə bağlı cinsi zorakılıq" adlı məruzənin müzakirəsi zamanı çıxışında deyib.

Deputat bildirib ki, Azərbaycan ərazilərini 30 il işğal altında saxlayan, uşaq və qadınların qatili rolunda çıxış edən Ermənistan özünü "demokratiya adası" kimi təqdim etməyə çalışır.

"Burada qadınların zorakılığa məruz qalmasından danışırıq. Ziddiyyətli bir məqamı xatırlatmaq istəyirəm. Ermənistanın baş nazirinin xanımının İrana səfərinə toxunacağam. Qadınlara divan tutan rejimin təbliğat kampaniyasına Ermənistanın baş nazirinin həyat yoldaşının qoşulmasına nə ad vermək olar? Ermənistanın İranda keçirilən bu tədbirə qoşulması demokratiya və insan hüquqları mövzularında Qərb dövlətlərinin kollektiv mövqeyi ilə ziddiyyət təşkil edir", - deyə Könül Nurullayeva avropalı parlamentariləri cidd-cəhdlə müdafiə etdikləri Ermənistanın bu qəbuledilməz davranışına diqqət yetirməyə səsləyib.

# Bölgədə vəziyyəti gərginləşdirən Ermənistandır

## Yeni vasitəçilik missiyası yalnız İlham Əliyevin doktrinası çərçivəsində tənzimlənməlidir





Xəbər verildiyi kimi, yanvarın 23-də ABŞ dövlət katibi Antoni Blinkenlə Prezident İlham Əliyev arasında telefon danışığı olub. Söhbət zamanı Laçın yolunda yaranmış vəziyyətlə bağlı narahatlığını bildirən ABŞ rəsmisinə ərazidə hər hansı blokadanın olmadığı bildirilib.

Prezident İlham Əliyev ABŞ dövlət katibinə bölgədəki real vəziyyət barədə kifayət qədər tutarlı cavab verib. Dövlət başçısı Qarabağ iqtisadi zonasında yaşayan mülki erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında təmin olunacağını qeyd edib. Danışıq zamanı vurğulanıb ki, Rusiya sülhməramlılarının müvəqqəti nəzarət zonasındakı suveren ərazilərimizdə Azərbaycana məxsus faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə ekoloqlarımızın daimi monitorinq və təftiş aparmasına şərait yaradılmalıdır. Həmçinin Laçın yolundan hərbi məqsədlər üçün istifadə yolverilməzdir.

Xatırladaq ki, bəzi xarici dövlət və təşkilatların Laçın yolunun guya azərbaycanlılar tərəfindən blokadaya alınması kimi iddiaları əsassızdır. Ötən il dekabrın 12-dən etibarən 980-nə yaxın nəqliyyat vasitəsinin Laçın yolundan keçidinin təmin olunması bunu sübut edir. Humanitar məqsədli daşımaların 850-dən çoxu Rusiya sülhməramlılarına, 120-dən çoxu isə Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus olub. Eyni zamanda aksiya müddətində Qarabağda yaşayan 90-a yaxın xəstə və tibbi yardıma ehtiyacı olan şəxsin Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə Ermənistana aparılmasına şərait yaradılıb.

### ABŞ vasitəçilik missiyasını üzərinə götürmək istəyir

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc əməkdaşımızla söhbətində ABŞ-nin Cənubi Qafqazdakı rolu və hədəfləri barədə söz açıb. Komitə sədri bildirib ki, ABŞ, xüsusilə son dövrlər regional proseslərdə, Cənubi Qafqazın yeni arxitektura quruculuğunda aktiv rol almağa çalışır: "Nəzərə almaq lazımdır ki, rəsmi Vaşinqton 2010-cu ilə qədər bölgəyə yönələn siyasəti hesabına hərbi sistemdə, təhlükəsizlik məkanında fəal iştirak edib, müxtəlif dövlətləri beynəlxalq proqramlara cəlb edib, NATO ilə sıx tərəfdaşlıq qurub, eləcə də digər iqtisadi və siyasi proseslərdə həlledici rol oynayıb. Bəzən kobud güclə, bəzənsə məxməri üsullarla dövlətlərin hakimiyyət sistemlərinin formalaşmasına təsir imkanları bölgədəki əsas qərarlarda onun da söz sahibi olmasına səbəb olurdu. Hesab edirəm ki, eks-prezident Barak Obamanın hakimiyyəti illərində bu mənada bir qədər geriləmə baş verdi, ABŞ-nin yerini Rusiya, İran, Türkiyə və bir sıra Avropa dövləti tutdu. Hazırda postsovet məkanında müşahidə edilən yeni geosiyasi reallıqlar isə gələcək nizamın formalaşmasının müqəddiməsidir".

Zahid Oruc bildirib ki, hazırda davam edən hərbi toqquşmalar yalnız iki dövlət arasında getmir: "Prezidentin də vurğuladığı kimi, bu, artıq yeni vasitələrlə aparılan Üçüncü Dünya müharibəsidir. Belə şəraitdə isə, şübhəsiz ki, dövlətlər cinahlarını müəyyən edirlər. Bu proses o qədər güclü şəkildə reallaşır ki, bunu görməmək mümkün deyil. Lakin Azərbaycan qəti şəkildə Qərblə əlaqələrini aşağılamaq, Avropadan qopmaq niyyətində deyil. Nəzərə almaq lazımdır ki, bir tərəfdən inteqrasiya nəticəsində, ticarət dövriyyəmizin 35 faizindən çoxu məhz Qərb dövlətləri ilə formalaşır. Bu, şaxələnmiş iqtisadiyyat deməkdir. Digər tərəfdən isə, siyasi-hüquqi əlaqələr də bu müstəvidədir. Onu da qeyd etmək lazımdır ki, hazırda Rusiyanın bölgədəki rolu zəifləyib. Həmçinin Ermənistan da özünü artıq "Rusiyanın forpostu" kimi hiss etmir. Tam əksinə, rəsmi İrəvan "Qərb dövlətlərinin forpostu" olmağa can atır".

Komitə sədri qeyd edib ki, ABŞ dövlət katibi Antoni Blinken son iki ildə Azərbaycan və Ermənistanla danışıqlar aparır: "Ümumiyyətlə, 10 noyabr üçtərəfli Bəyanatından sonra özünü regiondan çıxarılmış hesab edən və müharibəyə qatıla bilməyən Qərb dövlətləri indiki halda Ermənistanın əli ilə regionda aktiv siyasət aparmağa çalışırlar. Bu, rəsmi Moskvanın mövqelərinə zərbə vurur, sanki yeni cəbhə açır və Rusiyanın ətrafında çənbər formalaşdırır. Bu həmçinin İranın da maraqlarına ziddir. Faktiki olaraq, çoxmillətli qüvvələrin BMT-nin mandatı altına gəlməsi ABŞ ordusunun çox kiçik bir hissəsinin də Azərbaycan-Ermənistan sərhədində hansısa formada yerləşdirilməsi, ərazidə hərbi bazasının qərarlaşması deməkdir. Fransanın, ABŞ-nin əsgəri qüvvələrinin bölgəyə gətirilməsi isə qarşısıalınmaz təhlükələrə yol aça, bölgədə beynəlmiləl toqquşmaları daha da qarışdıra bilər. Eyni zamanda bu, Rusiya-Ukrayna müharibəsinin Qafqaza köçürülməsi kimi bir şey olar".

Zahid Oruc deyib ki, Blinkenin Prezident İlham Əliyevlə telefon danışığı zamanı Laçın yolunda keçirilən aksiya barədə də fikir mübadiləsi aparılıb: "Prezidentin bu məsələ ilə bağlı mövqeyi prinsipialdır. Biz suveren ərazilərimizdə dinc aksiyalar vasitəsilə regiona silah daşınmasının və təbii sərvətlərimizin qeyri-qanuni istismarının qarşısını almağa, terror qruplarının cinayətkar əməllərini durdurmağa çalışırıq. Məqsədimiz təbii sərvətlərimizi talayaraq milyonlar qazanan, həmin gəlirlərini düşmənçilik üzərindən biznesə çevirən erməni oliqarxlarını dinc aksiya vasitəsilə məğlubiyyətə uğratmaq, nəticə etibarilə regiondakı bütün ərazilərimizdə suverenliyimizi bərpa edərək sonrakı dövrdə daimi sülhün yaradılmasına nail olmaqdır. Yəni Prezident İlham Əliyevin bu mənada irəli sürdüyü strategiya hansısa dövlətlər tərəfindən mübahisə predmeti ola bilməz. Bunun üçün onların nə gerçək hüququ, nə də güclü siyasi arqumentləri var".

Komitə sədri bildirib ki, ABŞ vasitəçilik missiyasını üzərinə götürmək istəyir: "Onlar hesab edirlər ki, ATƏT-in Minsk qrupu formatının mövcud olmadığı, Rusiyanın isə minlərlə sanksiya və embarqo tədbirlərinin hədəfinə çevrildiyi vaxtda bölgədə üçlü formatda görüşlər təşkil edə bilməzlər. Ona görə bəzən Şarl Mişel, bəzən isə birbaşa özləri vasitəçilik etməyə çalışırlar. Şübhə etmirəm ki, günün birində Antoni Blinken bölgəyə səfər edəcək, hətta ABŞ rəhbərlərinin bölgənin gələcəyi barədə yeni siyasi planlarını dilə gətirəcək. Əlbəttə ki, biz "hansısa dövlət vasitəçilik etməməlidir" yanaşmasını sərgiləmirik. Lakin ABŞ-nin Rusiya və İranla münasibətlərinin düşmənçilik səviyyəsində olması nəzərə alınmalı, vasitəçilik missiyası Prezident İlham Əliyevin məlum doktrinası çərçivəsində tənzimlənməlidir. Azərbaycan hansısa dövlətin ön cinahı deyil. Yəni biz xarici dairələrin bölgəni hərbiləşdirərək müəyyən siyasi qərarlar qəbul etməsi ilə qəti şəkildə razılaşa bilmərik".

Zahid Orucun sözlərinə görə, dövlətimizin yüksək strateji mövqelərə gəlib çıxması, İrəvandan ta Zəngəzura qədər hərbi müşahidə prosesini həyata keçirməsi, eləcə də ordumuzun şərti sərhədlərdə mövqe qurması fonunda xarici dairələrin Xankəndidə və ya Xocavənddə nəyəsə nail olması qeyri-mümkündür.

"ABŞ və ya digər dövlətlər müxtəlif siyasi manipulyasiyalar nəticəsində yalnız Ermənistanı, İrəvanı qarabağlaşdıra bilərlər. Bu, nə deməkdir?! İrəvanda Paşinyan hakimiyyəti çox yaxşı dərk edir ki, indiki reallıqda sülh müqaviləsinin imzalanmasını əldən çıxarsalar, Qarabağ məsələsi, doğrudan da, Azərbaycanın coğrafi məkanını aşaraq Ermənistana daxil olacaq. Bu halda onsuz da vaxtilə azərbaycanlıların yaşadıqları ərazilərdə məskunluq tapmayıb başını götürüb qaçan ermənilərin yaşamadığı bölgələrdə Azərbaycanın nəzarəti təmin olunacaq. Bu, əsla hərbi təhdid deyil. Əgər Ermənistan qarabağlaşmaq istəmirsə, Blinken də daxil olmaqla, digər dövlət rəsmiləri Azərbaycan tərəfi ilə telefon danışıqlarına və görüşlərinə reaksiya verərkən unutmamalıdır ki, onun taleyi bu gün üçüncü ölkələrin paytaxtlarında deyil, məhz Bakıda həll olunur", - deyə komitə sədri qeyd edib.

### Prezident Laçın yolu ilə bağlı kifayət qədər tutarlı mövqe ifadə edib

Milli Məclisin deputatı Fazil Mustafa bildirib ki, ABŞ dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevlə telefon danışığı zamanı toxunduğu əsas məqamların kökündə erməni təəssübkeşliyi dayanır: "ABŞ Laçın yolundakı aksiya ilə bağlı məsələdə təəssübkeşi olduğu erməni xalqının maraqlarını təmsil edir. Azərbaycan Prezidenti hər zaman olduğu kimi, bu məsələdə də kifayət qədər layiqli təmsilçi kimi hücumlara dirəniş göstərmək bacarığını ortaya qoyur. Açıq aydındır ki, xarici dövlətlər bu cür yanaşaraq problemi həll edə bilməzlər. ABŞ da anlamalıdır ki, ölkəmizin ərazi bütövlüyünə hörmət etmədən, onun hansısa təklifinin və xahişinin yerinə yetirilməsi yolverilməzdir. Azərbaycan dövlətinin və xalqının bu məsələ ilə bağlı mövqeyi dəyişməzdir".

Fazil Mustafanın sözlərinə görə, xarici dairələr elə reaksiya verirlər ki, sanki dünyanın bütün problemləri hazırda Laçın yolunda cəmlənib: "Halbuki Laçın yolunun blokadaya alınmasından, humanitar fəlakətdən söhbət belə gedə bilməz. Dövlətimizə qarşı belə sərsəm ittihamlar irəli sürməyin heç bir əsası yoxdur. Hesab edirəm ki, Prezident bu məsələ ilə bağlı kifayət qədər tutarlı, sərt və qınayıcı formada lazımi cavablarını verib. Biz ABŞ-də erməni heyranlarının çox olmasına baxmayaraq, onların da nə vaxtsa dövlətimizin ərazi bütövlüyünü nəzərə alaraq, ədalətli mövqe sərgiləyəcəklərinə ümid edirik. Avropa Parlamenti, Avropa İttifaqı, ABŞ Laçın yolu ilə bağlı absurd fikirlər səsləndirirlər. Sanki hər biri eyni mərkəzdən idarə olunur və "bir dövlətin hüquqlarını necə tapdalayaq" deyə yarış keçirirlər. Amma əbəsdir, Azərbaycan rəhbəri ciddi xarakter nümayiş etdirərək ölkəmizə düşmən mövqeyində olanları həm həqiqətlərə inandırmağa, həm də yerində oturtmağa davam edir".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Milli Məclisin komitə iclaslarında

Yanvarın 24-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2023-cü il yaz sessiyasında ilk iclası keçirilib.

Komitənin sədri Tahir Mirkişili iclasda 22 məsələnin müzakirəyə çıxarıldığını diqqətə çatdırıb.

Tahir Mirkişili bildirib ki, 2022-ci il Azərbaycan iqtisadiyyatı üçün uğurlu il olub. Dünyada baş verən böhrana baxmayaraq, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində ölkənin iqtisadi əlaqələri daha da genişlənib, iqtisadiyyatın ümumi parametrlərində artım müşahidə olunub. O, ötən il ümumi daxili məhsulun 4,6 faiz artaraq 134 milyard manatdan çox olduğunu, qeyri-neft sektorunun 9,1 faiz artaraq 70 milyard manatı keçdiyini qeyd edib. Bununla yanaşı, ölkənin kənd təsərrüfatı sahəsində məhsul istehsalının 3,4 faiz artaraq 11 milyard manatdan çox olduğunu və bunun ərzaq təhlükəsizliyinin təmin olunması məsələsində, habelə əhalinin məşğulluq səviyyəsinin artmasında xüsusi əhəmiyyət kəsb etdiyini söyləyib. 2022-ci ildə əhalinin nominal gəlirlərinin 20,5 faiz artaraq 70 milyard manata çatdığını deyib. İqtisadiyyat sahəsinə aid bir sıra digər göstəriciləri və əldə edilən nailiyyətləri nəzərə çatdırıb.

Komitə sədri bu gün də davam edən Laçın-Xankəndi yolunda Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı ekofəallar tərəfindən təşkil olunan aksiya barədə də öz fikirlərini açıqlayıb.

O, Prezident İlham Əliyevin bu günlərdə Davos Dünya İqtisadi Forumunda iştirakının, orada keçirdiyi görüşlərin əhəmiyyətindən danışıb. Forumda müzakirə olunan məsələlərin vacibliyini qeyd edib.

Sonra komitə sədri İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində 2022-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı təqdim edib. Bildirib ki, komitə ötən sessiya ərzində öz fəaliyyətini Milli Məclisin qanunvericilik işləri planına uyğun şəkildə həyata keçirib. Hesabat dövründə komitənin 26 iclası keçirilib, 217 məsələ müzakirə edilib.

Sonra Tahir Mirkişili komitənin 2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsini təqdim edib. Bildirilib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında daxil olan sənədlərin müzakirəsi, habelə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" Qanun layihəsinə, Hesablama Palatasının 2022-ci ildə fəaliyyəti haqqında hesabata baxılması nəzərdə tutulub. İş planına Rəqabət Məcəlləsinin, "Lombardlar haqqında", "Qiymətləndirmə fəaliyyəti haqqında" yeni qanun layihələri də daxil edilib.

Bununla yanaşı, yaz sessiyası ərzində komitədə aidiyyəti qurumlarla, sahibkarlarla, qeyri-hökumət təşkilatlarının nümayəndələrilə görüşlərin, ictimai dinləmələrin və bir sıra digər tədbirlərin keçirilməsi planlaşdırılır.

Komitənin sədr müavini Əli Məsimli, üzvləri Vahid Əhmədov, Ziyad Səmədzadə, Rüfət Quliyev, Elnur Allahverdiyev, Aydın Hüseynov komitənin 2022-ci ilin payız sessiyasının hesabatı və 2023-cü il yaz sessiyasının iş planı barədə fikirlərini açıqlayıb, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2022-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab edilib, 2023-cü ilin yaz sessiyası üçün iş planının layihəsi məqsədəmüvafiq hesab olunub.

Sonra iclasda gündəliyə daxil olan bir sıra qanun layihələri müzakirə edilib.



Komitə sədri Tahir Mirkişili diqqətə çatdırıb ki, gündəliyin 3-cü məsələsindən 12-ci məsələsinədək olan qanun layihələrində uyğunlaşdırma xarakterli dəyişikliklər nəzərdə tutulub. Belə ki, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Mülki Məcəllədə, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Prosessual Məcəllədə, Şəhərsalma və Tikinti Məcəlləsində və Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Müflisləşmə və iflas haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında", "Mülki müdafiə haqqında", "Qrant haqqında", "Hidrometeorologiya fəaliyyəti haqqında" və "Uşaq hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Nəşriyyat işi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Telekommunikasiya haqqında", "İnformasiya əldə etmək haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Dini ekstremizmə qarşı mübarizə haqqında", "Lisenziyalar və icazələr haqqında", "Hərbi vəziyyət haqqında", "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Məşğulluq haqqında", "Hesablama Palatası haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında", "Psixoloji yardım haqqında", "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" və "Turizm haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "İpoteka haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Dərman vasitələri haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Vətəndaşların müraciətləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Coğrafi obyektlərin adları haqqında", "Avtomobil nəqliyyatı haqqında", "Arıçılıq haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "Fərdi məlumatlar haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" və "İnvestisiya fondları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Lotereyalar haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Ovçuluq haqqında", "Fövqəladə vəziyyət haqqında", "Mühasibat uçotu haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Sərhəd mühafizə orqanları haqqında", "Daxili qoşunların statusu haqqında", "Rəsmi statistika haqqında", "Həmkarlar ittifaqları haqqında", "Haqsız rəqabət haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" və "Xüsusi iqtisadi zonalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, "Yerli rəy sorğusu haqqında", "Avtomobil yolları haqqında", "Diplomatik xidmət haqqında", "Dövlət satınalmaları haqqında", "Gənclər siyasəti haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Tənzimlənən qiymətlər haqqında" və "Banklar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Adları çəkilən qanunlarda "kütləvi informasiya vasitələri" sözlərinin "media" sözü ilə əvəz edilməsi nəzərdə tutulur.

Təqdim olunan qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Komitə sədri bildirib ki, gündəlikdə 13-dən 17-dək olan qanun layihələri nəqliyyat sektorunda yük və sərnişin daşımalarının tənzimlənməsi ilə bağlı məsələlərdir. O, həmin qanun layihələrinin mahiyyəti barədə məlumat verib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinin ləğvi məqsədilə hazırlanıb. Bununla əlaqədar olaraq icazə blanklarının verilməsinə görə dövlət rüsumu da ləğv edilir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsinə əsasən Azərbaycan ərazisindən tranzit keçən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri və ya həmin nəqliyyat vasitəsini idarə edən şəxslər yol vergisi ödəyicisi, həmin şəxslərə məxsus nəqliyyat vasitələri isə yol vergisinin obyekti hesab olunurlar. Sənəddə təhlükəli yüklərin daşınmasına görə yol vergisinə tətbiq olunan artımların ləğv edilməsi nəzərdə tutulub.

"Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə dövlət rüsumlarının ləğvini nəzərdə tutur.

"Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində (birinci oxunuş) iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsinə icazənin verilməsi üçün müraciət qaydası, müraciətə baxılması, zəruri hallarda nəqliyyat vasitəsinin ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət marşrutunun aidiyyəti hissələrinin elektrik, rabitə, su, qaz təchizatı, neft-qaz, dəmir yolu idarə və təşkilatları, avtomobil yollarının digər mülkiyyətçiləri ilə razılaşdırılması məsələsi, habelə daşıyıcıya icazənin verilməsindən imtina məsələləri tənzimlənir.

"Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində (birinci oxunuş) ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazənin verilməsi üçün dövlət rüsumunun məbləği müəyyən edilir.

Komitə üzvləri Məşhur Məmmədov, Vahid Əhmədov qanunlara təklif olunan dəyişikliklərin əhəmiyyətindən danışıblar, bəzi qeyd və təkliflərini səsləndiriblər. Deputatlar ölkənin nəqliyyat sektorunun inkişafı ilə bağlı öz fikirlərini bölüşüblər.

İclasda iştirak edən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Anar Rzayev, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Elmin Məmmədov qanun layihələri barədə fikirlərini açıqlayıblar, deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, suallarını cavablandırıblar. Onlar nəqliyyat sektorunda işin tənzimlənməsi ilə bağlı təmsil etdikləri qurumların gördükləri işlərdən bəhs ediblər.

Müzakirələrin sonunda bu qanun layihələri də birinci oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub.

Sonra parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Bildirib ki, layihə borc müqaviləsi və onun tərkib hissəsi olan kredit müqaviləsi üzrə münasibətlərin mülki qanunvericilik çərçivəsində tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi, xüsusilə bu sahədə borcalanların hüquqlarının qorunmasının təmin edilməsi, habelə Məcəllənin əqdlərlə və öhdəliklərlə bağlı bəzi normalarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Şöbə müdiri Məcəllənin müvafiq maddələrinə təklif olunan dəyişikliklərin mahiyyəti barədə ətraflı məlumat verib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili və sədr müavini Əli Məsimli məsələ barədə öz fikirlərini açıqladıqdan sonra qanun layihəsi birinci oxunuşda Milli Məclisin iclasında baxılmaq üçün tövsiyə olunub.

Sonra Tahir Mirkişili Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Kredit ittifaqları haqqında", "Tütün və tütün məmulatı haqqında", "Banklar haqqında" və "Bank olmayan kredit təşkilatları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, ölkədə son zamanlar bir çox məsələlərin Mülki Məcəllə ilə tənzimlənməsi təcrübəsi tətbiq olunur. Layihədə adları çəkilən qanunlarda da Mülki Məcəllənin tələblərinin nəzərə alınması təklif olunur.

Bu qanun layihəsi də birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitənin üzvü Məzahir Əfəndiyev "İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, "İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Tədqiqat Mərkəzinin Nizamnaməsi" 2021-ci il martın 4-də keçirilmiş 14-cü Zirvə Toplantısı zamanı imzalanıb. Nizamnaməyə əsasən Tədqiqat Mərkəzi İƏT-in əsas fəaliyyət istiqamətləri üzrə tədqiqatlar aparılması üçün təşkilatın beyin mərkəzi kimi fəaliyyət göstərəcək. Mərkəzin Qərargahı Bakı şəhərində yerləşir. İƏT-in Tədqiqat Mərkəzi Qəyyumlar Şurası, Elmi Şura və İcra Komitəsindən ibarət olacaq.

Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Komitə sədri Tahir Mirkişili "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, sənəddə sahibkarlıq sahəsində aparılan yoxlamaların daha bir il müddətinə - 2024-cü il yanvarın 1-dək uzadılması nəzərdə tutulur.

Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda "GUÖAM iştirakçısı olan dövlətlər arasında azad ticarət zonasının yaradılması haqqında Sazişə dair malların mənşə ölkəsinin təyin edilməsi Qaydaları barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsinə də baxılıb və sənəd Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Yanvarın 24-də Milli Məclisin Mədəniyyət komitəsinin cari ilin yaz sessiyasında ilk iclası keçirilib. İclası açan komitənin sədri Qənirə Paşayeva qarşıdakı sessiyada deputatlara uğurlar diləyərək gündəlik barədə məlumat verib.

Gündəliyin birinci məsələsi olan Mədəniyyət komitəsinin 2022-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatını təqdim edən Qənirə Paşayeva diqqətə çatdırıb ki, ötən müddətdə komitənin 6 iclası keçirilib, 6 məsələyə baxılıb. Komitə sədri həmçinin məlumat verib ki, payız sessiyası ərzində komitənin ünvanına daxil olmuş 681 müraciətə baxılıb və müvafiq tədbirlər görülüb. Eyni zamanda payız sessiyası dövründə komitənin sədri tərəfindən 228 vətəndaş qəbul edilib.

İkinci məsələ olan Mədəniyyət komitəsinin 2023-cü ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsi ilə bağlı komitə sədri bildirib ki, qarşıdakı sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanunvericilik aktlarına, digər sənədlərə baxılması və rəy verilməsi, aidiyyəti qurumlarla dinləmələrin keçirilməsi, habelə "Qeyri-maddi mədəni irsin qorunması haqqında" qanun layihəsinin müzakirəsi nəzərdə tutulub. Eyni zamanda "Kinematoqrafiya haqqında" yeni qanun layihəsinin hazırlanması işi davam etdiriləcək.

Gündəliyin növbəti məsələləri olan 4 qanun layihəsi - "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İctimai iştirakçılıq haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Nəşriyyat işi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Telekommunikasiya haqqında", "İnformasiya əldə etmək haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi, "Lotereyalar haqqında", "Elektron imza və elektron sənəd haqqında", "Ovçuluq haqqında", "Fövqəladə vəziyyət haqqında", "Mühasibat uçotu haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi və "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında", "Torpaq bazarı haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Milli Arxiv Fondu haqqında", "Bələdiyyələrin statusu haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Su təchizatı və tullantı suları haqqında" və "Taxıl haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı komitə sədri bildirib ki, layihələr bir-biri ilə bağlıdır. Belə ki, qanun layihələri "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb və qeyd olunan qanunlarda bir sıra uyğunlaşdırma xarakterli düzəlişlərin edilməsini ("kütləvi informasiya vasitələri", "teleradio" sözlərinin "media", "televiziya və radio" sözləri ilə əvəz edilməsi kimi) nəzərdə tutur.

Müzakirələrdə deputatlar Nizami Cəfərov, Novruzəli Aslanov, Əziz Ələkbərov, Ülviyyə Ağayeva, Ülviyyə Həmzəyeva, Mixail Zabelin, Razi Nurullayev və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər. Deputatlar ötən payız sessiyasında komitənin səmərəli fəaliyyət göstərdiyini qeyd ediblər, qarşıdakı sessiyada komitənin iş planı və Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı təkliflərini səsləndiriblər.

İclasda Mədəniyyət komitəsinin 2022-ci ilin payız sessiyasında görülən işlər barədə hesabatı məqbul sayılıb, komitənin 2023-cü ilin yaz sessiyası üçün iş planı təsdiqlənib, müzakirə edilən qanun layihələri baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

## Macarıstan şirkətlərinin Qarabağın bərpasında iştirakı müzakirə olunub



Macarıstan şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştirakı müzakirə olunub. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

"Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə ölkələrimiz arasında ikitərəfli münasibətlərə töhfə verən təşəbbüslərin əhəmiyyətini vurğuladıq. İqtisadi-ticarət əlaqələrinin təşviqi, Macarıstan şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştirakı və ölkəmizin tranzit potensialından istifadə imkanları barədə müzakirə apardıq", - deyə M.Cabbarov qeyd edib.

## Yaşar Əliyevin Baş katib Antonio Quterreşə ünvanladığı məktub BMT sənədi kimi yayımlanıb

Azərbaycanın BMT-dəki daimi nümayəndəliyinin rəhbəri Yaşar Əliyevin təşkilatın Baş katibi Antonio Quterreşə ünvanladığı məktub Baş Assambleya və Təhlükəsizlik Şurasının sənədi kimi yayımlanıb.



AZƏRTAC xəbər verir ki, məktubda 1990-cı illərin əvvəllərindən başlayaraq Ermənistanın təcavüzü zamanı itkin düşmüş bir neçə min vətəndaşımızın taleyinin müəyyənləşdirilməsində Azərbaycanın göstərdiyi səylər barədə ən son məlumatlar Baş katibin diqqətinə çatdırılıb.

Bildirilib ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın 3890 vətəndaşı, o cümlədən 719 mülki şəxsi itkin düşüb. Bu mülki şəxslər arasında 71 uşaq, 267 qadın və 326 qoca var. Müəyyən edilib ki, 872 nəfər (605 hərbi qulluqçu və 267 mülki şəxs, o cümlədən 29 uşaq, 98 qadın və 112 qoca) əsir və ya girov götürülüb. Sonuncu dəfə bəzilərinin əsirlikdə sağ olduqları məlum olsa da, onların sonrakı taleyi haqqında heç bir məlumat yoxdur. Həmçinin onlarla azərbaycanlı əsir Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələrinin onlara baş çəkməsindən sonra da erməni əsirliyində ölüb və ya itkin düşüb.

2020-ci ilin sonunda işğaldan azad edilmiş Azərbaycan ərazilərində Ermənistan tərəfindən beynəlxalq hüququn kobud və sistemli şəkildə pozulmasının inandırıcı sübutları aşkar edilib. 2021-ci ilin fevralından 2022-ci ilin noyabrına qədər bu ərazilərdəki kütləvi məzarlıqlarda təxminən 118 nəfərin qalıqları tapılıb. Bu insan qalıqları Azərbaycanın mülki əhalisinin və beynəlxalq humanitar hüquqla qorunan digər şəxslərin qəsdən öldürülməsini sübut edir. Kəlbəcər rayonunun Başlıbel kəndi yaxınlığındakı dağ mağarasında aşkar edilmiş kütləvi məzarlıq göstərib ki, Ermənistan silahlı qüvvələri mağarada gizlənən kənd sakinlərini birbaşa atəşə tutub, onlardan azı 12 nəfəri, o cümlədən 2 uşaq və 5 qoca həlak olub.

Xocalı rayonunun Fərrux kəndindəki kütləvi məzarlıqda da uşaq və qadın qalıqları tapılıb. Daha bir qəddarlığın sübutu Xocavənd rayonunun Edilli kəndində aşkar edilmiş, əl-ayaqları məftil və kəndirlə bağlanmış onlarla azərbaycanlının qalıqlarının olduğu kütləvi məzarlıqdır. Bu da onların qısa müddət ərzində öldürülməsindən xəbər verir.

Azərbaycanın işğaldan azad edilmiş digər rayonlarında da kütləvi məzarlıqlar tapılıb.

Ermənistan 30 ilə yaxın müharibə və işğal dövründə itkin düşənlər haqqında məlumat verməkdən və onların taleyini öyrənmək üçün araşdırma aparmaqdan imtina edib.

"Təkcə 2022-ci ildə Ermənistan Azərbaycana 106 nəfərin qarışıq qalıqları olan 67 torba təhvil verib. Ermənistanın bütün əxlaqi prinsiplərə zidd olaraq, beynəlxalq humanitar hüququ pozaraq, insanların öz yaxınlarının taleyi haqqında bilmək hüququna açıq şəkildə məhəl qoymadan bu qalıqları otuz il ərzində saxlaması dərin hiddətə səbəb olmaya bilməz", - məktubda qeyd edilib.

Eyni zamanda diplomat Ermənistanın "hələ də Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki kütləvi məzarlıqlar barədə məlumat verməkdən" yayındığını vurğulayıb. Onun sözlərinə görə, Ermənistanın işğalı zamanı Azərbaycan ərazisinə qoyduğu yüz minlərlə minanın tam və dəqiq xəritələrini təqdim etməkdən imtina etdiyi üçün Azərbaycanın axtarış əməliyyatlarına ciddi mina təhlükəsi də mane olur.

Yaşar Əliyev xatırladıb ki, Baş Assambleya və Təhlükəsizlik Şurası itkin düşmüş şəxslərlə bağlı bir sıra qətnamələr qəbul edərək, dövlətlərin beynəlxalq humanitar hüquq çərçivəsində zorakı itkin düşmələrin qarşısının alınması və itkin düşmüş şəxslərin taleyi haqqında hesabat vermək öhdəliklərini təsdiqləyib: "Bu öhdəliklər qurbanların və onların ailələrinin hüquqlarını qorumaq üçün təcili tədbirlərə çevrilməlidir".

Yekunda Azərbaycan nümayəndəliyinin başçısı qeyd edib ki, beynəlxalq ictimaiyyətin Ermənistanın sözügedən mövzuda öz öhdəliklərini yerinə yetirməsi üçün israr etməsi vacibdir.

# Azərbaycan Qərbin enerji təminatında ən fəal aktorlardandır

## Avropanın ölkəmizin enerji resurslarına marağı getdikcə əhəmiyyətli dərəcədə artır





Azərbaycan həm Avropa İttifaqının, həm də regionda enerji təhlükəsizliyinin formalaşmasında mühüm rol oynayır. Zamanın tələbi olaraq bu rolun getdikcə artdığı müşahidə olunur. Xüsusən Rusiya-Ukrayna müharibəsi fonunda Rusiyaya tətbiq olunan sanksiyalar nəticəsində bu ölkənin Aİ-yə qaz ixracını dayandırması Azərbaycan mavi qazına tələbatı daha da artırıb. Bu baxımdan Aİ Azərbaycanla əməkdaşlığa önəm verir və bu sahədə Azərbaycanı özünə etibarlı tərəfdaş hesab edir.

Prezident İlham Əliyev də yerli televiziya kanallarına müsahibəsində bu məsələyə toxunaraq qeyd edib ki, son illərdə enerji təhlükəsizliyi məsələləri dünya gündəliyində əsas yerlərdən birini tutub. Bu o deməkdir ki, həmin məsələ daim beynəlxalq təşkilatların, ən nüfuzlu müxtəlif beynəlxalq forumların gündəliyində olub və Azərbaycanın neft-qaz sənayesi layihələrini necə reallaşdırması ilə həmişə tərəfdaşlarımızın böyük hörmətini qazanıb. Dövlət başçısı qeyd edib ki, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra, əlbəttə, ola bilsin başqa məsələlər enerji təhlükəsizliyi məsələlərini geridə qoyub və Avropada gündəlikdə birinci yeri tutub: "Bu, izah ediləbiləndir. Əlbəttə, Azərbaycanın enerji resurslarına maraq əhəmiyyətli dərəcədə artıb. Hərçənd bundan əvvəl də belə bir fikir bərqərar olmuşdu ki, Azərbaycan çox ölkələr, o cümlədən Avropa İttifaqının üzvü olan ölkələr üçün etibarlı tərəfdaşdır".

Dövlət başçısı bildirib ki, "Cənub qaz dəhlizi" istifadəyə veriləndən sonra Azərbaycan, o cümlədən Avropa İttifaqı ölkələrinə də qaz ixrac etməyə başlayıb: "Nəzərə alırdıq ki, biz həm "Şahdəniz" yatağından, həm də başqa yataqlardan əlavə hasilat gözləyirik. Məsələn, əgər bütün işlər plan üzrə getsə, bu il "Abşeron" yatağından, gələn il isə əgər yenə, hər hansı fors-major maneələr olmasa, 2024-cü ildə biz "Azəri-Çıraq-Günəşli" yatağından belə adlandırılan "dərin qaz" ("deep gas") hasilatına başlamağı planlaşdırırıq".

### Azərbaycanın Aİ-nin qaz təchizatında bir əsrə yaxın tədarükçü dövlət olacağı şübhəsizdir

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan çoxşaxəli enerji siyasəti yürütməklə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Ötən 15 il ərzində Avropa bazarında neft təchizatçısı kimi etibarlı tərəfdaşa çevrilmiş respublikamız 2020-ci ilin dekabr ayının son günündə "Cənub qaz dəhlizi"nin sonuncu hissəsini - Transadriatik qaz kəmərini (TAP) istifadəyə verməklə Avropa İttifaqının qaz bazarına daxil olub.

Deputat qeyd edir ki, 2021-ci ildə Azərbaycan Avropa regionuna 8 milyard kubmetr, 2022-ci ildə 11 milyard kubmetrdən çox qaz ixrac edib: "Prezident İlham Əliyev ölkəmizin ixracat siyasətinin birbaşa Qərb istiqamətində olduğunu və Avropaya hər il qaz nəqlinin artacağını bəyan etməklə, Aİ-nin enerji təminatında mühüm yer alacağımızı təsdiqləyib. Cənab Prezidentin yerli TV kanallarına müsahibəsində də vurğuladığı kimi, son illərdə enerji təhlükəsizliyi dünya gündəliyində əsas yerlərdən birini tutur və Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Azərbaycanın enerji resurslarına maraq əhəmiyyətli dərəcədə artıb, ölkəmiz Avropanın enerji təminatında həlledici dövlətlərdən birinə çevrilməkdədir".

A. Hüseynov bildirib ki, 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında qaz nəqli sahəsində yeni əməkdaşlıq sazişinin imzalanması yanacağın ixracı üçün yeni fürsətlər yaradır. Aİ ilə razılaşmaya əsasən qarşıdakı illərdə ölkəmiz Avropaya daha böyük həcmdə qaz ixrac edəcək. Proqnozlara əsasən, 2023-2025-ci illərdə ölkəmizin qaz istehsalı 40 faiz artacaq və Avropaya qaz nəql edən TAP kəmərinin illik gücü 20 milyard kubmetrədək artırıla bilər. Bu rəqəmlər və proqnozlar Azərbaycanın qaz potensialını da artıracaq.

Deputat vurğulayır ki, bundan ötrü mövcud qaz kəmərlərinin genişləndirilməsi zəruridir: "Bütövlükdə bu il 24 milyard kubmetrə yaxın qaz ixracı gözlənilir. Buna görə də biz qaz bazarında, o cümlədən Avropa bazarında artıq ciddi aktora çevrilirik. İndi TANAP-ın və TAP-ın ötürücülük qabiliyyətinin iki dəfə artırılması barədə düşünürük".

Onun sözlərinə görə, Azərbaycan Xəzər regionunda kifayət qədər qaz ehtiyatlarına malikdir və təsdiq edilmiş ehtiyatların həcmi 2,6 trilyon kubmetr proqnozlaşdırılır.

"Bu həcm daxili tələbat və ixracla birlikdə ən azı 100 il kifayət edir. Bu baxımdan Azərbaycanın Avropa İttifaqının qaz təchizatında bir əsrə yaxın tədarükçü dövlət olacağı şübhəsizdir. Məsələ ondadır ki, Xəzərin Azərbaycan sektorunda yerləşən "Babək", "Naxçıvan", "Zəfər-Məşəl", "Ümid", "Araz-Alov-Şərq" və "Şəfəq-Asiman" perspektiv strukturlarında proqnozlaşdırılan ehtiyatlar 2,6 trilyondan da çox mənbələrin formalaşmasına əsaslı zəmin yaradır",- deyə deputat əlavə edib.

### Regionda və Aİ-də enerji təhlükəsizliyinin formalaşmasında ölkəmizin töhfəsi artır

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyinin formalaşmasına xüsusi töhfə verən ölkədir. Onun sözlərinə görə, 2020-ci ilin son günlərindən etibarən Azərbaycan mavi qazını Avropa İttifaqı bazarına çıxarır. Ötən müddətdə 24 milyard kubmetr qazın Avropaya nəql edildiyini deyən deputat qeyd edib ki, yalnız 2022-ci ildə Avropaya ixrac edilən qazın həcmi 12 milyard kubmetrə yaxın olub. Bu da ondan xəbər verir ki, Aİ-nin enerjiyə olan tələbatının ödənilməsində rolunun artması və bütövlükdə regionda enerji təhlükəsizliyinin formalaşmasında ölkəmizin töhfəsi artır.

Vüqar Bayramov deyib ki, Azərbaycan eyni zamanda Gürcüstan və Türkiyənin enerjiyə olan tələbatının ödənilməsində xüsusi paya malikdir: "Cənab Prezidentin də qeyd etdiyi kimi, 10 ölkə Azərbaycan mavi qazını almaqla bağlı artıq danışıqlar aparır. Onların bir qismi qazın həcminin artırılması, bir qismi isə mavi qaz almaqla bağlı danışıqlara başlayıb".

Deputat vurğulayıb ki, ötən il Yunanıstan-Bolqarıstan interkonnektorunun istifadəyə verilməsi Azərbaycan qazının Şərqi Avropaya çıxmasına imkan yaradıb. İnterkonnektorun ötürmə qabiliyyəti 3.5 milyard kubmetrdir və onun 5 milyard kubmetrə qədər artırılması nəzərdə tutulur. Bu isə ondan xəbər verir ki, Azərbaycan Bolqarıstan da daxil olmaqla, bir sıra Şərqi Avropa ölkələrinin enerji təhlükəsizliyinin formalaşmasına xüsusi töhfə verəcək. Artıq bu ildən Rumıniya Azərbaycan qazını idxal edir. Birinci rübdə Rumıniyaya 400 milyon kubmetr mavi qaz nəql olunacaq. Bolqarıstan 1,5-2 milyard kubmetr qaz almaq niyyətindədir. Eyni zamanda Serbiya, Moldova ilə də qaz nəqli ilə bağlı danışıqlar davam edir.

Vüqar Bayramov bildirib ki, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu artıb, regiondakı geosiyasi mövqeyi güclənib, bu da Azərbaycan üçün yeni imkanlar deməkdir: "Ölkəmiz regional təhlükəsizliyin artmasına da imkan yaradır. Bu da təbii ki, Azərbaycanla Avropa İttifaqı arasındakı iqtisadi əməkdaşlığın dərinləşməsinə gətirib çıxarır. Aİ Azərbaycanın ümumi ticarət dövriyyəsində ixracatın 50 faizini təşkil edir. Bu kontekstdən enerji sahəsində əməkdaşlıq Azərbaycanla Aİ arasında ticarət dövriyyəsinin daha da artmasına imkan yaradacaq".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İlham Əliyevin strateji təşəbbüslərinə qlobal dəstək

Yeni başlayan "Heydər Əliyev İli" dövlət başçımızın dəvət edildiyi mötəbər və nüfuzlu beynəlxalq tədbirlərdə yüksək fəallığı ilə müşahidə olundu. Prezident İlham Əliyev yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında dünyanın 150 ölkəsindən 30 minədək nümayəndənin iştirak etdiyi "Əbu-Dabi Dayanıqlılıq Həftəsi"nin rəsmi açılış mərasimində çıxış etdi.




Qlobal əməkdaşlıq və liderlik, iqtisadiyyat və innovasiya sahəsində dayanıqlı inkişafı hədəfləyən beynəlxalq platformadan Azərbaycanın strateji hədəflərini bəyan etdi. Daha sonra Prezident Davosda eyni gündə başlayan Dünya İqtisadi Forumunda iştirak etdi. Dövlətimizin başçısı burada çoxsaylı görüşlər keçirməklə yanaşı, "Avrasiya Orta dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında çıxış etdi.

Azərbaycan öz müstəqilliyini Dünya İqtisadi Forumunun 20-ci dəfə keçirildiyi ildə bərpa edib. Son iki onillikdə Azərbaycan Davosa mötəbər dövlət kimi fasiləsiz olaraq dəvət edilən təktük ölkələrdəndir. Xatırladaq ki, 2013-cü ildə Dünya İqtisadi Forumunun yekun tədbiri də Azərbaycanda keçirilib.

Prezidentin Davosda iştirak və görüşlərinin, çıxışlarının sadəcə xronikası, Azərbaycanın haradan-haraya gəlməsinin canlı ifadəsi, ölkəmizin inkişafı, "dünya siyasi-iqtisadi Olimpin" adını alan nüfuzlu platformada siyasi liderimizin baxış və təşəbbüslərinin dinlənilməsinə olan ehtiyacı göstərir.

Dünyanın 130 ölkəsindən 54 prezidentin, 200 nazirin, rekord sayda - 1500-dən çox iş adamının, 2700 nəfər çıxış üçün dəvət olunmuş siyasi liderlərin və dövlət xadimlərinin qatıldığı forum pandemiyanın yaratdığı fasilədən sonra ilk dəfə görünməmiş miqyas və iştirakçı sayı ilə baş tutdu. Təsis edildiyi 1971-ci ildən başlayaraq, Avropanın siyasi, iqtisadi, biznes və innovasiya elitasının zirvə görüşü kimi tanınan Dünya İqtisadi Forumu rəsmi beynəlxalq təşkilat statusunda və beyin mərkəzi formatında olmaqla yanaşı, ən yeni tarixin həm də olduqca mühüm bir parçasıdır.

Yaranmasından üzü bəri forum, qlobal "geosiyasi zəlzələ" effektli bir çox çağırış və hadisələrə: SSRİ-nin dağılması, "Soyuq müharibənin "başlaması", Almaniyanın birləşməsi, 11 sentyabr hadisəsindən sonrakı sivilizasiyaların toqquşması, 4-cü sənaye inqilabı dalğasının doğuluş və yüksəlişi, qlobal iqlim, miqrasiya böhranı və sairə hadisələrə şahidlik edib. Bu problemlərin qaynar müzakirə edildiyi qlobal platforma kimi forum çox böyük nüfuz qazanıb. Təşkilat bir-birini əvəzləyən siyasi formasiya və geosiyasi fazaların tarixi mərhələ və perspektivlərinin dərin təhlilində böyük təcrübəyə malikdir. Yenicə başa çatan builki forumda da Avropanın mərkəzində başlayan, dünyanın siyasi və iqtisadi xəritəsini dəyişəcək, mövcud dünya nizamının laxlaması və yenisinin yaranmasına işarə edən fəlakətli müharibənin təkan verdiyi yeni geosiyasi fazanın çağırışları əsas gündəmi təşkil edib.

Azərbaycan son onilliklərdə dünya siyasi-iqtisadi Olimpinə davamlı olaraq dəvət alan dövlətlər sırasındadır. Xatırladaq ki, Dünya İqtisadi Forumu həm də Qlobal Rəqabətədavamlılıq Reytinqi ilə bağlı hesabatlar hazırlayır və burada inkişaf edən ölkələrin mənzərəsi daha dərin şəkildə öz əksini tapır. Azərbaycanın inkişafı bu reytinqlərdə daim irəliləyən göstəricilərlə əksini tapıb.

"Davos- 2023" öz qlobal deviz-şüarını "Parçalanan dünyada birlik, əməkdaşlıq" kimi müəyyən etmişdi. Müstəqilliyin bərpa edilməsindən üzü bəri Azərbaycan da məhz region və dünyada qarşılıqlı birgə əməkdaşlığa, ortaq faydalara və ümumi inkişafa hədəflənən geoiqtisadi strategiyanı həyata keçirir.

Davos Forumundakı müzakirələrdə ən çox eşidilən söz - neologizm "çoxşaxəli böhran" (policrisis, multicrisis) oldu və dünya gündəmini təşkil etdi. Bu tip böhranların qloballaşan dünya iqtisadi bazarında zəncirvari xarakterli olan bütün ölkələrə sirayət etməsi ilə fərqlənir. Ukraynadakı müharibə səbəbindən dünyada ərzaq böhranı və həyat-yaşam dəyərinin getdikcə bahalaşması, sadəcə, böhran deyil, polikrizisdir. Əsas müzakirə mövzusu da böhrandan çıxış yolu axtarışları ətrafında idi. Təsadüfi deyil ki, forumda "Yol" sözü bütün səviyyələrdəki panellərdə qırmızı xətt kimi keçirdi.

"Coğrafiya - taledir" deyimi XXI əsrdə də sübutunu tapmaqda, yol və məkanlar dünya geosiyasətinin təməl faktoru olaraq qalmaqdadır. Bununla belə Azərbaycanın uğurunun, qlobal təşəbbüslərinin başlıca sirri yalnız coğrafiya deyil, qovşaq məkanı region və dünya ölkələrinin ortaq əməkdaşlıq və fayda mərkəzinə çevirən cəlbediciliyi təmin etməsindədir. Bu uğurun arxasında - bu günümüzü onillərlə əvvəl görən siyasi lider, milli iqtisadi inkişaf infrastrukturunu formalaşdıran və nəhayət, bu gün onu dünyanın birgə əməkdaşlığının təməlinə və yeni dünya düzəninə aparan ortaq çıxış yoluna çevirə bilməsindədir. Məhz buna görədir ki, ölkənin dəniz limanlarının və yollarının yaradılması, dəhlizlər diplomatiyası, dəmir yollarının, inkişaf etmiş milli hava limanı şəbəkəsinin yaradılması əvəzsiz əhəmiyyətə malik olub.

Nəqliyyat, digər infrastruktur sahələri ilə yanaşı, sosial, iqtisadi, xarici siyasət məqsədlərinə çatmaq üçün mühüm vasitə olmaqla, cəmiyyətin həyati vacib ehtiyacını təmin edir. Tarixən yolların və daşımaların inkişafı Azərbaycanın iqtisadi və məkan inkişafını əvvəlcədən müəyyənləşdirdi, onun bütövlüyünün və beynəlxalq təsirinin güclənməsinə kömək etdi.

Dövlət başçımızın enerji və resurslar nəql edən, bütün iştirakçı ölkələrə ortaq fayda gətirə bilən yeni regional konfiqurasiyanı yaratmaq təşəbbüsünə qlobal dəstək verilməsi yalnız bu günün nəticəsi deyil. Müstəqillik illərində Azərbaycanın enerji-nəqliyyat dəhlizləri dövlətimizin milli maraqlarını həyata keçirmək, dünya iqtisadi sistemində ölkənin layiqli yerini təmin etmək yönündə coğrafi geosiyasi xüsusiyyətləri özünün rəqabət üstünlüyünə çevirmək kimi müəyyən edilib, həyata keçirilib. Ekspert hesablamalarına görə, istənilən ölkənin logistik potensialından düzgün istifadə edilməməsi itirilmiş mənfəət deməkdir və milyardlarla rəqəmlərlə ölçülür. Bu elmi həqiqətin düzgünlüyünə əmin olmaq üçün, sadəcə, Ermənistan dövlətinin on illərlə bütün kommunikasiya layihələrindən təcrid olunmasını yada salmaq kifayətdir.

Təsadüfi deyil ki, müasir nəqliyyat logistika dəhlizləri - innovativ həllərin tətbiqi üçün poliqon-sınaq meydançasıdır. Perspektivli yeniliklərin lideri kimi dəmir yolu nəqliyyatı ən təhlükəsiz və ən intensiv inkişaf edən nəqliyyat növü hesab edilə bilər. Azərbaycan üçün bu kommunikasiya dəhlizinin inkişafı təkcə iqtisadi-coğrafi xüsusiyyətlərlə deyil, mövcud qlobal dəhlizlər və tranzit potensialının reallaşdırılması sahəsində malik olduğu, uzun illər düşünülmüş şəkildə yaradılan infrastruktur və imkanlarla bağlıdır.

Yanvarda sözügedən beynəlxalq platformalarda dövlət başçımızın enerji və resursların nəqlinin yeni arxitekturasını yaratmaq yönündə təşəbbüslərinə dəstək verilməsi əlamətdar hadisə oldu. Azərbaycan Prezidentinin ötən ilin noyabrında "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusundakı beynəlxalq konfransda ətraflı bəyan etdiyi təşəbbüs, yanvarın 19-da Davosda panel müzakirələrinə daşındı.

Azərbaycandan keçən, bu prosesin məhvəri-median oxu kimi çıxış edən Orta dəhliz yeni dünya düzəninin qarşılıqlı fayda əsasında formalaşmasına töhfə verə bilən nəhəng logistik karkas kimi çıxış edir. Çünki Orta dəhliz təkcə iqtisadi-ticari inkişaf yolu olmayıb, qədim fəlsəfi mahiyyətinə görə, "qızıl orta yol" adlanan sülh, ədalət və birlikdə inkişafın simvoludur.

Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrut - "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi" adı ilə də tanınan Orta dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın iştirakı ilə yaradılıb, sonra genişlənərək Ukrayna, Rumıniya və Polşanı da əhatə edib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta dəhliz - Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, daha sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Orta dəhliz həm də yüklərin Çində Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan sayılır.

Ümummilli Lider Heydər Əliyevin neft strategiyası ilə sinxron-qoşa inkişaf edən nəqliyyat logistik arteriyaların tarixi istiqaməti - hədəfi, bütün yollar Qarabağın işğaldan azad edilməsinə, məhz Orta dəhlizə - Zəngəzura gətirməli idi. Prezident İlham Əliyevin geosiyasi fəhmi və 44 günlük Vətən müharibəsində qazanılan misilsiz hərbi zəfər - Avropa və Asiyanı birləşdirəcək yolu cəmi 40 kilometrə, Zəngəzura qədər qısaltdı. Orta dəhlizin təməl mərkəzi kimi Zəngəzur layihəsini gerçəkləşdirməyə yaratdığı tarixi fürsət əksini tapıb.

Zəngəzur dəhlizinin həyata keçirilməsinin milli regional və qlobal müstəvilərdə əhəmiyyəti ölçüyəgəlməzdir. Məhz Zəngəzurda nəqliyyat-kommunikasiya yollarının açılması Orta dəhlizin şaxələnməsinin qlobal və regional və lokal marşrutlarının sintezini məntiqi sonluğuna çatdırır. Qlobal logistik konfiqurasiyanı yeni - daha çox ölkələrə, bütün regiona qarşılıqlı fayda gətirən formada şəkilləndirir. Orta dəhliz təməlində faydalı əməkdaşlıq dayanan geosiyasi praqmatizmin, Zəngəzur dəhlizi isə Azərbaycanın yeni dünya düzənində strateji geosiyasi qütbə çevrilməsinin nümayişinə çevrilir.

Davos Forumunda bu istiqamətdə ilk konkret addım atıldı. Prezident İlham Əliyev Azərbaycan Asiya və Avropa ölkələrini Xəzər və Qafqaz vasitəsilə birləşdirən Orta Nəqliyyat Dəhlizi layihəsinin təşviqi və yük daşımalarının artırılması üçün "Dəhlizin rəhbər komitəsinin" təsis olunmasını təklif edir: *"Bütün iştirakçı ölkələrin - Mərkəzi Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə, avropalı tərəfdaşların daxil olduğu rəhbər komitə, bir növ idarə heyəti, o cümlədən bütün nəqliyyat infrastrukturu yaradılmalıdır".*

Zəfər tarixini yaşayan xalqımız paradoksal tarixi proseslərə şahidlik edir. Bir zamanlar Azərbaycan dünya nəqliyyat sisteminə inteqrasiya olunurdu. Hazırda isə artıq əks istiqamətli prosesin - Avropa və Asiya qitələrinin Azərbaycanın onillər əvvəl uzaqgörənliklə yaratdığı logistik-kommunikasiya sisteminə inteqrasiyasından danışa bilərik. Beləliklə, Azərbaycan müstəqillik illərində dünyanın logistik inkişaf tendensiyaları ilə nəinki ayaqlaşıb, onları əhəmiyyətli dərəcədə önləməyə qadir strateji təşəbbüslərlə çıxış edib. Nəticələrdən biri də budur ki, Orta Yol, həm də Azərbaycanda tarixi torpaqlarına, Qarabağın işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışın magistral yoluna çevrilir.

İlham Əliyevin xalqımızı birləşdirən, ərazilərimizi bütövləşdirən, regiona yalnız sülh və inkişaf gətirən geosiyasi missiyası, indi də ayrı-ayrı qitələri, parçalanmış dünyanı birləşdirməyə həyati ehtiyac duyan qlobal Davos Forumunun gündəmində diqqət mərkəzinə gəldi. Beynəlxalq platformada dünyanın onillərlə davam edən ikili standartlar və hegemonluq siyasətinin nəticəsində özünün gəlib çıxdığı təhlükəli yolayrıcında nəzərlər Orta dəhlizə - Azərbaycana, Zəngəzura yönəlir. Parçalanan dünyada əməkdaşlıq - onu birləşdirmədən qeyri-mümkündür. Birləşdirmək, ortaq fayda gətirmək, bütün ölkələrin ortaq bəhrələndiyi inkişaf yoluna - Orta dəhlizə dəvət İlham Əliyevin "Heydər Əliyev İli"ndə labüd gerçəkləşəcəyi missiyasıdır!

***Tahirə ALLAHYAROVA,***
***professor, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü***

# "Şuşa ili"nə həsr olunmuş qrant müsabiqəsinin yekunlarına dair mətbuat konfransı

Yanvarın 24-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi "Şuşa ili"nə həsr olunmuş qrant müsabiqəsinin yekunlarına dair mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, konfransda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin məsul əməkdaşı Rahu Şirinova, agentliyin icraçı direktoru Aygün Əliyeva, Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və Kommunikasiya şöbəsinin müdiri Pərvin Məmmədova, "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsinin qalibləri, layihə rəhbərləri, media nümayəndələri və bloqçular iştirak ediblər.

Konfrans şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra agentliyin icraçı direktoru Aygün Əliyeva mətbuat konfransının məqsədi haqqında məlumat verib və bildirib ki, Azərbaycanda 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamından irəli gələrək ötən il agentlik "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsini elan edib. Qrant müsabiqəsinə 227 qeyri-hökumət təşkilatı tərəfindən layihə təqdim olunub, onlardan 22 QHT layihəsinin maliyyələşdirilməsi haqqında agentliyin Müşahidə Şurası qərar qəbul edib. Qalib gələn layihələrin əsas qayəsində Şuşanın tədqiqinə həsr olunmuş layihələr, eyni zamanda bloqçuların, müxtəlif beynəlxalq tədbirlərin iştirakçılarının Şuşa şəhərinə səfərlərinin təşkili, orada düşərgələrin keçirilməsi olub. Həmçinin xarici ölkələrdə "Şuşa ili"nə həsr olunmuş müxtəlif formatlı tədbirlərin, elmi konfransların keçirilməsi və təbliğat xarakterli işlərin görülməsi əks olunub. Bu gün təşkil edilən mətbuat konfransının əsas məqsədi həmin layihələr çərçivəsində görülən işləri medianın diqqətinə çatdırmaqdır.

Daha sonra "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsinin nəticələri haqqında film təqdim olunub.

Təqdimatdan sonra "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsinin qalibləri, layihə rəhbərləri icra olunmuş layihələrlə bağlı jurnalistlərin suallarını cavablandırıblar.

Suallardan sonra çıxış edən Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin məsul əməkdaşı Rahu Şirinova deyib: "Şuşa ili"nə həsr olunmuş layihələrin miqyası sosial media seqmenti üzrə də monitorinq edilmiş və layihələr barədə məlumatlar, paylaşımlar, Qarabağ - Şuşa məkanının sosial medianın müxtəlif platformalarda dünya trendinə çıxdığı xüsusi proqramlar vasitəsilə təsdiqlənib. Layihələrin nəticələri müsbət qiymətləndirilib.

Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və Kommunikasiya şöbəsinin müdiri Pərvin Məmmədova layihə qaliblərinin Qarabağ Dirçəliş Fonduna ianə etmələrini müsbət hal kimi qiymətləndirərək bildirib ki, bu təşəbbüsün dəstəklənməsi, həyata keçirilməsi doğma Qarabağımızın yenidən bərpasına xidmət edəcək. "İnanıram ki, vətəndaş cəmiyyətinin nümayəndələri bu prosesdə yaxından iştirak etməklə Qarabağımızın bərpası prosesinə öz töhfələrini verəcək", - deyə Pərvin Məmmədova vurğulayıb.

Daha sonra QHT-lərə Dövlət Dəstəyi Agentliyinə Qarabağ Dirçəliş Fondu tərəfindən ianə sertifikatı təqdim olunub.

Mətbuat konfransına şəhid övladlarının ifasında "Qəhrəman övladıyıq" kompozisiyası ilə yekun vurulub.

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Aksiya başlayandan Laçın yolundan 980-dən çox nəqliyyat vasitəsi keçib





45 gündür ki, Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində azərbaycanlı gənclər fasiləsiz etiraz aksiyası keçirirlər.

Qarda, şaxtada, tufanda bir qrup vətənpərvər gənc Ermənistanın işğal dövründə tarixi abidələrini, yaşayış binalarını, məsçidlərini dağıdıb viran qoyduqları Şuşada etiraz aksiyası keçirirlər. Aksiyanın keçirilməsinə səbəb isə ermənilərin, bütün dünyanın beynəlxalq hüquqa əsasən tanıdığı tarixi torpaqlarımızda təbii sərvətlərimizin qanunsuz istismar edilərək işğalçı ölkəyə daşınması idi. Azərbaycan torpaqlarının ekoloji fəlakət zonasına çevrilməsi, təbiətimizin məhv edilməsi olub.

Bu gün Şuşada aksiya keçirən vətənpərvər gənclər ilk gündən çox sadə bir tələb irəli sürüblər: "Ermənilərin qanunsuz istismar etdikləri "Qızılbulaq" və "Dəmirli" mədənlərində qazıntı işləri dayandırılsın, azərbaycanlı mütəxəssislərə həmin yataqlarda monitorinq aparmaq üçün şərait yaradılsın". Bu, olduqca sadə, siyasi konyunkturdan uzaq, yerinə yetirilməsi mümkün olan bir tələbdir.

Xatırladaq ki, Rusiya sülhməramlılarının komandanı Andrey Volkovun aksiya başlamamışdan öncə azərbaycanlı mütəxəssislərlə, ekofəallarla görüşüb qanunsuz istismar olunan yataqlarda monitorinq aparmaq istəyən mütəxəssislərə əraziyə baxış keçirmək üçün şərait yaradılacağına söz versə də, sonradan müxtəlif bəhanələrlə sözünü tutmaması vəziyyəti bir qədər də gərginləşdirdi. Nəticədə vətənpərvər gənclik haqlı olaraq dinc aksiyaya başladı.

Ermənilərsə dərhal məkrli niyyətlərini işə salıb yaranmış vəziyyətdən siyasi məqsədləri üçün istifadə edir, yalandan "blokadada"olmaları barədə hay-küy salıb, Xankəndidə və ermənilərin yaşadıqları ətraf ərazilərdə "humanitar böhran" görüntüsü yaratmaq üçün dondan-dona girdilər. 44 günlük Vətən müharibəsi zamanı Cənubi Qafqazda mövqelərini itirmiş Fransa isə əlinə fürsət düşdüyünü düşünərək ölkəmizə qarşı başladığı məkrli niyyətini işə saldı. Ermənistanla birləşərək məsələni BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxardılar. Amma istədiklərinə nail ola bilmədilər. Dövlətimizin dostları Ermənistanın və Fransanın məkrli planlarının qarşısını aldılar. Məsələ burasındadır ki, iş bununla bitmədi. Ekofəalların dinc etiraz aksiyası ermənilərin maliyyələşdirdiyi, erməni lobbisinin təsiri altında olan bəzi beynəlxalq təşkilatların, medianın gündəminə çevrildi. Nə qədər qəribə səslənsə də, haqlı olduğumuz halda bizi haqsız duruma salmağa cəhdlər göstərilir.

Beynəlxalq təşkilatlar, dünyanın böyüklü-kiçikli dövlətləri yaxşı bilirlər ki, Qarabağ Azərbaycandır. BMT Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır. Lakin qəribə idi ki, Ermənistanın vaxtilə işğal etdiyi Azərbaycan ərazilərindən qoşunlarını çıxarmaq üçün 4 qətnamə qəbul etsə də, qətnamələrinin icrası üçün heç bir əməli addım atılmırdı.

Ermənistan yenə də təxribatlarla məşğul olur, minaladığı ərazilərin xəritəsini vermir, dünya birliyi, beynəlxalq təşkilatlar isə səslərini çıxarmırlar. Ermənilərə humanitar məqsəd üçün verilmiş Laçın yolu ilə hər gün Qarabağa silah-sursat daşınır, ərazilərimiz minalanır, insanlar mina terrorunun qurbanı olurdu, Ermənistana yenə də "etmə" deyən olmur. Ermənistan üzərinə götürdüyü öhdəlikləri icra etməkdən nümayişkaranə surətdə yayınır, sülh danışıqlarını pozur, yenə Ermənistana dinən olmur. Amma bir qrup gənc heç kimə mane olmayan , heç bir zorakılıqla müşayiət olunmayan dinc aksiya keçirir, dərhal bunun adı "humanitar böhran", "blokada" qoyulur. Halbuki aksiya başlayan gündən bəyan edilib ki, yol humanitar məqsədlər üçün istifadəyə açıqdır. Prezident İlham Əliyev ABŞ-nin Dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı Laçın-Xankəndi yolunda hər hansı blokadanın olmadığını qeyd edərək bildirib ki, 2022-ci il 12 dekabr tarixindən etibarən 980-nə yaxın nəqliyyat vasitəsi bu yoldan sərbəst istifadə edib. Dövlət başçısı yoldan keçən avtomobillərdən 850-dən çoxunun Rusiya sülhməramlılarına, 120-dən artığının isə Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus olduğunu qeyd edib. Eyni zamanda Azərbaycan Prezidenti Qarabağda yaşayan 90-a yaxın xəstə və tibbi yardıma ehtiyacı olan şəxsin Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəsilə Ermənistana aparılmasının təmin edildiyini vurğulayıb. Prezident İlham Əliyev bildirib ki, bütün bunlar Laçın-Xankəndi yolunun Azərbaycan tərəfindən bağlanmadığını göstərir.

Yeri gəlmişkən, burada bir məsələyə toxunmağı da vacib hesab edirik. Məlumdur ki, yoldan istifadə edən Rusiya sülhməramlılarının avtomobilləri ilə Xankəndiyə ərzaq daşınır. Bu haqda Rusiya sülhməramlılarının açıqlama verməsini heç gözləmirik də. Qarabağda yaşayan ermənilər adi qrip olduqda, başları ağrıdıqda belə, çox asanlıqla Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə Ermənistana gedə bildiklərini bütün dünya görür və bilir. Bəs nədən indiyə kimi bu "humanist" missiyanı həyata keçirən təşkilat Xankəndidə və ermənilərin yaşadıqları ətraf ərazilərdə hər hansı humanitar böhranın olmaması və ya dərman, tibbi ləvazimatın çatışmaması barədə deyilənlərin həqiqəti əks etdirmədiyi barədə bir açıqlama vermir? "Müdrükcəsinə" susmaqla erməni yalanlarına ortaq olur.

Həqiqət budur ki, vətənpərvər gənclərin keçirdikləri etiraz aksiyası hər hansı böhran yaratmayıb. Böhran Cənubi Qafqazı öz nüfuz dairəsinə salıb, itirilmiş mövqelərini bərpa etmək istəyənlərin şüurunda, düşüncəsində baş verir. Bu yolla Azərbaycana təsir edə biləcəklərini düşünənlərin ağlında, məntiqində baş verir. Rusiya-İran-Qərb üçbucağı arasında vurnuxan Ermənistanda siyası böhrandır. Hara gedəcəyini, kimdən mədət umacağını bilmir. Azərbaycan öz üzərinə götürdüyü bütün öhdəliklərə və prinsiplərinə sadiqdir və buna da dəqiqliklə əməl edir.

Yaxşı olar ki, Azərbaycana təyziq etmək istəyən, Ermənistanın və Fransanın Azərbaycana qarşı qarayaxma kampaniyasına qoşulan bəzi dövlətlər və Avropa Parlamenti "dostları" Ermənistana müraciət etsinlər ki, azərbaycanlı mütəxəssislərin, ekoloqların mədənlərdə monitorinq aparmaları üçün şərait yaratsınlar. İmza atıb üzərilərinə götürdükləri öhdəlikləri yerinə yetirsinlər. Ermənilərə anlatsınlar ki, uydurduqları "böhrandan" çıxmağın yeganə yolu beynəlxalq hüquqa və yaşadıqları ölkənin qanunlarına əməl etməkdən keçir.

Biz aksiya keçirən gənclərlə əlaqə saxlayıb onların fikirlərini də öyrəndik.

Aksiya iştirakçısı Sərxan Hümmətli bizimlə söhbəti zamanı dedi ki, "bu gün 45 gündür şaxtalı, qarlı havada fasiləsiz olaraq aksiya keçiririk. Çox sadə bir tələbimiz var: "Torpaqlarımızda ermənilərin talançılığına son qoyulsun, qanunsuz istismar olunan mədənlərdə monitorinq aparılmasına şərait yaradılsın". Ermənilərin hansı "yaxşı" əməlinə görə biz qanuni, haqlı tələbimizdən geri çəkilməliyik. Bəlkə təbii sərvətlərimizi talan edən, Qarabağı fəlakət zonasına çevirən, bir milyondan çox insanımızın hüquqlarını pozan ermənilərə indiyə kimi törətdikləri vəhşiliklərə görə bir "sağ ol" da deyək? Qərarımızda qətiyik. Tələblərimiz yerinə yetirilənə kimi etiraz aksiyamızı davam etdirəcəyik.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Ermənistan ordusunda xaos böyüyür

## 15 hərbçinin ailə üzvləri əsgərlərin yanğın nəticəsində öldüklərinə inanmayaraq üsyana qalxıblar

Sosial-iqtisadi tənəzzülü geniş vüsət alan Ermənistanın silahlı qüvvələri də olduqca acınacaqlı vəziyyətə düşüb. Ümumiyyətlə, buradakı durum erməni ordusunda qanunsuzluqların hökm sürdüyünü, korrupsiya və rüşvətxorluğun getdikcə daha geniş miqyas aldığını göstərir.

Bunu sübut edən faktların sayı isə artmaqdadır. Məsələn, elə bu günlərdə Basarkeçər rayonunun Azad kəndində "N" saylı hərbi hissənin mühəndis-istehkam bölüyünün kazarmasında yanğın baş verməsi, nəticədə 15 hərbçinin ölməsi, 6 əsgər və 1 zabitin yaralanması erməni ictimaiyyətində orduya inamsızlığı daha da artırıb.

Hadisəyə görə, Ermənistan silahlı qüvvələrinin ikinci ordu korpusunun komandiri polkovnik Vahram Qriqoryan və digər zabit heyəti işdən çıxarılıb. Ermənistan vətəndaşları İrəvanda hökumət binası yaxınlığında aksiya keçirib. Aksiya zamanı iştirakçılar hərbi hissədə baş verən yanğına görə məsuliyyət daşıyanların cəzalandırılmasını tələb ediblər. Hərəkatın liderlərindən biri bəyan edib ki, Ermənistanın baş naziri Nikol Paşinyan əsas məsul şəxsdir, ikincisi isə müdafiə naziri Suren Papikyandır.

Ölən 15 hərbçinin valideynləri övladlarının yanğın nəticəsində öldüyünə şübhə edirlər. Bu barədə "Hraparak" qəzetinin hazırladığı araşdırmada bildirilib. Rüstəm Asryan adlı hərbçinin atası Artak iddia edib ki, əsgərlər yanğın baş verənədək zəhərlənərək öldürülüblər: "Yanğın baş verəndə onlar ölü imiş". Onun sözlərinə görə, kazarma köhnə olduğu üçün qapısını bir neçə nəfər asanlıqla qıra bilərdi. Əsgərin anası Vard Asryan da oğlunun yanaraq öldüyünə inanmadığını deyib. O, oğlunu qolundakı tatudan tanıyıb.

Məlumata görə, Ermənistan İstintaq Komitəsi 15 hərbçinin ölümü ilə əlaqədar sənədləri Müdafiə Nazirliyindən götürüb. Hadisənin baş verməsindən 5 gün keçməsinə baxmayaraq, heç kimə qarşı ittiham irəli sürülməyib. Bildirilib ki, hadisə ilə əlaqədar 20 nəfər dindirilib.

Göründüyü kimi, orduda cinayətlərin sayının artması vəziyyətin daha da acınacaqlı hala gəldiyini göstərir. Orduda özünü qabarıq göstərən neqativ hallardan biri də oğurluq, silah və sursatların detallarının sökülərək satılmasıdır. Elə bu yaxınlarda qeyd edilənlərlə bağlı Ermənistan silahlı qüvvələrinin hərbi hissələrindən birində daha bir insident baş verib. "4rd.am" saytı yazır ki, "İqla" daşınan zenit-raket kompleksinin qida blokunu oğurlayıb satmaq istəyən əslən yezidi kürdü olan Valodya Sloyan adlı hərbi qulluqçu saxlanılıb. Ələ keçdiyini görən Sloyan kompleksin qida blokunu yararsız hala salmağa nail olub.

İlkin araşdırma zamanı blokun xarab olduğunu və təmir etdirmək üçün götürdüyünü deyən Sloyan sonradan komandirin tapşırıqlarını yerinə yetirmək üçün pul lazım olduğundan qida blokunu satmaq məcburiyyətində qaldığını bildirib. Amma bu hal çoxsaylı faktlardan yalnız biridir. Maddi təminatları daha da pisləşən hərbçilərin oğurluq etməsi halı çoxalır və rəhbərlik indi bunun qarşısını almaqda acizdir.

Ermənistanda ordu ilə bağlı özünü qabarıq göstərən problemlərdən biri də odur ki, hərbi xidmətə gedən gənclərin sayı kütləvi surətdə azalır. Bu sahə üzrə apardığı araşdırma zamanı erməni jurnalist Manvel Markaryan da maraqlı faktlar üzə çıxarıb. O bildirib ki, bu gün erməni gənclər hərbi xidmətə getməmək üçün ölkədən qaçırlar.

Erməni jurnalist yazır ki, son illərdə hərbi komissarlıqlar orduya çağırışla bağlı ciddi çətinliklərlə üzləşib: "Respublika çağırış komissiyasındakı mənbədən əldə etdiyimiz məxfi informasiyaya görə, son dövrlər saxta sağlamlıq vəziyyətinə görə orduya getməyənlərin sayı artmaqla yanaşı, hərbi xidmətə getməmək üçün ölkədən qaçan gənclərin də sayı sürətlə çoxalır. Valideynlər böyük məbləğdə pul verərək övladlarını hərbi xidmətdən yayındırırlar. Bütün bunlara səbəb isə kasıbların övladlarının Azərbaycanla sərhəd olan yerlərə göndərilməsi və orada ölməsidir. Misal üçün, ötən ilin sentyabrında baş verən döyüşlərdə Henrix Minasyan öldü. Bundan sonra onun anası Anait Minasyan ikinci oğlunu - Artunu hərbi xidmətə göndərməkdən imtina etdi. Çünki ailəni o dolandırır".

Erməni mediası yazır ki, əslində, övladlarını hərbi xidmətdən saxlayan belə valideynlərin sayı kifayət qədər çoxdur. Həmin valideynlərin mövqeləri isə cəmiyyət tərəfindən tam dəstəklənir. Çünki erməni ordusu cəmiyyətdə qanunsuzluq, cinayətkarların yuvası kimi tanınır.

Bu vəziyyətdə valideynlər üçün ən yaxşı çıxış yolu övladlarını orduda xidmətə göndərməkdən yayındırmaq, mümkün olduğu halda onları ölkə xaricinə qaçırmaqdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# *QMİ:* "İsveçdə "Qurani-Kərim"ə qarşı həqarət insanların əqidəsinə qarşı törədilən mənəvi cinayətdir"

Qafqaz Müsəlmanları İdarəsi İsveçdə "Qurani-Kərim"in yandırılması ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsi yanvarın 21-də Stokholm şəhərində İsveç dövlətinin rəsmi icazəsi və himayəsi altında ultra-sağçı "Sərt xətt" partiyasının başçısı, habelə Niderlandda "Pegia" qrupunun lideri tərəfindən "demokratiya və ifadə azadlığı" şüarı altında islam dininə, onun mübarək Peyğəmbərinə (s), "Qurani-Kərim"ə, bütün müsəlmanlara qarşı törədilmiş həqarət aktlarının birmənalı olaraq nifrətə çağırış, insanların əqidəsinə və ləyaqətinə qarşı törədilən mənəvi cinayət olduğunu bəyan edib.

Bildirilib ki, insan hüquqlarına, ləyaqətinə, millətlər və dinlər arasında qarşılıqlı ehtirama əsaslanan ədalətli, sülhsevər cəmiyyətlərin qurulması yolunda səylər göstərildiyi bir zamanda dünyada artmaqda olan islamofobiya təzahürləri, islamı və müsəlmanları hədəf alan nifrət çağırışları və təhqir əməlləri bizim hədsiz narahatlığımıza və etirazımıza səbəb olur. Belə halların özünü demokratiya carçısı, "söz azadlığı"nın beşiyi kimi qələmə verən bəzi Avropa ölkələrində cərəyan etməsi, üstəlik, bilavasitə dövlət qurumları tərəfindən izin verilərək şərait yaradılması olduqca üzücüdür.

Qeyd olunub ki, iki milyarda yaxın ardıcılı olan islam dinini hədəf alan bu təhqir aktını qətiyyətlə pisləyir və bəyan edirik ki, artıq dəfələrlə törədilən və bu gün də törədilməkdə olan bu kimi alçaq əməllərin məqsədi beynəlxalq miqyasda ekstremizmə təkan vermək, terroru təşviq etməkdir. Dini zəmində qarşıdurmaya təşviq edən belə çağırış, təcavüz və zorakılığa təhrik edən bu cür əməllər bəşəri təhlükəyə çevrilməkdədir. Dindən siyasi məqsədlər üçün sui-istifadə halları, ksenofobiya təzahürləri cəmiyyətlərin və dövlətlərin daxili sabitliyini pozmağa, qarşıdurma və nifaq yaratmağa xidmət edir.

"Qafqaz Müsəlmanları İdarəsi - dini mərkəz olaraq bütün dünya ölkələrini, beynəlxalq təşkilatları və dini qurumları törədilən əməli qətiyyətlə qınamağa və din pərdəsi altında hər hansı radikalizm təzahürlərini, dindən sui-istifadə edən ekstremizm, ksenofobiya hallarını, inancından, əqidəsindən asılı olmayaraq, insanların mənəvi dəyərlərinə, dini rəmzlərinə və şəxsiyyətlərə, dinlərin müqəddəs məkanları və atributlarına qarşı nifrət, çağırış və təhqir hallarının baş verməməsi üçün daha ciddi səy göstərməyə çağırırıq. Bir daha vurğulamaq istəyirik ki, söz azadlığı heç də mənəvi hisslərə toxunmaq, nifrətə çağırışlara təhrik etmək deyil, əksinə, insanları mənəviyyata dəvət etmək olmalıdır. Dünya hamımızın ümumi evidir və bu evdə əmin-amanlığı qorumaq hər birimizin vəzifəsi və borcudur.

Uca Yaradan dünyanı bəla və nadanlıqlardan qorusun! Amin!", - deyə bəyanatda qeyd olunub.

# *Jurnalist-rejissor:* "Özünü demokratik adlandıran Fransada polisin dəyənəkdən istifadəsi yolverilməzdir"

"Özünü demokratik adlandıran bir ölkədə - Fransada polisin dəyənəkdən istifadə etməsi yolverilməzdir".



Bunu "Report"un Fransa bürosuna açıqlamasında ölkənin "Musulmansenfrance" portalının təsisçisi, jurnalist-rejissor Jan Mişel Brən (Jean-Michel Brun) bildirib.

"Fransa hökuməti əhalinin çoxsaylı etirazlarını nəzərə almayacağını bir daha elan etdi", - jurnalist vurğulayıb.

Onun sözlərinə görə, polis zorakılığı Fransada təkrar-təkrar baş verən problemlərdən birinə çevrilib:

"Keçən həftə sülh şəraitində etiraz aksiyası keçirən əhaliyə qarşı polis növbəti dəfə dəyənəklərdən istifadə etdi. Polis dəyənəyi nəticəsində yaralanaraq təcili surətdə əməliyyat olunan bir şəxs artıq məhkəməyə müraciət edib. 2020-ci ildəki etiraz aksiyaları zamanı da Fransa polisi zorakılıq aktları nümayiş etdirmişdi. O zaman ölkə prezidenti Emmanuel Makron və daxili işlər naziri polis zorakılığını nümayiş etdirən videoların sosial şəbəkələrdə geniş surətdə yayıldığını gördükdən bu hala reaksiya vermişdilər. Onlar belə halların bir daha baş verməməsi üçün müvafiq tədbirlər görəcəklərinə söz vermişdilər. Lakin təəssüflər olsun ki, bu hallara son qoyulmayıb. Özünü demokratik adlandıran bir ölkədə polisin dəyənəkdən istifadə etməsi yolverilməzdir".

Jurnalist bildirib ki, Emmanuel Makron əhalinin istəyinin ziddinə gedərək seçkiqabağı kampaniyasındakı proqramını hər vasitə ilə həyata keçirməyə çalışır:

"Yanvarın 19-da Fransa əhalisinin təqaüd sistemindəki dəyişikliklərə etirazlarını bildirmək üçün ölkənin böyük şəhərləri olan Paris, Marsel və Lionda təşkil olunmuş nümayişlərdə etirazçıların sayı bir milyon yarımı ötüb. Etiraz aksiyalarında xüsusilə nəqliyyat işçiləri, təhsil işçiləri, enerji sahəsində çalışanlar böyük fəallıq göstərdilər. Ölkə prezidenti Emmanuel Makron bu çoxsaylı etirazlara baxmayaraq, seçkilər zamanı təqdim etdiyi proqramını həyata keçirəcəyini, təqaüd sistemində nəzərdə tutulmuş dəyişiklikləri həyata keçirəcəyini bir daha təsdiq etdi. Unutmayaq ki, Emmanuel Makron prezident seçkilərinin səhərisi vətəndaşların çoxsaylı səslərini toplamasını seçkiqabağı kampaniya zamanı təqdim etdiyi proqramının olmadığını boynuna alaraq, əskinə, ekstremist sağçıların hakimiyyətə gəlməsinə mane olmaq üçün seçildiyi faktını qəbul etmişdi. Bu gün ölkə prezidentinin seçkiqabağı kampaniyasındakı proqramını hər vasitə ilə həyata keçirməyə çalışması antidemokratik siyasət yürütdüyünü göstərir".

# "Fransa polisi hökumətə qarşı keçirilən aksiyalar zamanı daha çox zorakılıq törədir"

"Fransada etirazçılara qarşı polis zorakılığı hökumət əleyhinə keçirilən aksiyalar zamanı daha çox müşahidə olunur".



Bunu "Report"un Fransa bürosuna açıqlamasında Türkiyənin "Anadolu" agentliyinin Paris təmsilçiliyinin əməkdaşı Ümit Dönməz deyib.

O vurğulayıb ki, Fransa polisi aksiyalar məsələsinə ikili standartlarla yanaşır. Ü.Dönməz söyləyib ki, bu ölkənin asayiş keşikçiləri PKK terror qruplaşması tərəfdarlarının yanvarın 19-da Parisdə keçirdiyi etiraz aksiyası zamanı təxribatların qarşısını almayıb və prosesi kənardan izləyib.

"Mən jurnalistlik fəaliyyətim dövründə çoxlu sayda etiraz aksiyasını izləmişəm. Müşahidələrimə əsaslanıb deyə bilərəm ki, Fransa polisi etirazçılara qarşı çox zaman səbr nümayiş etdirmir. Eyni zamanda nümayişlərə fərqli yanaşmanı da çox görmüşəm. Məsələn, PKK tərəfdarlarının aksiyasında etirazçılar çoxlu sayda təxribatlar törədirdilər. Buna baxmayaraq, polis zorakılıq hallarına yol verənlərə qarşı tədbir görmürdü, sadəcə, kənardan izləyirdi", - jurnalist vurğulayıb.

Onun sözlərinə görə, eyni hal ötən il dekabrın 23-24-də keçirilən aksiya zamanı da baş verib. Ü.Dönməz qeyd edib ki, Fransanın hüquq-mühafizə orqanlarının rəhbərliyi aksiyanın keçirildiyi əraziyə çox az sayda polis cəlb etmişdi: "Ərazidə polislərin sayı çox az idi. PKK tərəfdarları təxribat əməllərə əl ataraq təhqiramiz söyüşlər söyür, mağazaların şüşələrini sındırır, güllə atırdılar. Polislər buna müdaxilə etmirdilər. Yalnız yarım saatdan sonra reaksiya verməyə başladılar. Sonda məcbur olub əlavə polis qüvvəsi cəlb etdilər. Bundan sonra vəziyyəti nəzarət altına ala bildilər".

Ü.Dönməz bildirib ki, ötən həftə isə vətəndaşlar Fransa hökumətinin pensiya islahatına etiraz olaraq aksiya keçiriblər və asayiş keşikçiləri nümayişçilərə qarşı dəyənəkdən istifadə edib:

"Son nümayişə gəldikdə isə yalnız bir ovuc insan zorakılıq nümayiş etdirirdi. Buna baxmayaraq, polis hamıya qarşı zor tətbiq etdi. İnsanlar hökumətin təqaüd sistemində dəyişikliklər etməsinə etirazını bildirirdilər. Fransa polisi çox böyük səbirsizlik nümayiş etdirərək etirazçılara qarşı zorakılığa əl atdı. Halbuki insanlar öz hüquqlarından istifadə edərək təqaüd yaşının artırılmasına qarşı dinc şəkildə etirazlarını bildirmək üçün yığışmışdılar".

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 18 noyabr (Bazar ertəsi günü) tarixli 43-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Düşənbə, 11 səfərülmüzəffər sənə 1337.
18 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məşhədi Mehdi Əliyev əziz yeznəsi **Səfər Kərbəlayi Hüseyn oğlu Məhəmmədovun** Tiflis şəhərində vəfat etdiyini yə's və təhəssürlə [kədər və həsrətlə] qövm-əqrəbasına və dost-aşnasına elam edir [bildirir]. Pəsməzarlıq səşənbə [çərşənbə axşamı] günündən etibarən 3 gün Məşhədi Mehdinin Nijni Priyutski küçədə vaqe 39 nömrəli evində olacaqdır.

### İDARƏDƏN

Qəzetəmizin dünkü nömrəsində, həmin elan dərc edilən yerdə Müttəfiq dövlət hökumətləri Azərbaycan Cümhuriyyəti istiqlaliyyətini etiraf etdiyinə dair bir xəbər nəşr edilmişdi. Müttəfiq dövlət hökumətləri tərəfindən böylə bir etirafın hüsula gəlmədiyini bildiririk.

### BAKI, 18 TƏŞRİNİ-SANİ

Dün Etilaf dövlətlərinin komandanlığı ilə qoşun qitəatı [hissələri] Azərbaycanımızın paytaxtı olan Bakıya varid oldular [gəldilər].

Əski və yeni dünyanın ən mədəni və ən qəvi [güclü] millətlərinin qoşunu düşmən deyil, bəlkə dost sifətində məmləkətimizə qədəm qoyurlar. Onları bu iqdamata [addıma] vadar edən böyük məqsəd və niyyətlər vardır. Həmin məqsəd Rusiya dövlətini bolşeviklərdən təmizləyib, orada bəşəriyyətin indiki hal və övzaına [vəziyyətinə] mütabiq [uyğun] bir tərzi-idarə təşkilidir. Bu məqsədə nail olmaq üçün Müttəfiqlərin əllərində müxtəlif yollar vardır. Qafqaziya cəhətinin işğalı həmən yollardan biridir ki, burasını müharibə hərəkatı üçün bir üssül-hərəkə [hərəkət mərkəzi, baza] edib də Rusiya içərisinə qolaylıqla soxulmaq mümkün olsun.

Biz Azərbaycan türkləri indiyə kimi bir yerdə yaşadığımız və bir mədəniyyətlə bəslənmiş Rusiya dövlətinin, giriftar olduğu hərc-mərc bəlasından xilas olub da təcdidi-həyat etməsinə [həyatını yeniləməsinə] mail olduğumuza görə, təbii, bu xüsusda Müttəfiqlər tərəfindən icra olunan təşəbbüsatı təbrik edirik. Biz Rusiyadan ayrıldıqsa da, heç vaxt rus millətinə qarşı bizim qəlbimizdə kin və küdurət yeri olmamış və həməvaqt [həmişə] onunla bir yerdə bəradərانə [qardaşca] bir surətdə yaşamışıq. Ona görə rus millətinin daha başqa millətlər cərgəsində böyük bir millətə şayəstə [yaraşan] bir yer tutmasını arzu ediriz. Bunun üçün də Hökumətimiz general Tomson cənabları ilə tez bir zamanda ümum bir dil tapmağa müvəffəq oldu. Arada vaqe olan müzakiratın nəticəsində Azərbaycanımızın istiqlaliyyəti və tamamiyyəti-mülkiyyəsi [ərazi bütövlüyü] məsun [toxunulmaz] qalacağı vəd olunmuş. Bunu hər bir azərbaycanlı bilməlidir.

Azərbaycanımıza mehman-dost sifətində qədəm qoyan Müttəfiqlərə "xoşamədi" [xoş gəldiniz] deməklə bərabər, ümidvar oluruz ki, siyasi həyata qabiliyyət göstərən bir millət, onun rə'yinə xilaf vəziyyət məcburiy-yətindən məsun qalacaqdır.

Bilxassə [xüsusilə], təhti-himayəsində [himayəsi altında] 150 milyona baliğ [çatan] islam övladı yaşayan İngiltərə milləti nümayəndəsi olan general Tomson cənablarının bu yolda yeni istiqlaliyyət tapmış Azərbaycan və bütün Qafqaziya islamlarına hümmət göstərəcəklərinə ümidvar oluruz.

Mədəni millətlər cərgəsində biz də yaşamaq istəriz. Bizi böyləcə bir sadə, şəşəəsiz [təmtəraqdan uzaq] bir başər haqqından kimsə məhrum etmək iqdamatında [təşəbbüsündə] bulunmaz zənnindəyiz.

### AZƏRBAYCAN MİLLİ ŞURASINDA

**Birinci iclası**

*(keçən nömrədən məbəd)*

**Fətəli xan Xoyski** – Sədrdən sonra Hökumət rəisi Fətəli xan Xoyski çıxaraq Hökumət namından [adından] Şurayi-Millini təbrik edir və vaxtın qeyri-müsaidliyi [uyğun olmaması], vəziyyətin təqazasından [tələblərindən] dolayı müfəssəl məlumat verəmməyəcəyini bildirərək deyir ki, Şurayi-Milli dəvəti üçün 6 ay möhlət verilərək, bütün ümuri-ixtiyar [idarə işləri] Hökumətə tapşırılmış olduğu halda, bütün öhdəsinə verilmiş vəzifəni ifa etmədən Şurayi-Millini vaxtından əvvəl çağırmasının səbəbi budur ki, Şurayi-Millidən ayrılan zaman Hökumətin işləri maliyyət, əsgər və daxili intizam cəhətlərindən qayət fəna idi. Anarşi hökmfərma idi [hökm sürürdü]. Daha mühümü budur ki, paytaxtımız əlimizdə deyildi. Hökumət müşkül bir vəziyyətdə və bugünkü yığılışa nail olmaq üçün bir çox mübarizə və davalar qarşısında idi. Şükür olsun ki, şimdi anarşi qırılmış, maliyyət yaxşı bir hala gətirilmiş, dəmiryolu və saira düzəlmiş, Azərbaycan üçün qoşun əmələ gətirilmişdir. Bakı məsələsi hüsni-həll olunaraq [müsbət həllini taparaq], zülmlə əlimizdən alanlardan təmizlənib geri alındı və şimdi paytaxtımız oldu. Paytaxtımız əlimizdə olmadıqca, Məclisi-Müəssisan [Təsisçilər Məclisi] dəvəti, hətta hazırlığı qeyri-mümkün idi. Şimdi Bakı alınaraq idarə işləri bir qaydaya salınar-salınmaz Məclisi-Müəssisan hazırlığı üçün bir komissiya təşkil edildi. Hələ də işləməkdədir. Amma övzayi-siyasiyyə [siyasi vəziyyət] böylədir ki, şimdiki nazik [həssas] və mühüm bir zamanda hadisatı [hadisələri] təqib etmək belə qeyri-mümkündür. Səhər qeyri-mümkün ədd [hesab] olunan bir şey axşam əmri-vaqe [fakt] kimi araya çıxır. Böylə bir zamanda iki-üç ay gözləyib Məclisi-Müəssisan çağırmaq olmaz. Böylə bir zamanda Hökumət bütün işlərdə yalnız özü məsul olmamaq üçün məcbur oldu, 6 ay gözləmədən Milli Şuranı dəvət etsin, tainki onun göstərməsi və iştirakı ilə çalışsın. Hökumət və biz əminiz ki, istiqlal nə qədər çətin ələ gələn və çox qurban tələb edib müşkülat çıxaran bir əmr [iş] isə də, müttəhidən [birgə] çalışsaq, müşküllər səhl [asan] olar. Necə ki, sədr cənabları ərz etdilər, firqə və sinif ixtilafını kənara buraxaraq müttəhidən istiqlala çalışmalıdır.

Nitqinin axırında Baş nazir həzrətləri Hökumət namından Hökumət işlərini Şurayi-Milliyə tapşırdığını bəyanla, Şuranı yenidən təbrik edir.

**Sədr** – Şura namından Parlaman dəvətinədək qüvveyi-icraiyyənin [icra səlahiyyətinin] yenə Hökumət öhdəsində qalmasını təklif etməklə izin istəyir.

**Pepinov** – təklif edir tənəffüs elan olunsun.

Beş dəqiqə tənəffüs elan edilir. Tənəffüsdən sonra:

**Rüstəmbəyli Şəfi bəy cənabları** – əhvali-fövqəladəni [vəziyyətin fövqəladəliyini] nəzərə alaraq, Hökuməti-hazirə [hazırkı hökumət] iş başında qalıb qüvveyi-icraiyyədən istifadə edir, məzmunlu bir formula təqdimi ilə qüvveyi-icraiyyənin Hökumət öhdəsində qalmasını təklif edir.

**Pepinov** – Sosialistlər İttifaqı namından bəyan edir ki, Hökumətin təsisində iştirak etmədikləri kimi, bu gün istefası münasibətilə də səs verməyəcəklərdir.

**Şeyxülislamov** – menşevik "Hümmət" firqəsi namından eyni bəyanatı verir.

Sədr səsə qoyur. Məzkur [adı çəkilən] iki fraksiya rə'y verməmdikləri üzrə, ittihadi-ara [səs birliyi] ilə Şəfi bəyin təklifi qəbula keçir.

**Məhəmməd Əmin bəy** – təklif edir ki, Şura izin versin, heyəti-rüəsa [rəyasət heyəti] camaata xitabən bir müraciətnamə və bəyannamə nəşr etsin. Bundan əlavə hüquq və istiqlalımız haqqında bəşəriyyət hüzurunda da səsimizi ucaltmaq lazım gəldiyindən, Şura izin versin, bəşəriyyət və mədəniyyət namına Vilson və aləmi-mədəniyyətə [mədəni dünyaya] xitabən bir müraciətnamə nəşr edilsin.

Bəyannamələrin tərtibi Beynəlfirəq Şuraya [Partiyalararası Şuraya] həvalə olunur. Gələn iclas axşam saat 8-də.

### AZƏRBAYCAN MİLLİ ŞURASINI TƏBRİK

Azərbaycan Milli Şurası aşağıdakı teleqrafları almışdır:

*"Tiflis müsəlman gəncləri Milli Şuranın açılmasını təbrik edib, Milli Şuranın axırıncı imkanına qədər Azərbaycanın Cümhuriyyətinin müsəlman gəncləri üçün əziz və qiymətli olan hürriyyət və istiqlaliyyətini mühafizə edəcəyinə əmin oluruq.*

*Tiflis Şəhərinin*
*Müsəlman Gəncləri."*

Şurayi-Milli əzasından [üzvlərindən] Gürcüstan Hökuməti [yanında] Azərbaycan siyasi nümayəndəsi Məhəmməd Yusif Cəfərov Şura namına bir teleqraf çəkərək, Tiflis Konfransı üzvü olmaq həsəbilə [səbəbilə] Şura iclaslarında iştirak edəmməyəcəklərini təəssüflə bəyan və Şuranı səmimi qəlbdən təbrik etmişdir.

**Gəncədən alınmış teleqraf**

Nəşvü-nüma [tərəqqi] əsasları üzərində olaraq, islamların möhkəm və böyük bir qüvvə təşkil etməsi amalı çoxdan bəri qəlblərimizdə bəslənməkdə idi. Axirül-əmr [nəhayət], həqiqət oldu. Azərbaycan xalqı da türk qardaşlarının müavinəti [köməyi] ilə muxtariyyət və istiqlaliyyət gördü və bundan sonra xalqdan seçilmiş Milli Şuralarının təhti-idarəsində [idarəsi altında] olaraq öz qüvvəsi ilə gələcəkdə tərəqqi və səadətə erə [çata] bilər. Müvəqqəti olaraq bir taqım siyasi və hərbi vəsilələrdən [səbəblərdən] dolayı Milli Şuraların susması ənqərib [yaxın] bir zamanda azadə bir millət üçün azadə və geniş bir yol aranılacaq və rifah və səadət üzrə vətən faydası üçün bir parlaq gün doğacaqdır. Böylə bir gün gəldi və bu gün də xalq müntəxəbləri [seçilmişləri] birinci dəfə toplaşaraq öylə bir əsasları müstəhkəm [möhkəm] etməlidirlər ki, onların vasitəsilə xalqda qəvaninə [qanunlara] hörmət olsun. Əmval və əmlak ilə ailələrə edilsin. Zəhmət və ticarət nəşvü-nüma bulsun. Tam bir əmniyyət [asayiş] bərpa edilməklə bərabər, qonşularımızla hüsni-əlaqə [yaxşı münasibətlər] əldə edilsin. Sizi bir xalq nümayəndələri kimi təbrik edirik. Milli Şuranın bilafərqi-millət [millət fərqi qoymadan] xalqımızın səadəti və məmləkətin asayişi yolunda işləmək və möhkəm bir Azərbaycan Cümhuriyyəti bərqərar etmək üzrə Şuraya müvəffəqiyyətlər dilədiyimi söyləməyi rica edirəm.

*Ərzaq Nəzarətinin Gəncə*
*mürəxxəsi [nümayəndəsi]*
*Hacı Bababəyov*

### ƏHMƏD BƏY AĞAYEV İLƏ MÜSAHİBƏ

Müttəfiq dövlətlərin Rusiyada olan bolşeviklər əleyhinə əməliyyatda bulunmaq arzularından və bu məqsədlə Azərbaycanı özlərinə üssül-hərəkə [hərəkət mərkəzi, baza] etməklərindən xəbərdar olub, Azərbaycan heyəti Əhməd bəy Ağayev, Doktor Rəfiyev və Nəsib bəy Yusifbəyov həzrətləri məzkur [adı çəkilən] dövlət nümayəndələri ilə görüşməkdən ötrü Ənzəliyə azim olmuşdular [yola düşmüşdülər].

Müxbirimiz məzkur [adı çəkilən] heyət əzası [üzvü] Əhməd bəy Ağayev ilə müsahibədə bulunmuşdur. Əhməd bəy demişdir ki:

*"Beynəlmiləl münasibətdə millətlərin istiqlaliyyətini və sülh bərpa edilməsini qəsdlərinə qoyan üç hökumət[in] nümayəndələri ilə görüşüb söhbət etdiyimiz əsnada, Azərbaycan heyətinə gözəl təsir bağışlamışdır. Onlarla etdiyimiz müsahibədən biz inandıq ki, Müttəfiq dövlətlər Rusiyanı bolşevizm hərəkatından azad edib, Vilsonun əsasları ilə müvafiq əsaslar üzərinə bərpa etmək məqsədindədirlər. Birinci dəfə "Azərbaycan" qəzetəsi müxbirinə söylədiyim kimi, azərbaycanlılar bu amalın vücuda gəlməsi tərəfdarı idilər. Buna binaən [görə], Müttəfiq dövlət heyəti ilə Azərbaycan nümayəndələri arasında birinci sözdən münasibat [münasibət-lər] başlandı. Rusiyanın dirilməsinə məhsusiyyət [həssaslıq] göstərən Azərbaycan nümayəndələri Azərbaycan Hökuməti tərəfindən Müttəfiqlərin böyük qəsdi əleyhinə mümaniət [maneçilik] göstərilə biləcəyini fikirlərinə belə gətirə bilməzlər.*

*Müttəfiq dövlət nümayəndələri öz tərəflərindən azərbaycanlıların bu gözəl fikrini təbrik edib, öz məqsədlərinə nail olmaqdan ötrü Azərbaycanı müşkül və çıxılmaz bir hala salmağa lüzum görülmədiyini etiraf etmişlərdir. Bu qərarla Müttəfiq dövlət nümayəndələri Vilsonun Sülh Konfransı tərəfindən qəti surətdə qəbul ediləcək əsaslarına əməl edici Ümumrusiya Məclisi-Müəssisanı dəvət edilənə qədər həqiqətdə davam edən bir hökuməti xarab etmək fikrindən uzaqdırlar. Bu təsəvvürata görə, Azərbaycan Hökuməti və hamı dövləti, ictimai müəssisələr [və bütün dövlət müəssisələri və ictimai müəssisələr], həmçinin ordu Azərbaycan dairəsində öz fəaliyyətlərində bulunacaqdırlar. Ancaq Bakı şəhəri ətrafı ilə Müttəfiqlərin bolşeviklər əleyhinə üssül-hərəkəsi olduğundan, əsgəri cəhətdən Müttəfiq qüvvələri tərəfindən zəbt ediləcəkdir. General Tomson da milli işlərə qarışmamaqla əsgəri general-qubernator olacaqdır.*

*Polisə başında kontrol sifətiylə İngiltərə zabitləri duracaqlardır. General Tomson müsahibəmiz əsnasında kərratla [dəfələrlə] deyirdi: "Biz dağıtmaq üçün deyil, abad etməyə gəldik." Şimdiyə qədər bir cinayətlə müttəhim olmayıb, yerlərinə göndərilməmiş qaçqınlar əvvəlcə tərk-silah ediləcəklərdir. Bakı sakinləri cümləsindən olan qaçqınlar burada qalacaqlardır. Qalanları isə öz yerlərinə göndəriləcəklər. Müttəfiq dövlət nümayəndələri əvvəlki hərc-mərclikdə fəaliyyəti xəlaldar edilən [pozulan] Bələdiyyə İdarəsi və Neft Mədənçiləri Sovet Syezdini bərpa etmək niyyətindədirlər. Bütün əhali, bilaistisna [istisnasız olaraq] tərk-silah ediləcəkdir. Silahını gizlədənlər şiddətli cəzaya giriftar olacaqlar.*

*Qalib gələn üç Müttəfiq dövlət nümayəndələrinin bu bəyanatı azərbaycanlılar üçün böyük bir təminatdan ibarətdir. Mənim fikrimə görə, ədalət, müsavat [bərabərlik], qanun və qayda əsaslarını vəd edən bitərəf bir ünsürün bizim aramızda olması, bu axır illərdə Qafqaziya həyatını ləkələyən cəhənnəm həyatına nəhayət qoyacaq beynəlmiləl sülhün əsası olacaqdır. Əhali Müttəfiq qoşunlarının Bakıya varid olmasına [gəlməsinə] saki-nanə bir nəzərlə baxıb, Müttəfiqlərin bilafərqi-millət [millət fərqi olmadan] hamının həyat, mallarını xüsusi mühafizə edəcəklərinə əmin olmalıdır."*

### MƏHKUM MİLLƏTLƏR KONQRESİ

"Berliner taqeblatt" qəzetəsinə Laheydən xəbər verilir:

Finlandada Masarik təhti-sədarətində [sədrliyi altında] Avstriyanın məhkum millətlərinin konqresi vaqe olmuşdur [baş tutmuşdur]. Konqre millətlərin istiqlaliyyəti tərəfdarı çıxmışdır. Millətlərin bir-birlərinə qarışdıqlarından dolayı irqən bunları ayırmaq mümkün deyildir. Binaileyh [ona görə], coğrafi, iqtisadi, mədəni şəraitdən istifadə etməlidir. Fəqət sövqülceyş [stratejik mövqe] nöqteyi-nəzərini mühafizə etməlidir.

Konqre millətin öz müqəddəratını həll etmək ixtiyarını o vaxt təsdiq edəcək ki, millət və yaxud bir hissəsi azadə bir surətdə bunun tərəfdarı çıxa. Əqəliyyət [azlıq] təşkil edən millətlərə hüquqi-müsavi [bərabər hüquqlar] verilməlidir. Konqre bir milləti bir yerdən bir yerə köçürmək əleyhinə etiraz edir. Bu iş slav ölkələrində olmuşdur. Siyahiyi-ümumiyyənin şübhəli olduğundan, Sülh Konqresində doğru siyahı verməyə hər millət muxtardır [ixtiyar sahibidir]. Mərkəzi Avropa ittihadı [birliyi] məqsədlərinə keçdikdə təklif edilir ki, işbu ittihadda bütün millətlər nümayəndəsi olmalıdır. Balkan millətlərinin federasiyası, çex-polyakların daha da yaxınlaşması ehtimalı vardır.

### ALMANİYADA

- General-feldmarşal fon Kinderburqun Hollandiyaya varid olması [getməsi] barəsində verilən Hollandiya xəbərləri doğru deyildir . Kindenburq Baş ərkani-hərbdə [Baş qərargahda] olub, təzə hökumətlə sazişə girmişdir.

- Vilhelm ilə kronprins avtomobildə Maastraxa varid olub, Hollandiyaya daxil olmağa icazə verilməsi üçün Hollandiya Hökumətinin qərarını gözləyir.

- Əvvəlcə xəbər verildiyi kimi, təşrini-saninin [noyabrın] 9-unda Berlində sabiq tərzi-idarə [idarə üsulu], Fəhlə və Saldat Şurası əmələ gətirilməsi ilə xalq hökumətinə mübəddəl edilmişdir [çevrilmişdir]. İnqilab hərəkatı məmləkətin hər tərəfində gəldikcə tərəqqi etməkdədir. Hər yerdə Fəhlə və Saldat Şuraları təşkil edilməsi xəbərləri alınmaqdadır. Ələlümum [ümumiyyətlə] inqilab hərəkatı ixtilafsız və qan tökülmədən cərəyan edir. Bir çox şəhərlərdə Fəhlə [və] Saldat Şuraları bilatəxir [dərhal] hərbi məmurlar və inzibat [asayiş] idarələri tərəfindən etiraf edilmişlər [tanınmışdır]. Bir para şəhərlərdə nümayiş və tətil başlanıb, ümumiyyətlə sakit keçmişdir.

- Baş ərkan [Baş qərargah] Hamburqda olan Saldat Şurasına xəbər verir ki, Saldat Şurası cəbhədə də təşkil edilmişdir. Saldat Şurası feldmarşal Kindenburq ilə münasibata [əlaqəyə] girişib, öz şəraitini [şərtlərini] ona təqdim etməkdədir.

- Təşrini-saninin 11-ində Berlin əhvalı sakitliklə keçmişdir. Bəzən küçələrdə atışma səsləri eşidilməkdədir. Dükanlar yenə təzədən açılmışdır. Bütün Almaniya əfkari-ümumiyəsi [ictimai rəyi] və hamı firqələr hiss edirlər ki, mütarikə şəraitinin [atəşkəs şərtlərinin] davam etdirilməsi və aclığın şiddətinə bais olmaq, siyasi nöqteyi-nəzərdən imperialist hökumətini endirən, Millətlər İttifaqında və sülhi-ümumidə iştirak etmək arzusunu izhar edən alman milləti əleyhinə çevrilmişdir. Bu hiss Almaniyanın bir para yerlərində bir dərəcədə təsir bağışlamışdır.

- Konnada olan Saldat Şurası bütün alman əsgərlərinə böylə bir müraciətdə bulunmuşdur: Qanun və intizamı saxlamaq üçün hər kəs öz yerində qalmalıdır. Hər saldat öz hissəsində qalıb, əvvəlki məmurlara müti olmalıdır [itaət etməlidir]. Nizam qanunları Saldat Şurası tərəfindən hazır ediləcəkdir. Bolşevizm hərəkatı, sosialistlərin işini yıxmağa görə, alman əsgərləri arasında bolşevizm hərəkatına yol verməməlidir. Saldat Şurası saldatların əqli-səliminə [sağlam məntiqinə] ümidvar olub, sosializm nüfuzuna inanmaqdadır.

**Saksoniya inqilabı**

Saksoniyadan verilən xəbərlərə görə, orada xalq hökuməti təşkil edilmişdir. Kral taxtından əl çəkib, hamı firqələr istefa vermişlərdir.

### KANSLERİN MÜRACİƏTNAMƏSİ

Almaniyanın yeni kansleri Ebret atidə [aşağıda] mündəric [dərc edilən] müraciətnaməni nəşr etdirmişdir:

Yeni hökumət Almaniya millətini vətəndaş müharibəsindən və aclıqdan saxlamaq, öz müqəddəratlarını həll etməyə hazırlamaq qəsdilə hökuməti qəbul etmişdir. İşbu məsələni bütün şəhər və köylər hökumətlərinin müavinəti [köməyi] ilə həll edə biləcəyiz. Mən anlayıram ki, bir para zəvat [şəxslər] üçün yeni zəvat ilə bərabər işləmək müşkül olacaqdır. Fəqət mən bilirəm ki, onlar öz millətlərini ziyadəsincə sevirlər. İşbu ağır saatda təşkilat işləri dayandırılarsa, Almaniya ölkəsi anarşi və fəqirlik meydanı olacaqdır. Bundan ötrü mənimlə bərabər ölkəmizə xofdan ötrü xeyr [qorxudan, məcburiyyətdən ötrü yox], vicdanən kömək ediniz. Hər kəs öz yerində durub gözətləməlidir ki, saat gəlsin də onu öz vəzifəsindən azad etsin.

### ALMAN SOSİALİSTLƏRİNİN MÜRACİƏTİ

Almaniya mətbuatı xəbər verir ki, hər iki sosialist firqəsi Stokholmda – Brantinqə; Kopenhaqda – Standininqə və Laheydə Tirelsterə böylə bir teleqraf göndərmişlərdir:

Sosialist Firqəsi ilə Bitərəf Sosial-Demokrat Firqəsi bitərəf dövlət[lərin] sosialist firqələrinin nəzərini əqd edilən [imzalanan] mütarikə şəraiti [atəşkəs şərtlərinin] məzmununa cəlb edir. Çünki bu şərait, aclığın şiddətlənməsinə və davamına səbəb olacaqdır. Hərgah dənizlər mühasirəsi davam etsə, alman seyri-səfaini [gəmi naviqasiyası] məhdud bir hala salınsa, nisfindən [yarısından] artıq yaramaz bir hala gələn dəmiryol mühümmatından [avadanlıqlarından] 5 min paravoz və 150 min vaqon təslim edilsə, əcnəbi məmləkət əsgərlərinin azuqəsi alman məhsulatından [məhsullarından] verilsə, alman millətinin ərzaq işi fəna bir hala düşəcəkdir. Buna binaən [görə], biz sosialistlər millətlər sosialistlərinə müraciətən imperialist hökumətləri tərəfindən buyurulan şiddətli mütarikə şəraitinin təbdilinə [dəyişdirilməsinə] müavinət [kömək] göstərilməsini xahiş edirik. Bu şərait [şərtlər], Almaniya Sosialist Xalq Cümhuriyyətinin saldatlarına və fəhlələrinə ağır bir zərbə vuracaqlardır. Sizlərə qardaşlıq salamımızı göndəririk.

### NOTA

İşbu nota təşrini-saninin [noyabrın] 11-ci gecəsi Vaşinqtonda Baş katib Lansinqə göndərilmişdir.

Baş katib. Demokratik amal və qayəsinin müttəhid [eyni] olduğundan naşi [ötrü], Almaniya Hökuməti rəisi-cümhur [prezident] Vilsona müraciət edərək sülh əqdini [imzalanmasını] rica etdi. İşbu sülh dəfələrlə Vilson tərəfindən qəbul edilmiş əsaslar üzərinə qurulmalıdır. Bunlar bütün ixtilaflı məsələlərin ədalət üzrə həll edilməsi və millətlərin sabit sülhündən ibarətdir. Sonralar Vilson demişdir ki, o, Almaniya milləti ilə müharibə etmək xəyalına düşməz və zülmü rəva görəmməz. Almaniya Hökuməti sülh şəraitini [şərtlərini] aldı. Əlli aylıq bir dəniz mühasirəsindən sonra bütün vəsaiti-nəqliyəni [nəqliyyat vasitələrini] almaq, dəniz mühasirəsini davam etdirmək, milyonlarla qadın və çocuqları ölümünə məhkum etmək deməkdir. Biz işbu şəraiti məcburən qəbul etdik. Fəqət biz Vilsonun nəzərini cəlb ediriz ki, işbu şəraiti qövldən feilə [sözdən işə] gətirmək alman millətinin Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] və daimi sülh tərəfdarı olduğuna rəxnə salacaqdır [zərər vuracaqdır]. Alman milləti bir dəfə də işbu axırıncı saatda Vilsona müraciət edərək, Müttəfiqlərlə bahəm şəraitin yüngülləşməsinə baxılmasını rica edir.

*Xariciyyə işləri Baş katibi*

### İNGİLİSLƏRİN VÜRUDU MÜNASİBƏTİLƏ

Azərbaycan Hökuməti Müttəfiqlər qitəatı [qoşunları] komandanı Tomsona bir teleqraf çəkmişdir:

*"Ənzəli. Alihəzrət ingilis komandanı general Tomsona. Azərbaycan Hökuməti Müttəfiqlər qoşununun təhti-komandanızda [komandanlığınız altında] 17 noyabrda Bakıya vüruduna etiraz etməyir. Hökumət əmin olur ki, bu vürud Azərbaycanın istiqlal və səlaməti-mülkiyəsini [ərazi bütövlüyünü] pozmayacaqdır. Hökumətin zənnincə, Ənzəlidə mürəxxəslərimizə [nümayəndələrimizə] xəbər vermiş olduğunuz ümumi əsaslardan maəda [başqa], Hökumətlə Müttəfiqlər qoşunları komandanının əlaqə və münasibatı [münasibətləri] bizzat [şəxsən, üzbəüz] müzakiratla [danışıqlarla] təyin edilər. Varid olan [gələn] əsgərlərin qəbulu və yerləşdirilməsi üçün Hökumət tərəfindən tədbirlər görülmüşdür."*

Buna cavabən Müttəfiqlər qoşunu komandanı aşağıdakı teleqrafı çəkmişdir:

*"Cavabınızdan məmnun qaldım. Ümidvaram, qaldırdığınız məsələlər tamamilə əlverişli bir surətdə həll olunarlar."*

### MÜTTƏFİQLƏR ORDUSUNUN BAKIYA VÜRUDU

Azərbaycan Hökumətinin xəbər verdiyinə görə, keçən gün Müttəfiq dövlətlərin heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] ilə general Tomson cənabları başda olaraq öylədən [günortadan] sonra saat 2 radələrində müstəqil Azərbaycan bayrağı ilə təzyin edilmiş [bəzədilmiş] "Qafqaz və Merkuri" iskələsinə [körpüsünə] gəldi. Hələ öylədən iləri Hökumət tərəfindən iskələ qarşısında fəxri süvari qaraqol dəstəsi durmuşdu. Sahil uzunu bütün küçə, bulvar və Olqinski, Merkurski soqaqlar əhali ilə məmlu [dolu] idi. Bilafərqi-millət [millət fərqi olmadan] cümləsi [hamısı] qonaqların gəlməsinə müntəzir [gəlməsini gözləyərək] səkilərdə səf bağlamışlardı. Şəhərin hər yerinə baxılsa, Hökumətimiz tərəfindən inzibati-əsgəri [hərbi asayiş keşikçiləri] qoyulmuş idi ki, paytaxtımızda olan asayiş xələldar edilməsin [pozulmasın]. Vaxti-müəyyəndə [müəyyən edilmiş vaxtda] vaporlar iskələyə yaxlaşmadan əvvəl, nazirlərimizdən Behbud xan Cavanşir ilə Ədil xan Ziyadxanov cənabları camaat, ticarət, sənaət [sənaye] müəssisələri nümayəndələri ilə bərabər avtomobillərdə gəldilər.

"Prezident Kryuqer" adlı vapor Müttəfiqlərin bayraqları ilə süslənmiş [bəzənmiş] iki iskələyə yanaşdı. Ta uzaqdan gənc Azərbaycan bayrağı ilə Müttəfiq bayraqları yekdigərini [bir-birini] salamlayırdı. Ümumi bir sevinc içində general Tomson cənabları ilə heyəti-mürəxxəsə [nümayəndə heyəti] Bakı nümayəndələri tərəfindən istiqbal edildi [qarşılandı]. Gərək Hökumət və camaat nümayəndələrinin nitqlərində, gərək general həzrətlərinin cavabında hər iki tərəfin yekdigərinə qarşı bəslədiyi hörmət və əlaqeyi-dostanə [dostca münasibət] müşahidə edilirdi. Buradan general Tomson cənabları ilə digər mürəxxəslər [nümayəndələr] sahilə gəldikdə, fəxri qaraqolumuz "urra" deyərək qonaqları təbrik etdi. General cənabları avtomobilə minib yürüdükdə, süvari qaraqol kəmali-intizam ilə avtomobili müşaiyəyə getdi. Misafirlərimizin şəhərdə gördüyü asayişi-ümumi və intizamı təsvib etmişlər [bəyənmişlər]. İskələdə Müttəfiq ordusu ilə Ənzəlidən gəlmiş vaporlar arasında Petrovskdan gələnləri də var idi. Ənzəlidən yenə də vaporlar gəlməkdə imiş. Birər-birər sahilə yavuqlaşanlar içərisində əsgərlərdən maəda [başqa] sivil [mülki] əlbisəli də görükürdü.

**İskələdə istiqbal [qarşılama]**

General Tomson cənabları Azərbaycan Ordusu komandanından raporu qəbul etdikdən sonra, Xariciyyə naziri vəzifəsini ifa edən Ədil xan Ziyadxanov həzrətləri tərəfindən bu surətlə təbrik edildi:

Azərbaycan Hökuməti-Cümhuriyyəsi, Xariciyyə naziri vəzifəsiylə müvəzzəf olmaq [vəzifəsini daşımaq] həsəbilə [səbəbilə] bizimlə əlaqeyi-dostanədə [dostca münasibətdə] bulunan Avropa düvəli-müəzzəməsi [böyük dövlətləri] nümayəndələri olan zatialilərinizi təbrik etməyə məni mürəxxəs buyurmuşdur [nümayəndə seçmişdir].

Yenidən sülhcuyanə [sülhpərvər] bir fəaliyyətə girişmək üzrə dağılmış, əzilmiş, qanına boyanmış bəni-bəşər [bəşəriyyət] üçün işıqlı və yeni bir aləm açılır. Aləmşümul müharibənin təzəlzülünü [sarsıntısını] duymuş gənc Azərbaycan xalqı da ancaq şimdi müstəqil dövlət həyatına başlamışdır.

Millətimiz qəviyyən ümid edir [böyük ümid bəsləyir] ki, xalqımızın böyük qardaşları olan əski bir mədəniyyətli Avropa millətləri də bütün bəni-bəşərin ülvi ideallarına erməsi [çatması] naminə bizi də özlərinin mədəniyyət ailəsinə qəbul etməkdən çəkinməzlər.

Münasibati-bəradəranə [qardaşca münasibətlər] hüsulu [yaranması] üçün zatialiləriniz bir vəsilə [vasitəçi] olunuz, əfəndim! Xoş gəldiniz!

Ziyadxanov həzrətlərinin təbrikini Zeynal Tağıyev cənabları ingiliscəyə tərcümə etdi.

Buna cavab olaraq general Tomson deyir:

Cahan müharibəsinin xitamı [sona çatması] ilə sizi təbrik edirəm. İngiltərə, Fransa və Amerika ordusu komandanı olmaq həsəbilə [səbəbilə] sizə bəyan edirəm ki, Türkiyə dövləti ilə əqd etdiyimiz [bağladığımız] əhdnamə mövci-bincə [sazişə əsasən] məmləkətinizi mühafizə edən Türk Ordusu əvəzinə gəldik. Nə şimdi, nə də gələcəkdə sizin daxili işlərinizə müdaxilə etmək fikrində deyiliz. Bizim ümumi və mütəqabil [qarşılıqlı] məsaimizlə [səyimizlə] bütün işləri gözəl bir hala salacağımıza ümidvaram.

Badəhu [daha sonra] Bələdiyyə İdarəsi tərəfindən Miryaqub deyir:

Dövlətli əfəndim! Bayraqlarında millətlər üxüvvəti [qardaşlığı] şüarını nəqş etmiş dövlətlərin nümayəndəsi kimi şəhərimiz Bakının əhalisi tərəfindən sizi təbrik edirəm.

Bir çox fəlakətlər çəkmiş şəhərimizin əhalisi çox şadlıqla sizi qəbul edəcəkdir. Cahan əhəmiyyətini haiz olan [daşıyan] Bakı şəhəri bu yaxınlarda qarqaşalıqdan çıxdıqdan sonra, Azərbaycan Hökuməti çalışqanlığı ilə öylə bir sakit yer olmuşdur ki, hər bir vətəndaş ədalət üzrə müdafiyeyi-mədəniyyə bula bilər. Bunu hamı təsdiq edir.

Zənn edirəm ki, təhti-idarənizdəki [idarəniz altındakı] ordunun və sizin gəlməyinizlə iqtisadi və mədəni cəhətdən şəhərimiz bir az daha möhkəmləşər.

İkinci dəfə, şəhərimizin hər bir təbəqəsi tərəfindən təbrik edərək deyirəm: Xoş gəldiniz!

Bələdiyyə İdarəsi rəisi təbrikinə cavabən general əfəndi şəhərimizdə hökmfərma [hökmran] olan nizam və asayişin fövqəladə gözəlliyindən kəndisinin də xoşhal olduğunu bəyanla deyir ki:

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 18 noyabr (Bazar ertəsi günü) tarixli 43-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Gələcəkdə də böylə olarsa, zən-nimcə, mənim köməyim heç bir şeydə lazım olmayacaqdır.

Rus Milli Şurası tərəfindən nitq irad edən [söyləyən] Podşibyakin general cənablarını təbrik edərək deyir ki:

Ümid vardır ki, Müttəfiq dövlətlərin ordusu vürudu ilə yenə də Rusiyanı düzəltmək və onu Avropa dövlətlər[i] miyanında [arasında] layiqli bir mövqe tutmaq üçün ihya etmək [canlandırmaq] olacaqdır.

Miralay [polkovnik] Rolleqren general Tomson cənablarını Bakıda mövcud rus zabitanı tərəfindən təbrik edir və gənc Azərbaycanın onlara etdiyi xidmət və mehmannəvazlığı [qonaqpərvərliyi] da təqdir edir.

Mirzə Əsədullayev cənabları da Bakı sənaətinin Müttəfiqlər sayəsində tərəqqi edəcəyinə ümidvar olduğunu izhar etdi.

## A. SƏHHƏTİN ÜFULİ-ƏBƏDİSİ [ƏBƏDİ QÜRUBU, VƏFATI]

Şu müdhiş, şu qorxunc vəlvəleyi-hadisat [hadisələrin vəlvələsi] içində şair, təbib Abbas Səhhət də sükutgahi-əbədiyyətə [əbədi sükut yurduna] çəkilib getdi. Həm maddi, həm də mənəvi xadimi-millət olan Səhhət qardaşımı-zın üfuli-əbədisindən hənüz Qafqaziya türklərinin xəbəri yoxdur. Zatən bu keşməkeşi-vəqaye və həvadis [vaqiələrin və hadisələrin keşməkeşi] içində kimsənin kimsədən xəbəri yox ki... İştə, böylə bir həngameyi-vəlvələdarda [vəlvələli, çaxnaşmalı zamanda] Səhhətin məzari-əbədiyyətə çəkilməsi millətin guşi-təəssüf və təəllümünə [təəssüf və kədərlənmə qulağına] vasil olmadığı kimi, bu gün yox məsabəsində [yerində] bulunan mətbuatımızda da vəfati-Səhhətə [Səhhətin vəfatına] dair heç bir şey yazılmadı. Onun milli xidmətlərinə dair bir sətir yazı belə görülmədi. Cühəlayi-avam [avam təbəqə] tərəfindən düçari-təhqir və təkdir olan [təhqirlərə məruz qalan], fəqət əzmi-xüruşani-fikrindən [fikirlərinin coşğun əzmindən] geri dönməyən sevgili şairimiz Səhhət, Gəncə məzarıstanında dəfini-xaki-əbədiyyət [əbədiyyət torpağında dəfn edilmiş] bulunur. Zatən Şeyx Nizamiyə böyük bir hörməti vardı. Daima Nizaminin layəmut [ölməz] nəzmlərini kəmali-fəsahətlə [səlis bir şəkildə] oxur, samelərini [dinləyicilərini] ləzzətyabi-ədəbiyyat [ədəbiyyatdan ləzzət alan] eylərdi. Ən nəhayət, "pənc gənc" [beş xəzinə] şairi-möhtərəmiylə [möhtərəm şairiylə] həmcivari-məzar oldu [məzarları yaxın oldu]. Şirvanlı şair Şirvan faciəsi əsnasında başqaları kimi şəhəri tərkə məcbur olmuş, yolda soyulmuş, var-yoxu əlindən alınmışdı. Bir qaç yerlərdə sərsəriyanə dolaşmış, ən sonunda Gəncəyə nəqli-məkan etmişdir [köçüb yerləşmişdi]. Orada xəstə oldu. Zalım və biaman [amansız] ölümün pəncəsindən rəhayab olammayaraq [qurtula bilməyərək] tərki-dağdağayi-həyat [həyatın çətinliklərini tərk] eylədi. Səhhətin bu üfuli-nabəhəngamı [vaxtsız qürubu] ədəbiyyatımız dünyasında böyük bir boşluq buraxdığından dolayı, ciddən şayani-təəssüfdür [təəssüfə layiqdir]. Səhhət öldü. Fəqət əsl düşünüləcək şurasıdır ki, şairi-mütəvəffanın [mərhum şairin] qeyri-mətbu [çap edilməmiş] olan mətrukati-qələmiyyəsi [qələm mirası, yazıları] nasıl oldu? Yoxsa Şirvan facieyi-üzmasında [böyük faciəsində] yanıb-yaxılan sərvətlər kimi Səhhətin də asari-qələmiyyəsi [qələm əsərləri], sərvəti-fikriyyəsi [zehni sərvəti] ihraq olub [yanıb] getdimi? Məncə şayani-əndişə [əndişəyə layiq olan] burasıdır. Dünyamız hali-asayişə [əmin-amanlıq vəziyyətinə] övdət etdikdən [qayıtdıqdan] sonra ehtimal ki, bu həqiqət anlaşıla biləcəkdir. Şimdilik təbibi-ədibimiz [ədib həkimimiz] olan cənab Səhhətin vəfatından dolayı ərbabi-şəbab [gənclər] naminə baqi mandələrinə [geridə qalanlara] təziyələr izharla [baş sağlığı verməklə] xətmi-kəlam eylərəm [sözümü bitirirəm].

*Bakı,*
*Əbdülsəlimzadə*
*Məhəmməd Hadi*

## DAĞISTANLILAR CÜMHURİYYƏTİNDƏ

"Qafqazskoye slovo" qəzetəsi müxbiri ilə etdiyi müsahibəsində Dağıstanlılar Cümhuriyyəti nümayəndəsi demişdir:

1918 sənəsinin əvailində [əvvəllərində] Dağıstanlılar Cümhuriyyəti öz vətənini və hökuməti bolşeviklərin böyük qüvvəsinə təslim etmək məc-buriyyətində qaldığından, müsəlman qolordusunu buraxdı. Fəqət Dağıstanda fəaliyyət bitmədi. Dağıstanlılar öz qüvvələrini cəm etdikdən sonra, ölkələrini yenidən işğal etməyə başladılar. Təşrini-əvvəlin [oktyabrın] 12-sində Dərbənd işğal edilərək üzərində Dağıstan bayrağı təməvvücə [dalğalanmağa] başladı. Təşrini-əvvəlin 23-ündə Teymurxanşura işğal edildi. Dağıstan Hökuməti təcili surətdə buraya köçdü. Bütün işğal edilmiş vilayətlərdə xalq Məclisi-Müəssisan [Təsisçilər Məclisi] dəvətinədək Hökumətə yəmin etdi. İşbu məclisdə bir dağıstanlılar deyil, bütün başqa millətlər də mütənasib miqdarda iştirak edəcəklərdir.

Təşrini-saninin [noyabrın] 7-sində Dağıstan Cümhuriyyəti qoşunu tərəfindən Petrovsk işğal edildi. Teleqramda deyilirdi ki, Petrovsku türklər deyil, Cümhuriyyətimiz ordusu işğal etmişdir.

Yusif İzzət paşa Hökumət indində [nəzdində] hərbi müstəşardır [məsləhətçidir]. Cümhuriyyət ordusunda türklər pək azdır. Onlar da fəqət müəllimi-zabitandır [zabitlərə təlim keçənlərdir]. Hər halda bizim ordumuzdakı türklər Cümhuriyyətimiz qulluğundadırlar. Türk Hökuməti və Komandanlığının Cümhuriyyətimizlə əlaqəsi yoxdur.

Bu da məlumdur ki, ingilislər Biçeraxova müavinət [yardım] vədə vermişdilər. Böylə görünür ki, müavinət gecikdi. Təərrüzlərimiz [hücumlarımız] dəmiryolu boyu davam edərək, Qroznıya tərəf çevrilmişdir. Tersk Şurasını bitirdikdən sonra Hökumət Vladiqafqaza köçə biləcəkdir.

Cümhuriyyətin cənubən hüdudu [cənub sərhədi] Samur nəhri ilə Azərbaycana çatır. Bütün Dağıstan və Çeçenistan başqa qüvvələrdən təmizlənmişdir. Qabarda ilə əlaqəmiz var. Burada da bolşevizm ilə mübarizə edilməkdədir.

## TÜRK QƏZETƏLƏRİNDƏN

**"Xalqa doğru" cəmiyyəti**

İzmirdə müntəşir [nəşr olunan] köylü qəzetəsində oxuduğuma görə, "Xalqa doğru" cəmiyyətinə təəhhüd [vəd] edilmiş olan 40 min lirədən 19 min lirəsi yatırılmış [hesaba keçirilmiş] olduğundan, cəmiyyət həman [dərhal] vəzifəsinə başlamışdır. Cəmiyyət ilk öncə frengi [sifilis] və frengiyə qarşı yapılacaq tədbirləri göstərir bir kitab çıxaracaq və bunu bütün xalqa parasız dağıdacaqdır [paylayacaqdır]. Ondan başqa Kordon üstündə mükəmməl bir dairə [mənzil] tutaraq, orasını bir kitabxana halına qoyacaq və hər kəs üçün açıq bulunduracaqdır.

*"Sabah"*

**Dörd sənəlik hava müharibəsi**

Dörd hərb sənəsi zərfində şimdiyə qədər yapılan təhqiqata nəzərən, Müttəfiqlər 5915 təyyarə zaye etdikləri [itirdikləri] halda, Almaniya 1920 təyyarə zaye etmişdir. Yalnız son hərb sənəsində almanlar tərəfi-müqabildən [qarşı tərəfdən] 3617 təyyarə, yəni hərbin birinci, ikinci və üçüncü sənələri zərfində [ərzində] düşürülən təyyarələrin həman iki mislini mütəcaviz [demək olar ki, iki qatına çatan] təyyarə düşürmüşlərdir.

Bu ərqam [rəqəmlər] hava sahilinə verilən əhəmiyyətin sürətlə təzayüd etdiyini [artdığını] isbat etməkdədir. Müttəfiqlər 430 sabit balon zaye etmişlərdir. Biz 163 sabit balon zaye etdik.

*"Tənin"*

**Təhtəlbəhr [sualtı qayıq] müharibəsinin nətayici [nəticələri]**

Hərbin bidayətindən [başlanğıcından] bəri Müttəfiqlərin istemal [istifadə] etməkdə olduqları cahan səfaini-ticariyyəsi [ticarət gəmiləri] tədabiri-hərbiyyəmiz [hərbi tədbirlərimiz] sayəsində təqribən 18 milyon 251 min tonilato tənaqüs etmişdir [azalmışdır]. Bu miqdarın 11 milyon 175 min tonilatosu ingilis ticarət donanmasına aiddir. Bu əsnada yapılan təhqiqata nəzərən, Müttəfiqlərin kəndi səfayini-ticariyyələri və ya kəndi nəqliyyatlarında qullandıqları ticarət səfainindən [gəmilərindən] yuxarıda ziyaı [itkisi] bildirilən miqdardan maəda [başqa], mayıs zərfində [may ayı ərzində] ayrıca məcmusu [cəmi] təqribən qeyri-safi [brutto] 48 min tonilatoluq səfayini-ticariyyəsinin vəxim [ağır] surətdə xəsərzədə olaraq [xəsarət alaraq], kəndi vəsaiti-hərbiyyələri [hərbi nəqliyyat vasitələri] ilə düşmən limanlarına ricət edildiyi [çəkildiyi] anlaşılmışdır.

*"Tənin"*

**Amerikadan Etilaf dövlətlərinin istiqrazı**

"T." qəzetəsi Etilaf dövlətlərinin Amerikadan aldıqları istiqrazı dərc etmişdir. İstiqrazın cümlətanı 6 milyard 901 milyon 590 min dollardır və yaxud 30 milyard 457 milyon 950 min frankdır. Bunlardan 660 milyon dollar İtaliyanın borcudur, 325 milyon dollar Rusiyanındır, 131 milyon dollar Belçikanındır, 15 milyon 790 min dollar yunanındır, 9 milyon dollar Serbiyanındır, 3 milyard 18 milyon İngiltərənindir, 1 milyard 675 milyon Fransanındır. Rusiya əqd etdiyi [saziş bağladığı] 325 milyon istiqrazdan 187 milyon dollar ala bilmişdir.

**Müharibə neçəyə tamam olmuş-dur**

Nemes mənbələrinin məlumatına görə, Etilaf dövlətlərinin məxarici 3 dəfə Mərkəzi düvəl [dövlətlər] məxa-ricatından fəzlədir [artıqdır]. Tərəfeynin [iki tərəfin də] məxaricatı 800 milyard markdır. Müharibənin dördüncü sənəsi məxaricatı hər ayda Etilaf dövlətləri 15 milyard 300 milyon mark idi. İşbu vaxtadək Mərkəzi düvəl 5-8 milyardadək xərc edirmişlər.

## MÜXTƏLİF XƏBƏRLƏR

**İrlandanın tələbi**

İrlandiyalıların qəhrəmanı Dilon İngiltərə Parlamanından tələb etmiş-dir ki, Sülh Konqresinədək İrlandiyanın istiqlaliyyəti təsdiq edilsin.

**Ukraynada alman qoşunları**

Sofiyadakı Ukrayna nümayəndəsinin xahiş[i] və başqa sabiq Rusiyaya daxil olan hökumət təşkilatlarının vasitəsilə İspaniyanın Sofiya mürəxxəsi [nümayəndəsi] öz Hökumətinə müraciətlə rica etmişdir ki, Müttəfiqlər və Amerika hökumətləri nəzdində Almaniya qoşunlarının geri çağırılması üçün təşəbbüsatda bulunulsun. Əks surətdə işbu ölkələrdə anarşi baş qalxızacağı ehtimalı ilə əhalinin bolşevizm tədhişinə [terroruna] məruz qalacağı labüddür [qaçılmazdır]. Ukrayna xüsusi ordu təşkil etdikdən sonra Almaniya qoşunları geri gedə bilərlər.

## ORDAN BURDAN

İstiqlaliyyət...

İstiqlaliyyəti-siyasiyə və milliyyə [siyasi və milli istiqlaliyyət]...

Bu neməti-üzmaya [böyük nemətə] Qafqaz millətləri nail oldular: Müstəqil Gürcistan,

Müstəqil Ermənistan,

Müstəqil Azərbaycan,

Müstəqil Dağıstan

əmələ gəlib, hər kəs öz əli, öz başı olaraq asudə yaşamağa başladı. Cəmisi bir neçə aydır ki, bu asudəliklə yaşayırıq. Hər kəs şaddır. Yerimiz, yurdumuz, torpağımız özümüzün. Hökumətimiz, camaatımız, qoşunumuz özümüzün. Dinimizə, ayin və adətimizə edilən şəmatətdən [bədxahlıqdan] qurtulduq.

Dilimizə, millət və milliyyətimizə vurulan həqarətdən qurtulduq.

Qəyyumumuz da özümüz, yiyəmiz də özümüzük. Öz-özümüzü yaxşı-yaman dolandırırıq. Kimsəyə ehtiyacımız yoxdur.

Qaradavoy lazımsa, varımızdır.

Ministir lazımsa, varımızdır.

Qoy desinlər ki, hələ nöqsanımız çoxdur. Nə olar?

Azadəyik, asudəyik, təkmilinə [əskikləri tamamlamağa] çalışaq.

* * *

Hərdənbir başımıza qara-qara fikirlər gəlir. Birdən bu azadəliyi, bu asudəliyi, yəni istiqlaliyyətimizi əlimizdən geri alarlar...

- Nə üçün?
- Elə-belə!
- Necə "elə belə"? İndi başladıq asudə nəfəs çəkməyə...
- Çox danışma!
- ??!!...

O halda, hüquqi-bəşəriyyəmizi qəsb edənlərə qarşı qəlbimizdə əmələ gələn nifrətin dərinliyini təsəvvürə gətirmək mümkün olarmı?

Lavallah [vallah yox]!!

Bu qədər dərin bir nifrətin dəhşətini təsəvvür etmək istəyənləri vəhşət basar!

Qasib [qəsbkar] milyonlarca qəlblərdə kəndinə qarşı büruz edən [özünü göstərən] bu nifrətin dərya kimi guşü-xürüşanından [coşub-daşmasından] divanəvar [dəli-divanə kimi] bir halətə gəlib, tükləri qabarar, gözləri kəlləsinə çıxar, rəngi saralar, ağlı çaşar, dəhşət və vəhşət içində başından yapışıb fəryad edər:

- Mən nə yapdım? Nə yapdım?!

Lakin günahi-kəbirədən [böyük günahlardan] daha betər, daha fəna olan bu şəni [pis; biabırçı] əmrə [işə] kim mürtəkib ola [qol qoya] bilər? Yenicə azad edilmiş bir milləti yenidən əsir etmək?!

Yenidən qul etmək?!

Bu jandarmlığı – əvvəlcə edəni məlumdur – indi kim edə bilər?!

Hürriyət sevən ingilismi?

Azadlıq yolunda qanlar tökən firəngmi?

Sərbəstlərdən də sərbəst olan amerikalılarmı?

Mühaldır [qeyri-mümkündür]!

Ağla sığışan deyildir!

* * *

Qanlı müharibə bitmək üzrədir.

Sülh olacaqdır deyirlər.

Bu müdhiş [dəhşətli] müharibədən sonra bəşəriyyətin uzun bir sülhə, tam bir asayişə əşəddi-ehtiyacı [şiddətli ehtiyacı] vardır. Əgər bu sülh genə köhnə adət üzrə bir millətin ağa, o biri millətin qul olmasını əsas edərsə, o halda sən ey bəşəriyyət, sülh adını eşidərsən, amma üzünü görməzsən. Asayiş səsini eşidərsən, amma asayiş nə olduğunu bilməzsən!

Bəlkə topa, tüfəngə ümid edirsən ki, qul edilən millətin ağzını yumar?

Bica [yersiz] ümid!

Çünki:

Bu olar zülm.

Və zülm olan yerdə sülh olmaz. Zira, haqq zülm ilə müharibəyə qalxar.

Desən ki, zülm haqqı basar, çünki onun topu, tüfəngi vardır, haqqın nəyi var?

Onda sənə haqq-gu [haqqı söyləyən] şairin haqq sözləri ilə cavab verib deyərəm ki:

"Zülmün topu var, gülləsi var, qəl'əsi varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır!"

*Filankəs*

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Ərzaq Nəzarəti Gəncədən böylə bir teleqram almışdır:

"Gündən-günə Qazax qəzasında artmaqda olan vəba və sair sari [yoluxucu] xəstəlikdən çox adam ölür. Qəndə çox ehtiyacımız vardır. Poti şəhəri qaz (neft cövhəri) əvəzində qənd mübadiləsinə girişməyi təklif edir. Qazax qəzasında da qaz mövcuddur.

Qazax kooperatifi vasitəsilə qəndə əvəz olaraq neft göndərmək üçün icazə verməyinizi rica edirəm."

* * *

Bakı Dövlət Xəzinəsi Ərzaq Nəzarəti İdarəsinə xəbər verir ki, 11 təşrini-sanidə [noyabrda] Maliyyə Nəzarətindən aldığımız məlumatdan anlaşılır ki, smeta xaricində olaraq Ərzaq Nəzarəti ixtiyarına Ləvazimi-Əsgəriyyə İdarəsi [Hərbi Ləvazimat İdarəsi] üçün (hesabati-cariyyə [cari hesab] olaraq) 10 min rublə buraxılmışdır.

## BAKI XƏBƏRLƏRİ

- Maarif Nəzarəti edadi məktəblərin tədris haqqını işbu qərarla qəbul və təsdiq etmişdir: Ehtiyat [hazırlıq] siniflərində ildə 200 rublə, əvvəlinci sinifdən səkkizinci sinfədək ildə 400 rublə.
- Maarif Nəzarəti bütün edadi məktəblər müdirlər və rəisələrinə xəbər vermişdir ki, bu vaxtadək məktəblilərin ixrac, qəbulu və bir yerdən o biri yerə köçməsi işlərinə nahiyyə maarif müdiri tərəfindən baxılırdı. Bundan sonra isə bu işlər Maarif Nəzarətindən asılı olacaqdır.
- Bələdiyyə qulluqçularının məvacibi artırılmaq məsələsindən naşi [ötrü] Maliyyə şöbəsi təşrini-əvvəl [oktyabr] məvaciblərinin təfavütünü hesab etməklə iştiğal edir [məşğul olur].
- Şəhər müəssisələrindən ötrü Bələdiyyə İdarəsi 20 ədəd buxar qazanı almağı qət etmişdir.
- Müştərək [kollektiv] müqaviləna-mənin fəsx [ləğv] edilməsindən dolayı Maliyyə Komissionu hal-hazırda təcili surətdə qulluğundan ixrac edilmiş və vəfat etmiş qulluqçuların əyalına [ailəsinə] maddi müavinət [yardım] layihəsi tərtib verir.
- Azərbaycan Dəmiryolları müdiri bütün mövqif [stansiya] müdirlərinə əmr göndərmişdir ki, Poylu mövqifindən Bakıyadək Milli Şura üzvlərinin səfərinə müavinətdə bulunsunlar.
- Azərbaycan Dəmiryolları müdiri M. Aslanov cənabları bütün mövqiflərin süni və ticarət cəhətlərini təftiş etməkdən ötrü dəmiryolları acentələri ilə bərabər iqdamata [təşəbbüsə] başlamışlar.
- Azərbaycan Dəmiryolları İdarəsi tərəfindən yeni iki tren nömrə 8 hazırlanmasına başlanmışdır ki, Tiflislə Bakı miyanında [arasında] işləyəcəkdir. Bundan əlavə, təmir edilmiş vaqonlardan da 3 və 4 nömrəli posta trenlərinə əlavə ediləcəkdir.

## TEATRO VƏ MUSİQİ

**"Dağılan tifaq"**

Cümə günü təşrini-saninin 15-ində Hökumət Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti aktyorları tərəfindən əvvəlcə "Dağılan tifaq" faciəsi və dalınca "Axşam səbri xeyir olar" nam komediya mövqeyi-tamaşaya qoyuldu.

Nəcəf bəyin rolunu artist Sidqi Ruhulla ifa edirdi. Bu cənab nədənsə Nəcəf bəyi cavananə bəzəkdə (qrimdə) və özünə yaraşmayan libasda təsvir edirdi; vəhalonki [halbuki] Nəcəf bəy sinni [yaşlı] və kəndisinə yaraşan libas gərək olaydı. Axırıncı pərdədə isə Sidqi cənabları Nəcəf bəy əvəzinə mərhun Tolstoyun qiyafəsində və Nəcəf bəylərə dəxli olmayan, avropalıya bənzəyən bir hərəkətlə oyununu başa verdi. Sona xanımın rolunu ifa edən Olinskaya xanımın əvəzinə bu rolu Pəri xanım rolundakı Məğfurə xanım ifa etsəydi çox gözəl olardı. Çünki Məğfurə xanımın danışığından və artistkaya layiq hərəkətdən aşkaraca məlum olurdu ki, Sona xanımlığı vəzifəsini bu xoşca başa verdi. Olinskaya xanıma cavan rollarda çıxmamağı məsləhət görürük.

Qayıbov cənabları öz rolunda zəif olduğundan masəva [başqa, özgə] bəzəyi və libası heç Aslan bəy rolu üçün yaraşmayırdı.

Rüstəm Kazımzadə öz rolunda yaxşı idisə də, amma bəzəksiz səhnəyə çıxdığı üçün oyunu ahəngə xələl yetirirdi. Mirmahmud Kazımlı miyanəhal [ortabab] oynayırdı. Buna qoca rolu yaraşır.

Nəcəf bəyin oğlu Süleymanın rolunu ifa edən Şərifzadənin aktyor olmayıb, həvəskar olduğu aşkar idi.

Nazlı xanım rolunu ifa edən Leyla xanımın bundan sonra səhnəyə çıx-masını məsləhət görməyirik. Çünki hangi pyesədə oynasa, o pyesəni bərbad etməyi indidən məlum və aşkardır. Yerdə qalan aktyorlar "fəmən yə'məl" [başdansovdu] vəzifələrini bitirirdilər.

Ələləlümum "Dağılan tifaq" pyesəsinin bərbad bir halda keçməsi isbat edir ki, müsəlman aktyorları dramaya şimdiyədək əhəmiyyət vermək istəməyiblər.

"Axşam səbri xeyir olar" komediyasında Məşhədi Şəbanın rolunu ifa edən komik Hacıağa Abbasov cənabları səhnədə aktyor olmayıb, məhz Məşhədi Şəban olub, hərəkət və səkənatı [duruşu] ilə camaatı feyziyab edirdi. Bu cür rollar Abbasov cənablarına çox yaraşır. Övrəti Gülcahanın rolunu yuxarıda zikr olunmuş Leyla xanım genə bərbad etdi.

Qızı Çimnazın rolunu oynayan Olinskaya xanım rolunu bilmədən yaxşı oynaya bilmədi.

Tacir rolunu ifa edən Xəlil Hüseynzadə öz rolunda idi. Məşhədi Şəbanın nökəri Məhəmmədcəfərin rolunu ifa edən Rza Darablı cənabları libas və hərəkətilə məxfi bir gəlin olub gəlin dilində sual-cavabı oyuna bir hüsn verib camaatı artıq dərəcədə güldürdü. Darablı cənabları həmişə bu cür rollarda olsa yaxşıdır.

Teatroda camaat az deyildi.

*Tamaşaçı*

## QUBADA ASAYİŞ

Heç tərəfdə soraq verilməyən bir asayiş Quba qəsəbə və qəzasında hal-hazırda hökmfərmadır [hökm sürməkdədir]. Qətl, xırsızlıq və başqa dürlü cinayətlər ocağı olan Quba qəzasının bu qədər əmniyyət kəsb etməsi [əldə etməsi] hər kəsi heyrətlərdə buraxır. Əski zamandan polis xidmətində olanlar "Keçmiş «xoşbəxt» vaxtlarda hər gün 50 və daha ziyadə cinayət raporları alardıq, şimdi yahu bir dənə olsun belə gəlmir" deyə təəccüblənirlər. Müstəntiqlər "İşsizlikdən bezikdik, canım" deyə şikayət edir. Ən calibi-maraq [maraqlı] şurasıdır ki, iğtişaş günlərində yağma [talan] edilmiş heyvan və başqa əşyaları talançılar gecəleyin gətirib məntəqə və nahiyə polis idarələri qapısına buraxıb qaçırlar. Bu günlər Quba-Xaçmaz şose yolunda bir gülməli hekayə vaqe olmuşdur ki, yazmadan keçəmməm.

Bir arabada həmişə qorxaqlıqları ilə məhşur Quba yəhudiləri Xaçmazdan Qubaya gəlirlərmiş ki, ətraf köylərə gedən bir qaç süvari müsəlmanlar onlarla qarşı-qarşıya çıxırlar. Axşamın qaranlığından yolçu müsəlmanları çapovulçu zənn edən yəhudilər arabadan enib ətrafa səslənərək haray-bağırtı qopardırlar. Əhvalı belə görən müsəlmanlar nə qədər "Canım, vallah biz yol adamıyıq, sizinlə heç bir rücuumuz [işimiz] yox; gəliniz, yolunuza doğru davam ediniz" deyə səslənirsə də, yəhudilər irəliləməzlər. Axirən [axırda] müsəlmanlar "Allah sizin bəlanızı versin; qaimməqam əfəndi bu hadisəni eşitmiş olsa, bizi haydud [quldur] zənn edib də başımıza nə bəlalar gətirməz" deyə atlarını yoldan çıxarıb başqa istiqamətə doğru yollanırlar və yəhudilər dəxi toplaşıb yollarını təqibə başlayırlar.

İştə, Quba qəzasında əmnü-asayiş [əmin-amanlıq və asayiş] bu qərar ilədir.

* * *

"Azərbaycan"ın keçmiş nömrələrinin birində xəbər verdiyim kimi, az zaman içində bir qan ocağı olan Quba qəzasında bu qədər xeyirbəxş əmnü-asayiş vücuda [meydana] çıxaran yeni qaimməqamımız Əmir xan Xanxoyski əfəndinin qırılmaq bilməyən polad hümmətləridir. Xan əfəndi yalnız asayiş bərpa etmək üçün işləməyib, Qubanın rifahi-hal və səadəti, nəşri-maarif [maarifin yayılması] və məkatib güşadı [məktəblər açılması] üçün var qüvvələrini sərf etməyi müzayiqə etməyirlər [əsirgəməyirlər]. Lakin təəssüflər olsun ki, Xan əfəndinin başqa vəzifə başına təyin edilməsi xəbəri gündən-günə kəsbi-qüvvət etmədədir [güclənməkdədir]. Şu xəbəri eşidib də Qubanın əhvalına ağlamadan kəndimi alammayıram. Zira Quba kimi bir çox fəlakətlər görüb, böhranlı günlər keçirmiş tərəf [məmləkət] üçün Xan əfəndi kimi çalışqan bir hakim Allah vergisi olmuşdu. Xan əfəndini götürmək yenə təzədən Qubanı qəzanın qarşısına atmaq deməkdir. Xan əfəndinin gəlməsilə Qubanın bəxtli qitələr [bölgələr] sırasına keçəcəyi bəklənir idisə, getməsiylə də şu ümidlər bərhəva [puç] olacağı təhdidi doğur.

*H.R.*

## LƏNKƏRANDAN

**Xüsusi müxbirimizdən**

Əsədullah Əliyevin qətl edilməsi Lənkəran müsəlmanlarının qəminə və narazılığına bais olmuşdur. Mərhum əsgəri inqilab komitəsi üzvü olmağına ətraf kəndləri gəzib müsəlmanlarla Rusları barışdırmaq və ittihada dəvət etmək üçün əldən gəldiyi qədər işləmişdir. Onun qətli indiyə qədər müəmmalı bir surətdə qalmışdır. Məhəlli hökumət bu işi açmaq və qanlıları tutmaq üçün bir tədbir ittixazına girişmişdir. Onun qətlindən məhəlli komanda soldatlarından biri məznun tutulur. Çünki Əliyev beşaçılan gülləsi ilə komissar yaxınlığında vaqe olan iclasda qətl edilmişdir. Burada danışıldığına görə bu yaxınlarda İngilis əsgəri dəstəsinin Lənkərana gələcəyi gözlənilir. Bundan əlavə İngilis əsgərlərinin Avetisov dəstəsi ilə bir yerdə işləyəcəkləri dəxi rəvayət olunmaqdadır. Bu xəbərin nə qədər doğru olub-olmadığını bilmərik. Biz ancaq burasını yəqin etmişik. Avetisov soldatları Lənkərandan getməyincə müsəlmanlar öz evlərində rahat nəfəs çəkə bilməyəcəklərdir. Buna binaən vücuda gətirilən qanunsuzluq və dəhşətlərdən xilas olmaq üçün Avetisov dəstəsi bizim şəhərimizi məmləkət mənafeyi xatiri üçün tərk etməlidir.

**Berlin Darülfünununun həkimi**
**L. Melkumyans**

Əmrazi-tənasüliyyə [cinsi xəstəliklər] və dəri naxoşlarını qəbul edir. Qan damarları-na "606" və "916" dəvalarını istemal [tətbiq] edir. Hər gün saat 2-4-ə kimi.

Ünvan Birjevoy caddədə Malakan bağçası qarşısında həkim Temirxanyanın müalicəxanasında. Telefon nömrələri 29-85 və 32-77.

*255*

**Doktor Krinski**

Sifilis, əmrazi-tənasüliyyə [zöhrəvi xəstəliklər] və cild mərəzinə mübtəla olanları qəbul etməyə başlamışdır. Səhər saat 9-dan 12-yə kimi; axşam saat 4-dən 7-yə kimi. Ünvan: Tarqovı caddədə Tağıyev qardaşlarının 10 nömrəli evində. Telefon 15-59.

*263 12-1*

**Diş müalicəxanası**
**S.M. İtkinin süni diş laboratoriyası**

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Arvad diş həkimi Moiseyeva-Levin**

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.

Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

*216*

**Doktor F. S. Şteyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Milli Şurasında***

"Səhər qeyri-mümkün əədd [hesab] olunan…": "Əədd olunan" yerinə qəzetdə səhvən "əədd olunmayan" yazılmışdır.

***Gəncədən alınmış teleqraf***

Bu teleqraf mətninin bəzi cümlələrində rabitəsizlik var.

***Alman sosialistlərinin müraciəti***

"Sosialist Firqəsi": Almaniya Sosial-Demokrat Partiyası nəzərdə tutulur.

"Bitərəf Sosial-Demokrat Firqəsi": Almaniya Müstəqil Sosial-Demokrat Partiyası nəzərdə tutulur.

***Nota***

"Baş katib": ABŞ Dövlət katibi (xarici işlər naziri) nəzərdə tutulur.

"Xariciyyə işləri Baş katibi": Almaniya xarici işlər naziri nəzərdə tutulur. O dövrdə Almaniyanın xarici işlər naziri Vilhelm Zolf olmuşdur.

***Müttəfiqlər ordusunun Bakıya vürudu: İskələdə istiqbal***

"...Bələdiyyə İdarəsi tərəfindən Miryaqub...": Miryaqub Mehiyev nəzərdə tutulmuşdur.

***A. Səhhətin üfuli-əbədisi***

"..."pənc gənc" [beş xəzinə] şairi-möhtərəmiylə…": Nizami Gəncəvinin beş məsnəvidən ibarət "Xəmsə"sinə işarədir.

"Şirvan faciəsi": Erməni quldurlarının Şamaxıda törətdikləri qırğınlar nəzərdə tutulur.

***Türk qəzetələrindən: "Xalqa doğru" cəmiyyəti***

"Kordon": İzmir şəhərinin məşhur bulvarı.

***Ordan-burdan***

"Zülmün topu var, gülləsi var, qəl'əsi varsa, Haqqın da bükülməz qolu, dönməz üzü vardır!": Bu misralar türk şairi Tofiq Fikrətin "Millət şərqisi" adlı məşhur şeirindən götürülmüşdür.

***Bakı xəbərləri***

"Azərbaycan Dəmiryolları müdiri": Azərbaycan Cümhuriyyətinin Nəqliyyat və Rabitə naziri Teymur bəy Məlikaslanov nəzərdə tutulur.

***Qubada asayiş***

"H. R.": Bu imza Hüseyn Rza Məhəmmədbəyliyə məxsusdur.

## Azercell korporativ abunəçilərinin nəzərinə!

24.02.2023-cü il tarixindən etibarən təqdim edilən xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və korporativ müştərilərə təklif olunan tariflərin optimallaşdırılması məqsədi ilə "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində korporativ abunəçilərə təqdim edilən "Azercell Partners", "Azeronline", "Bələdiyyə", "Bizimkilər", "Biznes 200", "Dövlətcell", "Hər Yerə", "Korporativ Dövlətcell", "Korporativ Klassik", "Korporativ Platinum", "Korporativ Premium", "Səfirlik", "Socar", "Yeni Hər Yerə", "Zero VAT Azercell Partners", "Zero VAT Bizimkilər", "Zero VAT Biznes 200", "Zero VAT Dövlətcell", "Zero VAT Hər Yerə", "Zero VAT Korporativ Dövlətcell", "Zero VAT Korporativ Klassik", "Zero VAT Korporativ Platinum", "Zero VAT Korporativ Premium", "Zero VAT Səfirlik", "Zero VAT Socar" və "Zero VAT Yeni Hər Yerə" tarif paketləri ləğv ediləcək. Qeyd olunan tarixdən etibarən növbəti faktura (müvafiq olaraq hər ayın 5-i və ya 25-i) dövrünədək digər tarif paketlərinə keçid etməyən abunəçilərin nömrələrində mövcud paketləri avtomatik olaraq (tarif dəyişikliyinə görə xidmət haqqı tutulmadan) aşağıda sadalanan ardıcıllıq ilə daha əlverişli tarif paketlərinə abunəlik ilə əvəz ediləcək:

| № | Ləğv olunan Tarif Paketlərinin adı | Avtomatik qaydada əvəz ediləcək Tarif Paketlərinin adı |
|---|---|---|
| 1 | "Azercell Partners" | "Biznesim 2" |
| 2 | "Azeronline" | "Biznesim 2" |
| 3 | "Bələdiyyə" | "Biznesim 2" |
| 4 | "Bizimkilər" | "Biznesim 2" |
| 5 | "Biznes 200" | "Biznesim 1GB" |
| 6 | "Dövlətcell" (Korporativ abunəçilər üçün) | "Biznesim 2" |
| 7 | "Hər Yerə" | "Biznesim 2" |
| 8 | "Korporativ Dövlətcell" | "Biznesim 2" |
| 9 | "Korporativ Klassik" | "Biznesim 2" |
| 10 | "Korporativ Platinum" | "Biznesim 2" |
| 11 | "Korporativ Premium" | "Biznesim 2" |
| 12 | "Səfirlik" | "Biznesim 2" |
| 13 | "Socar" (Korporativ abunəçilər üçün) | "Biznesim 2" |
| 14 | "Yeni Hər Yerə" (Korporativ abunəçilər üçün) | "Biznesim 2" |
| 15 | "Zero VAT Azercell Partners" | "Zero VAT Biznesim 2" |
| 16 | "Zero VAT Bizimkilər" | "Zero VAT Biznesim 2" |
| 17 | "Zero VAT Biznes 200" | "Zero VAT Biznesim 1GB" |
| 18 | "Zero VAT Dövlətcell" | "Zero VAT Biznesim 2" |
| 19 | "Zero VAT Hər Yerə" | "Zero VAT Biznesim 2" |
| 20 | "Zero VAT Korporativ Dövlətcell" | "Zero VAT Biznesim 2" |
| 21 | "Zero VAT Korporativ Klassik" | "Zero VAT Biznesim 2" |
| 22 | "Zero VAT Korporativ Platinum" | "Zero VAT Biznesim 2" |
| 23 | "Zero VAT Korporativ Premium" | "Zero VAT Biznesim 2" |
| 24 | "Zero VAT Səfirlik" | "Zero VAT Biznesim 2" |
| 25 | "Zero VAT Socar" | "Zero VAT Biznesim 2" |
| 26 | "Zero VAT Yeni Hər Yerə" | "Zero VAT Biznesim 2" |

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi - SimSim abunəçiləri (012)4904949\2002, Fakturalı xətt abunəçiləri (012)4905252\6565, e-poçt: cutomercare@azercell.com;musterixidmetleri@azercell.com, o cümlədən onlayn müştəri xidmətləri) müraciət etməklə əldə etmək imkanına malikdirlər. Korporativ abunəçilər xüsusi Müştəri Xidmətlərinə ((012)4904940 - şəhər telefonundan, 6050 - mobil telefondan (1 zəng - 0,1 AZN); Bazar ertəsi - Cümə, 09:00 - 18:00; Şənbə, 09:00 - 16:00; e-poçt: destek@azercell.com) müraciət edərək mövcud tariflər, kampaniyalar və xidmətlər haqda məlumat öyrənə, müxtəlif əməliyyatlar həyata keçirə və texniki dəstək ala bilərlər.


# Oyuncaqların ianəsi üçün əlavə qutular istifadəyə verilib

IDEA İctimai Birliyinin oyuncaqların təkrar istifadə üçün ianə edilməsi üzrə "Sevincini bölüş" xeyriyyə kampaniyası çərçivəsində Bakının daha iki məkanında toplanma qutuları yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, "Gənclik Mall" Ticarət Mərkəzi ilə yanaşı, oyuncaq ianələrinin qəbulu üçün qutular "28 Mall" və "Dəniz Mall" ticarət mərkəzlərində də istifadəyə verilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən kampaniya çərçivəsində şəhərin müxtəlif yerlərində yerləşdirilən xüsusi ianə qutularına toplanacaq oyuncaqlar xüsusi qayğıya ehtiyacı olan uşaqlara təqdim ediləcək.

Həmin qutulara insanlar övladlarının artıq istifadə etmədikləri və paylaşmaq istədikləri oyuncaqları yerləşdirə bilərlər. Bu cür təkrar istifadə qutularına toplanan




oyuncaqlar mütəmadi olaraq müxtəlif xeyriyyə təşkilatları və paylanma məntəqələri vasitəsilə uşaqlara paylanılacaq.

Məlum olduğu kimi, tullantıların azaldılması, təkrar istifadəsi və təkrar emalına xüsusi önəm verən IDEA İctimai Birliyi tərəfindən bu sahədə genişmiqyaslı təbliğat və təşviqat tədbirləri, kağız və plastik tullantılarının, işlənmiş batareyaların toplanılaraq təkrar emala göndərilməsi, eləcə də geyim əşyalarının toplanılaraq təkrar istifadəyə göndərilməsi üzrə layihələr həyata keçirilir.

Digər məhsullar kimi, yüksək tələbata malik olan oyuncaqların da tullanması və çürüməsi ətraf mühitə zərərsiz ötüşmür. Bu, həm tullanılan məhsulların çürüməsi zamanı təbiətə buraxılan zəhərli maddə və qazlar, həm də yeni məhsulların istehsalından irəli gələn zərərlə bağlıdır.

Bu xüsusda, IDEA İctimai Birliyi şəhərimizin sakinlərini öz "sevincini bölüşməyə", evlərində olan istifadəsiz, yararlı və saf qalan oyuncaqlarını tullamaq əvəzinə IDEA-nın ianə qutularına yerləşdirməklə ehtiyacı olan uşaqlara öz yardım əlini uzatmağa, eyni zamanda həmin oyuncaqlara "ikinci həyat" verməklə təbiətə vurulan zərəri azaltmağa çağırır. İanə edilən oyuncaqları qutulara atmazdan əvvəl təmizlənməsi, qutulara kənar əşyalar və ya tullantılar atılmaması xahiş edilir.

# 2023-cü il "superfəaliyyət" ili olmalıdır

## BMT bəşəriyyəti dünya okeanını birgə mühafizəyə çağırır

"Okeanları xilas etmək bizim qalib gəlməli olduğumuz bir yarışdır". Bu sözləri BMT-nin baş katibi Antonio Quterreş Kabo-Verdeyə səfərinin sonuncu günü dünya okeanının mühafizəsinə həsr olunmuş beynəlxalq konfransda çıxışı zamanı deyib.



O bildirib ki, bütöv bir komanda kimi çalışaraq bu yarışda qalib gəlmək mümkündür: "Gəlin, okeanın ehtiyac duyduğu qoruyucu olaq. Gəlin, bu fövqəladə vəziyyətə son qoyaq və okean kimi qiymətli sərvəti uşaqlarımız və nəvələrimiz üçün qoruyaq".

### "Mavi" iqtisadiyyat

Baş katib ən müasir dərin dəniz avadanlıqlarının, təkmilləşdirilmiş emalatxanaların və laboratoriyaların yerləşdiyi Mindelu Okeanoqrafiya Elm Mərkəzində çıxış edib. San-Visentedəki elm mərkəzi Kabo-Verdenin arxipelaqın "mavi" iqtisadiyyatını inkişaf etdirməsinin bariz nümunəsidir.

BMT-nin rəhbəri ilə söhbət zamanı Kabo-Verdenin baş naziri Ulisseş Korreyya e Silva qeyd edib ki, əvvəllər okean yerli sakinlər arasında yalnız qəm-qüssə və melanxoliya hissi yaradırdı. Onların bir çoxu daha yaxşı həyat dalınca ölkəni tərk ediblər. Hazırda isə insanlar okeanı inkişaf etmiş turizm, şirin su, "mavi" iqtisadiyyat, təmiz enerji, biotexnologiyalar və akvamədəniyyətlə əlaqələndirirlər.

### Beynəlxalq reqata

1973-cü ildə ilk beynəlxalq okean reqatası start götürüb. O vaxtdan bəri müxtəlif ölkələrdən olan gəmilər hər üç-dörd ildən bir dünya ətrafında üzür.

Ekoloji fəal Denni Vaşinqtonun okean sammitindəki çıxışında qeyd etdiyi kimi, qırx il ərzində reqatanın iştirakçıları Kabo-Verdeni yalnız ötəri və uzaq məsafədən görüblər. Yaxtaçılar arxipelaqda heç vaxt dayanmayıblar. Və budur - ötən cümə günü bu ölkə Qərbi Afrikada yarışın tarixində rəsmi dayanacağın edildiyi ilk dövlət oldu.

Sammitdə çıxış edən reqatanın münsiflər heyətinin sədri Riçard Brizius BMT-nin baş katibini reqata iştirakçılarının okeanların qorunmasına sadiqliyinə əmin edib: "Biz, "Ocean Race" yarışının iştirakçıları, hamımız sizin heyətinizin üzvləriyik. Biz okean adamlarıyıq. Biz okeanı xilas etmək üçün əlimizdən gələni edirik".

Antonio Quterreş öz növbəsində qeyd edib ki, reqatada iştirak edən hər bir gəmidə gələcəkdə "okeanın sağlamlığını" təmin etməyə kömək edəcək elmi məlumatların toplanması üçün xüsusi avadanlıqların olması onu ruhlandırıb.

### Təhdid altında olan əsas resurs

BMT rəhbəri çıxışı zamanı diqqətə çatdırıb ki, hazırda dünyada balıq ehtiyatlarının təxminən 35 faizi həddindən artıq istismar olunur. Qlobal istiləşmə okeanların temperaturunun artmasına səbəb olur ki, bu da tez-tez və şiddətli tufanlara, dəniz səviyyəsinin qalxmasına və sahilyanı torpaqların şoranlaşmasına gətirib çıxarır.

Antonio Quterreş bildirib ki, zəhərli kimyəvi maddələr və milyonlarla ton plastik tullantılar sahil ekosistemlərini çirkləndirir, balıqları, tısbağaları, quşları və dəniz məməlilərini öldürür və ya yaralayır. Tullantılar qida zəncirinə daxil olur və bizim süfrəmizə yığılır. BMT-nin hesablamalarına görə, 2050-ci ilə qədər dənizdə balıqdan daha çox plastik ola bilər.

### Okeanın "super ili"

Baş katib məmnunluqla qeyd edib ki, dünya son bir ildə vəziyyəti düzəltmək üçün bir sıra mühüm addımlar atıb. Nayrobidə okeanın plastiklə çirklənməsinə qarşı mübarizə üzrə qlobal müqavilə ilə bağlı danışıqlara başlamaq üçün tarixi razılaşma əldə olunub. Lissabonda Birləşmiş Millətlər Təşkilatının Okean Konfransı keçirilib və bu konfransda ölkələr bir sıra yeni könüllü öhdəliklər götürüblər. BMT-nin Monrealda keçirilən Biomüxtəliflik Konfransında ölkələr 2030-cu ilə qədər quru, su, sahilyanı və dəniz ekosistemlərinin 30 faizini qorumaq barədə razılığa gəliblər. Quterreşin fikrincə, 2022-ci ili okeanın "super ili" adlandırmaq olar. Ancaq bu yarış bitməkdən hələ çox uzaqdır. Okeanda fövqəladə vəziyyətə birdəfəlik son qoymaq üçün 2023-cü ili "superfəaliyyət ili" etməliyik.

BMT rəhbərinin dediyinə görə, dünyanın dörd əsas istiqamət üzrə təcili tədbirlərə ehtiyacı var, o cümlədən dəniz sənayesinin davamlı inkişafı, inkişaf etməkdə olan ölkələrə genişmiqyaslı dəstəyin göstərilməsi, dəyişən iqlimə qarşı mübarizə və bu məqsədlər üçün elm, texnologiya və innovasiyalardan geniş istifadə olunması.

### Ədalətsiz sistem

Maliyyə sektorunun nümayəndələrinə müraciət edən Antonio Quterres inkişaf etməkdə olan ölkələrin zəngin dövlətlərin öz maraqları naminə yaratdığı mənəvi cəhətdən iflasa uğramış qlobal maliyyə sisteminin qurbanı olduğunu vurğulayıb.

Baş katibin bildirdiyinə əsasən, bu sistemdə qərəz var. Çünki o, Kabo Verde kimi inkişaf etməkdə olan ölkələrin çox ehtiyac duyduğu güzəştli maliyyələşdirməni və borc yükünün yüngülləşdirilməsini müntəzəm olaraq rədd edir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


## Azercell korporativ abunəçilərinin nəzərinə!

24.02.2023-cü il tarixindən etibarən təqdim edilən xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və korporativ müştərilərə təklif olunan tariflərin optimallaşdırılması məqsədi ilə "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində korporativ abunəçilər üçün nəzərdə tutulan "Optimist Danışıq", "Şirkətim (Biznes15)", "Maksimalist", "Biznes 25 (1 aylıq)", "Praqmatist", "Optimist İnternet", "İdealist" paketləri ləğv ediləcək. Qeyd olunan tarixdən etibarən növbəti faktura (müvafiq olaraq hər ayın 5-i və ya 25-i) dövrünədək digər tarif paketlərinə keçid etməyən abunəçilərin nömrələrində mövcud paketləri avtomatik olaraq aşağıda sadalanan ardıcıllıq ilə daha əlverişli tarif paketlərinə abunəlik ilə əvəz ediləcək:

| № | Ləğv olunan Tarif Paketlərinin adı | Avtomatik qaydada əvəz ediləcək Tarif Paketlərinin adı |
|---|---|---|
| 1 | "Optimist Danışıq" | "Biznesim 5 GB" |
| 2 | "Şirkətim (Biznes15)" | "Biznesim 3 GB" |
| 3 | "Maksimalist" | "Biznesim 50 GB" |
| 4 | "Biznes 25 (1 aylıq)" | "Biznesim 5 GB" |
| 5 | "Praqmatist" | "Biznesim 50 GB" |
| 6 | "Optimist İnternet" | "Biznesim 2" + "50GB" aylıq internet paket |
| 7 | "İdealist" | "Biznesim 50 GB" |

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi - SimSim abunəçiləri (012)4904949\2002, Fakturalı xətt abunəçiləri (012)4905252\6565, e-poçt: customercare@azercell.com; musterixidmetleri@azercell.com, o cümlədən onlayn müştəri xidmətləri) müraciət etməklə əldə etmək imkanına malikdirlər. Korporativ abunəçilər xüsusi Müştəri Xidmətlərinə ((012)4904940 - şəhər telefonundan, 6050 - mobil telefondan (1 zəng - 0,1 AZN); Bazar ertəsi - Cümə, 09:00 - 18:00; Şənbə, 09:00 - 16:00; e-poçt: destek@azercell.com) müraciət edərək mövcud tariflər, kampaniyalar və xidmətlər haqda məlumat öyrənə, müxtəlif əməliyyatlar həyata keçirə və texniki dəstək ala bilərlər.








## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin işlər müdiri Ramin Quluzadəyə qayınatası

**YUSİF ZAMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin işlər müdiri Firudin Hacıyev Azərbaycan Respublikası Prezidentinin işlər müdiri Ramin Quluzadəyə qayınatası

**YUSİF ZAMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin işlər müdiri Firudin Hacıyev Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Toğrul Musayevə bacısı

**TAMİLLA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikası Prezidentinin işlər müdiri Ramin Quluzadəyə qayınatası

**YUSİF ZAMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Toğrul Musayevə bacısı

**TAMİLLA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Sabir Əliyevə əzizi

**TƏRLAN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikası Prezidentinin işlər müdiri Ramin Quluzadəyə qayınatası

**YUSİF ZAMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecinin direktoru Oruc Məmmədova qardaşı

**İBRAHİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" Nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4926
Sifariş 186

Qiyməti 40 qəpik